BİZ BUNDAN SONRA QÜRURLU XALQ KİMİ VƏ MÜBARİZ DÖVLƏT KİMİ YAŞAYACAĞIQ!

MAGİSTRANTLAR AMEA NAXÇIVAN BÖLMƏSİNİN ALİMLƏRİ İLƏ GÖRÜŞÜB
səhifə-2-də

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ BİR GÜNLÜK TƏLƏBƏ LAYİHƏSİ UĞURLA BAŞA ÇATIB
səhifə-3-də

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ QEYD EDİLİB
səhifə-4-də

ELMƏ HƏSR OLUNAN ÖMÜR
səhifə-5-də

NAXÇIVANDA NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİ VƏ MİLLİ DƏYƏRLƏRİMİZ
səhifə-8-də

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

YENİ FİKİR

HEYDƏR ƏLİYEV

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

31 mart 2021-ci il, №3 (37)

UNİVERSİTETİN KOLLEKTİVİ SƏRGİ-SATIŞLA TANIŞ OLUB

Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq, muxtar respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə təşkil olunan məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil olunub. Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri də sərgi-satışda sərgilənən sənətkarlıq nümunələrinə baxıblar.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova sərgi haqqında məlumat verərək qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün uğurla həyata keçirilən dövlət qadın siyasəti muxtar respublikada da layiqincə icra olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası müddətində komitə tərəfindən aztəminatlı ailənin üzvü və sağlamlıq imkanları məhdud olan qadınların peşə kurslarına cəlb olunması üçün müvafiq tədbirlər görülür. Artıq 5 ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışı təşkil olunur. Belə sərgi-satışların təşkilində məqsəd qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, ailə dəyərlərimizi, çoxəsrlik adət-ənənələrimizi gənclərə aşılamaq, nəsildən-nəsilə ötürülərək keçmişdən bu günümüzə gəlib çatan milli dəyərlərimizi əl işlərimizə köçürüb yaşatmaqdır.

Diqqətə çatdırılıb ki, sərgi-satışda rayon (şəhər) icra hakimiyyətlərinin təşkilatçılığı ilə istedadlı qadınlarımızın, o cümlədən kəndlərimizdə yaşayan evdar qadınlarımızın, həmçinin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq mərkəzlərinin dərnək rəhbərləri və üzvlərinin, məktəb və məktəbəqədər müəssisələrin, orta ixtisas və ali təhsil müəssisələrinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınlar və rəssamların, məhkum qadınların, eləcə də sərmayə kapitalı verilən qadınların da əl işləri sərgilənir. Vurğulanıb ki, bugünkü sərgi-satışda sərmayə kapitalı verilən 26 qadının əl işi sərgilənir.

Qeyd edilib ki, sərgi-satışa Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 424 qadının 6488 əl işi, 6 sağlamlıq imkanları məhdud kişinin 25 sənətkarlıq nümunəsi olmaqla, ümumilikdə, 430 şəxsin 6508 əl işi cəlb olunub. Toplanılan əl işləri arasında, 2395 muncuqla iş, 1547 dekorativ iş, 1727 toxuma, 379 tikmə, 134 dekorativ tablo, 48 tikmə tablo, 6 vitraj, 142 yağlı boya, 35 sulu boya, 20 toxuma tablo, 44 xalça, 3 ağac üzərində yandırma, 13 taxta üzərində oyma, 9 mis üzərində döymə, 2 ebru, 3 hiperrealizm və 1 miniatür vardır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi isə sərgi-satışa 95 müəllifin 1000-ə yaxın əl işi ilə qatılıb. Burada 18 yaşadək uşaqlar da daxil olmaqla sağlamlıq imkanları məhdud şəxslərin, eyni zamanda ahıl vətəndaşların da əsərləri nümayiş edilib. Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzi 76 nəfər müəllim və tələbənin 210 əsəri sərgi-satışda uğurla təmsil olunub. İlk günlərdən etibarən toxuma, tikmə, xalçaçılıq, dekorativ tətbiqi sənət nümunələrinin sərgiləndiyi əsərlər böyük maraqla qarşılanıb.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov satış-sərgi ilə tanış olarkən qeyd edib ki, muxtar respublikada yaradılan mədəni mühit və əlverişli şərait qadınların zəngin potensialının üzə çıxarılması və dəyərləndirilməsi üçün əlverişli zəmin yaradır. Belə tədbirlərin təşkili qadınların cəmiyyətdə layiqli yer tutmaları və çəkdikləri zəhmətin dəyərləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Prorektor sərgidə nümayiş olunan əsərləri yüksək qiymətləndirib və yaradıcı qadınlara uğurlar arzulayıb. Könüllü kimi fəaliyyət göstərən Aytac Əliyeva yaradılan şərait üçün minnətdarlıq ifadə edib. Seymur Talıbov və universitetin kollektivi çox sayda hədiyyəlik əl işləri alıblar.

PROFESSOR-MÜƏLLİM HEYƏTİ DÖVLƏT BAYRAĞI MUZEYİNDƏ

"Muzey günləri" çərçivəsində Naxçıvan Dövlət Universitetinin kollektivi Naxçıvan şəhərində yerləşən Dövlət Bayrağı Muzeyində olub.

Kollektivə muzeyin yaradılması tarixi və burada sərgilənən eksponatlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamı ilə "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamına əsasən yaradılıb.

Diqqətə çatdırılıb ki, unikal quruluşa malik Bayraq Muzeyində ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunmuş "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərar və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri muzeyin ekspozisiyasında yerləşdirilib.

Qeyd edilib ki, Ali Məclisin Sədri Azərbaycan Respublikasının Dövlət Himninin mətninin və Dövlət Gerbinin təsvir olunduğu xatirə hədiyyələrini muzeyə təqdim edib. Muzey dövlət atributlarımızın tarixinin öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir.

UNİVERSİTET TELEVİZİYASI MUXTAR RESPUBLİKADA YAYIMA BAŞLAYIB

Naxçıvan Dövlət Universiteti Televiziyasının Naxçıvan Muxtar Respublikası miqyasında yayımının təqdimat mərasimi keçirilib.

Tədbirdə Universitet Televiziyasının efiri izlənilib. Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev çıxış edərək muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısı sayəsində universitetdə yaradılan müasir tədris şəraitindən, qazanılan uğurlardan danışıb. Qeyd edilib ki, muxtar respublikanın jurnalist kadrlarına olan ehtiyacı nəzərə alınmaqla universitetdə 2001-ci ildən Jurnalistika ixtisası üzrə kadr hazırlığına başlanılıb. Bildirilib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı, ixtisas müəllimlərinin, Media Mərkəzinin işçi heyəti və tələbə-jurnalistlərin xüsusi bacarığı və səyi nəticəsində Universitet Televiziyası bu ilin fevral ayının 24-dən etibarən muxtar respublikada yayıma başlayıb. Vurğulanıb ki, televiziya həftənin I, III və V günləri saat 11-dən 15-dək efirdə olur. Rektor gənc jurnalist kadrların peşə hazırlığının yüksəldilməsi və gələcəkdə daha böyük nailiyyətlərə imza atmaq üçün kollektivin birgə əməyinin zəruriliyini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli vurğulayıb ki, bu tarixi hadisə nəticəsində muxtar respublika televiziyasının kadr potensialının təmin edilməsində Universitet Televiziyasının gələcək perspektivlərinin mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Naxçıvan Muxtar Respublikası Televiziya Ötürücü Mərkəzinin direktoru Hikmət Əhmədov yayım avadanlıqlarının yenilənməsi və televiziyanı maddi-texniki baza ilə təmin etmək üçün hər zaman hazır olduqlarını dilə gətirib.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev Universitet Televiziyasının gələcəyə hesablanmış inkişaf perspektivlərindən, Universitetin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Səadət Əliyeva Universitet Televiziyasının yaradıcılıq imkanları, Universitet Televiziyasının əməkdaşı Aqşin Məhərrəmli televiziyanın maddi-texniki bazası haqqında danışıblar.

Çıxışlarda Universitet Televiziyasının keçdiyi tarixi yola nəzər salınıb, qazanılan uğurlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Göstərilən etimada layiq olmaq və gələcəkdə televiziyanın imkanlarının geniş, əhatəli olacağına əminlik ifadə olunub.

Jurnalistika ixtisası üzrə II kurs tələbəsi Məcid Əkbərov tələbə-jurnalistlərin təcrübələrinin formalaşması məqsədilə yaradılan şərait üçün tələbələr adından öz minnətdarlığını ifadə edib.

Sonra Media Mərkəzinin fəaliyyində aktiv iştirak edən tələbə-jurnalistlər universitetin təşəkkürnaməsi və kitabla təltif ediliblər.

Sonda universitetin Media Mərkəzində yaradılan şəraitlə tanışlıq olub, birgə əməkdaşlıq məsələləri müzakirə edilib.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN PROFESSORU TİBB FAKÜLTƏSİ TƏLƏBƏLƏRİ ÜÇÜN 1000 NÜSXƏ KİTAB HƏDİYYƏ EDİB

Naxçıvan Dövlət Universitetində Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Cabbar Hacıyevin "Ümumi cərrahlıq" iki cildlik dərsliyinin təqdimatı keçirilib. Təqdimatı giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev qonağı salamlayıb və unversitetdə görməkdən məmnunluğunu bildirib. Qeyd edilib ki, rəhbərlik etdiyi ali təhsil ocağının Tibb təhsilində Azərbaycan Tibb Universiteti təcrübəsinin böyük rolu və dəstəyi olub. Rektor fakültənin təcrübi dərslərinin keçirilməsində müstəsna əhəmiyyətə malik olan maddi-texniki bazadan danışıb. Əlverişli tədir üsulları, müasir avadanlıqlarla zəngin laboratoriyaların mövcudluğunun tibb təhsili üçün əhəmiyyət daşıdığını qeyd edən rektor vurğulayıb ki, bu xüsusiyyətlər nəzərə alınmaqla ali təhsil ocağını seçən əcnəbi tələbələrin çoxu da məhz bu fakültədə təhsil alır. Professorun 1000 nüsxə olmaqla universitetə hədiyyə etdiyi dərslikləri yüksək qiymətləndirən rektor bu günə qədər ali təhsil ocağına bu sayda təqdim edilən ilk kitab hədiyyəsi kimi dəyərləndirib.

Ümumi təbabət və klinik fənlər kafedrasının professoru, həkim-cərrah İsa Abdullayev hər iki kitabın elmi və təcrübi əhəmiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, proqram əsasında yazılmış dərslik 2 cild və 18 fəsildən ibarətdir. Qeyd edilib ki, dərsliyin I cildində dünya və Azərbaycan cərrahlığının tarixi, cərrahlıqda etik və hüquqi normalar, cərrahi xəstənin müayinə üsulları, cərrahi müdaxilə və əməliyyatdan sonrakı dövr haqda geniş məlumat verilib. Kitabda ümumi cərrahlığa aid məsələlər, yeni diaqnostika və müalicə üsulları ətraflı şərh edilib. Dərsliyin II cildində isə yaralar, termiki zədələnmələr, cərrahi infeksiya, ətrafların qan və limfa dövranı çatmazlığı, şişlər, cərrahi parazitar xəstəliklər, bərapedici və plastik cərrahlıq kimi məsələlər barədə məlumat verilib.

Ümumi təbabət və klinik fənlər kafedrasının dosenti, "Universitet xəstəxanası" Publik Hüquqi Şəxsin cərrahiyyə şöbəsinin müdiri, həkim-cərrah Cəbi İsmayılov professorun tələbə yoldaşı olaraq öz ürək sözlərini ifadə edib. Vurğulanıb ki, cərrahlıqda "Regenerasiyanın limfoid tənzimi" adlı yeni elmi istiqamətin əsasını qoyanlardan olan Cabbar Hacıyev 1950-ci ildə Qonaqkənd rayonunun

Yerfi kəndində anadan olub. Bakıda Tibb Universitetini Lenin təqaüdü ilə oxuyan professor universiteti fərqlənmə diplomu ilə bitirib. 1975-ci ildən Azərbaycan Cərrahlar Cəmiyyətinin, 1998-ci idən Avrasiya Qastroenteroloji Cəmiyyətinin üzvüdür. 1982-ci ildən gənclərin Ümumittifaq Elmi-Texniki Yaradıcılıq müsabiqəsinin laureatı olub. 2002-ci ildə XXI əsrin tanınmış həkimi seçilən Cabbar Hacıyev 2003-cü ildə isə XXI əsrin tanınmış alimi beynəlxalq diplomlarına layiq görülüb. Rəhbərliyi altında 9 namizədlik dissertasiyası müdafiə edilib. 250-dən çox elmi əsərin, 9 ixtira və patentin, 18 səmərələşdirici təklifin, 1 monoqrafiyanın və 4 dərsliyin müəllifi olan professor dalağın zədələnmələrində 5 üzvqoruyucu əməliyyatların (Hacıyev əməliyyatı) və iki tikiş növünün (Hacıyev- Abbasov tikişi) müəllifidir.

Qeyri-səlis nəzəriyyənin tibbdə tətbiqinə dair elmi işləriylə hətta xarici ölkələrdə belə şöhrət qazanan Azərbaycan Tibb Universitetinin həkim cərrahı Elman Tağıyev çıxış edərək öz müəllimi Cabbar Hacıyevlə bağlı maraqlı xatirələrini bölüşüb. Qeyd edək ki, hər iki Qarabağ müharibəsinə könüllü olaraq qatılan məşhur həkim-cərrahımız həmçinin öz vətənpərvərliyi ilə də gənc nəslə örnəkdir.

"Ümumi cərrahiyyə" ixtisası üzrə həkim-rezident Günel İbrahimova tələbələr üçün mühüm əhəmiyyət daşıyan belə kitabın təqdimi üçün öz minnətdarlığını ifadə edib.

Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Cabbar Hacıyev qeyd edib ki, elmə, təhsilə göstərilən diqqət və qayğı Ulu Öndərdən bizə qalıb. Professor muxtar respublikada hər sahədə görülən yüksəliş fonunda səhiyyənin də üstün mövqeyindən danışıb. Tələbə öz müəllimini ötmürsə, onda inkişafdan danışmaq olmaz - deyən professor gələcəyin həkimlərinə öz məsləhətlərini çatdırıb.

Professor gələcəyin həkimləri

üçün öz imzasıyla kitab hədiyyə edib. Universitet tərəfindən isə professora plaket hədiyyə olunub.

İki gün davam edən tədbirin II günü professor Cabbar Hacıyevin iştirakı ilə Tibb fakültəsinin professor-müəllim heyəti üçün seminar məşğələ keçirilib.

MAGİSTRANTLAR AMEA NAXÇIVAN BÖLMƏSİNİN ALİMLƏRİ İLƏ GÖRÜŞÜB

Naxçıvan Dövlət Universitetində Elm günləri çərçivəsində tədbirlərə start verilib. Martın 13-dən başlanan tədbirlərin davamı olaraq ali təhsil ocağında AMEA Naxçıvan Bölməsinin alimləri ilə universitetin magistrantlarının görüşü keçirilib.

"Çoxəsrlik tariximizdə böyük elmimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıb. Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir". Ümummilli liderin dəyərli fikirlərini ali təhsil ocağının rektoru Elbrus İsayev universitetin İncəsənət fakültəsinin akt zalında keçirilən tədbirdə səsləndirib. Qeyd edilib ki, 2018-ci il aprelin 9-da Prezident İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında sərəncam imzalayıb. Hər il 27 mart tarixində Azərbaycanda qeyd olunan Elm günü elmlə məşğul olar hər kəsin, bütövlükdə Azərbaycan elmi ictimaiyyətinin bayramıdır.

Bildirilib ki, Azərbaycanda elmin inkişafı istiqamətində həyata keçirilən islahatlar Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizdə cəmiyyət həyatının digər sahələri kimi, elm də inkişafın yeni mərhələsinə qədəm qoyub. Azərbaycan elminin inkişaf etdirilməsinə dövlət səviyyəsində böyük qayğı göstərilib, ölkədə alimin və elmin nüfuzu yüksəlib. Universitetdə professor-müəllim heyətinin qazandıqları uğurları muxtar respublikada elmə, təhsil göstərilən dövlət qayğısının bəhrəsi kimi qiymətləndirən rektor elm yolunda irəliləyən hər kəsi təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev Ulu Öndərin əsasını qoyduğu və bu gün uğurla icra olunan davamlı təhsil strategiyasından danışıb. Təhsil siyasətinin muxtar respublikada uğurla tətbiqindən danışan akademik vurğulayıb ki, elm və təhsil siyasəti qarşılıqlı şəkildə inkişaf etməlidir. Görkəmli dövlət xadiminin ölkə elminin inkişafı sahəsində qəbul etdiyi mühüm tarixi qərarlardan biri də 2002-ci il 7 avqust tarixli Sərəncamla Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasıdır. Akademik Naxçıvan Bölməsinin fəaliyyəti dövründə qazandığı uğurlardan danışaraq qeyd edib ki, muxtar respublika ərazisində aparılan araşdırma nəticələri, çoxsaylı tədqiqat əsərləri təkcə Naxçıvanın deyil, ümumilikdə, Azərbaycan elminin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Qazanılan son elmi uğurlar kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun 2018-ci il 7 sentyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Elmin İnkişafı Fondunun adını xüsusilə diqqətə çəkən akademik gələcəyin gənc alimlərini, tədqiqatçılarını fəal olmağa çağırıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin alimlərinin çıxışları dinlənilib. Magistrantlar Naxçıvan Bölməsində olan vakant yerlərlə tanış olublar. Gələcəyin elm adamlarına məsləhət və təkliflərini çatdıran alimlər onlara elm yolunda uğurlar arzulayıblar.

Tədbirdə magistrlərin sualları cavablandırılıb. Alimlər yazdıqları 50-dən çox kitab, monoqrafiyaları universitetə təqdim ediblər.

"BANKÇILIQDA İLK ADDIM VƏ SIĞORTANIN MAHİYYƏTİ" ADLI TƏLİM KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" adlı tədbir keçirilib. Naxçıvanbank və NaxçıvanSığorta ASC-nin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev təlimin əhəmiyyətini önə çəkib. Qeyd edilib ki, tələbələrin bu təlimlərdə iştirak etməsi onların nəzəri biliklərinin təcrübədə formalaşması üçün mühüm əhəmiyyətə malikdir. Rektor birgə əməkdaşlığın perspektivliyinə toxunub və təlimin işinə uğurlar arzulayıb.

"Naxçıvanbank" ASC İdarə Heyətinin sədri Azər Məmmədov bildirib ki, muxtar respublikada bank sisteminin inkişafı diqqətdə saxlanılır. Azərbaycan Respublikasının ilk regional bankı olan "Naxçıvanbank" 11 sentyabr 2008-ci il tarixdə fəaliyyətə başlayıb və açıq Səhmdar Cəmiyyəti muxtar respublika vətəndaşlarının, kiçik və orta sahibkarların etibarlı maliyyə dəstəkçisinə çevrilib. Vurğulanıb ki, muxtar respublikanın banklarında hesablaşma və kassa xidmətləri, depozitlər, əmanətlər, kredit, bankomat, pos-terminal və lizinq əməliyyatları həyata keçirilir. Bundan əlavə, banklar tərəfindən müştəri ödənişlərinin idarəetmə sistemi, sürətli pul köçürmələri, kommunal və dövlət rüsumlarının ödənişi, internet və mobil bankçılıq, SMS məlumatlandırma və xarici valyuta mübadiləsi əməliyyatları da aparılır.

Sonra məruzələr ətrafında çıxışlar olub. "Bank, bank sektorunda mövcud vəziyyət" adlı çıxışında Rafiq Xəlilov bank nədir, bankçılıqda mövcud vəziyyət, bankçılıqda ilk addım, sığortanın mahiyyəti, bankların göstərdiyi maliyyə xidmətləri, bankların təşkili qaydaları haqda danışıb. Bank sirri, ənənəvi bankçılıqdan rəqəmsal bankçılığa keçid tələbələrə geniş izah edilib.

"Naxçıvanbank və elektron bankçılıq" mövzusunda bankın Əməliyyat Departamentinin şöbə rəisi Günay Cəfərova Azərbaycan Respublikasının tək regional bankı olan Naxçıvanbank haqda məlumat verib və elektron və internet bankçılıq və Ani Ödəniş Sistemi (AÖS)-nin üstünlükləri qeyd edilib.

Fərman Quliyev kredit və onun mahiyyəti, kreditin növləri, kredit

mütəxəssisi üçün zəruri biliklər, kreditləşmə mərhələləri, Xavər İbrahimova isə müştəriyönümlü xidmət və müştəri məmnuniyyəti, müştərilərin gözləntiləri, müştərilərlə ünsiyyət qaydalarına toxunublar.

Çay fasiləsindən sonra məruzələrin II hissəsi dinlənilib. Səbuhi Xəlilov ödəniş kartları, plastik kartların üstünlükləri, ödəniş kartının strukturu, növləri, pos-terminal və üstünlükləri, ödəniş terminalları haqda danışıb.

"Bank sektorunda marketinq" haqda çıxışında Zərifə Abbasova marketinqdə əsas meyarın dəyər olduğunu diqqətə çatdırıb. Bank sektorunda 3 əsas marketinq növlərindən, marketinq strategiyasından, marketinqin növlərindən danışaraq sığortanın mahiyyəti, sığortada əsas anlayışlar və onların izahı, təkrar sığorta, sığortaçı və təkrarsığortaçı anlayışlarının geniş izahı verilib.

Tural Əkbərov sığorta növləri, sığorta müqaviləsi və şəhadətnaməsi, sığorta haqqı və sığorta məbləği barədə çıxış edib. "Naxçıvansığorta" ASC-nin fəaliyyəti Leyla Hüseynli bildirib ki, 5 könüllü sığorta növü üzrə fəaliyyət göstərilir. Vurğulanıb ki, müştərilərə sığorta xidmətlərindən rahat və məsafəli yararlana bilmək üçün Naxçıvanbanka məxsus ödəmə terminallarından və SmartPay onlayn ödəniş sistemindən istifadə etməklə Banka yaxınlaşmadan sığorta haqlarını ödəmə imkanı yaradılıb.

Müzakirələr şəklində davam edən tədbir tələbələrin qiymətləndirilməsi ilə davam edib.

Suallara düzgün cavab verən və yaxşı danışıq qabiliyyəti üzrə seçilən 8 tələbə qiymətləndirilib və sertifikatla təltif edilib. Qeyd edək ki, seçilən tələbələr 15 gün ərzində "Naxçıvanbank" və "Naxçıvansığorta" şirkətində təcrübə kursu keçəcəklər.

UNİVERSİTETİN MÜƏLLİMİ TƏLTİF EDİLİB

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov martın 5-də Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Sərəncam imzalayıb. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə Naxçıvan Dövlət Universitetinin "Roman-german dilləri" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Məhsəti Qasım qızı Əsgərova "Əməkdar müəllim" fəxri adı ilə təltif edilib.

Qeyd edək ki, Məhsəti Əsgərova 2016-cı ildən NDU-nun "Roman-german dilləri" kafedrasının müdiri və dosenti kimi elmi-pedaqoji fəaliyyətini davam etdirir. Məhsəti müəllim 2019-cu ildə Fransa Respublikasının "Akademik Palma" ordeni ilə təltif edilib. O, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Fransa Respublikasının Azərbaycandakı səfirliyinin, Azərbaycan Fransız dili Müəllimləri Assosiasiyasının Bakıda və ölkəmizin müxtəlif bölgələrində birgə təşkil etdikləri bir çox treyninqlərdə, Fransanın Strasburq şəhərində Mark

Blok Universitetində, Bezanson şəhərində Franş-Konte Universitetinin Tətbiqi Dilçilik Mərkəzində, Bordo-Montan Universitetində seminarlarda iştirak edib. 1 dərslik, 1 monoqrafiya və 20-yə yaxın elmi məqalənin müəllifidir.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ BİR GÜNLÜK TƏLƏBƏ LAYİHƏSİ UĞURLA BAŞA ÇATIB

"Naxçıvan Dövlət Universitetində bir gün" layihəsi çərçivəsində görüş keçirilib. Məktəblilərin iştirak etdiyi görüşdə universitetin tanıtım videoçarxı nümayiş olunub. Tədbirdə çıxış edən universitetin rektoru El-brus İsayev ali təhsil ocağının maddi-texniki bazası, müasir tədris üsulları haqında danışıb. Universitetin beynəlxalq əlaqələri haqda geniş məlumat verən rektor ali təhsil ocağının qoşulduğu layihələr, tərəfdaş olduğu müqavilələr barədə ətraflı məlumat verib. Universitetin 70 ixtisas üzrə bakalavr hazırlığını həyata keçirdiyini qeyd edən Elbrus İsayev şagirdlərə ali təhsil ocağının mövcud imkanlarından və perspektivindən bəhs edib.

Universitet Hüquq fənləri kafedrasının müəllimi, Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov layihə haqında ümumi məlumat verib. Şagirdlərin universitetlə tanış olmalarına həsr edilən layihənin onların gələcək karyera seçimində mühüm əhəmiyyət daşıyacağını bildirib.

Şagirdlər adından çıxış edən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbinin XI sinif şagirdi Fatimə Mərdanlı yaradılan şərait üçün minnətdarlığını bildirib.

Universitet haqında bukletlər şagirdlərə paylanıldıqdan sonra onlar seçdikləri ixtisaslara uyğun fakültələrdə olub, dərs prosesində iştirak ediblər. Tibb fakültəsində olan şagirdlərə ali təhsil ocağının laboratoriyaları, təcrübi dərslərin keçirilməsi üçün müasir texniki imkanlar barədə məlumat verilib. Şagirdlər fakültədə gələcək həkimlərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində apardıqları intellektual oyunu izləyiblər.

Beynəlxalq münasibətlər və Hüquq fakültəsinə gələn şagirdlər fakültədəki şəraitlə tanış olublar. Onlar Beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələrin elmi-siyasi, diplomatik və ən əsası dövlətçilik biliklərinin artırılması üçün nəzərdə tutulan Diplomatiya Mərkəzinə gəlib, Hüquq ixtisasının tələbələri üçün yaradılan və müasir texniki vasitələr ilə təchiz edilən "Kriminalistika" laboratoriyasının iş imkanları ilə maraqlanıblar. Memarlıq və mühəndislik fakültəsində şagirdlərə sxemotexnika və kodlaşdırma ilə məşğul olan və fakültənin gələcək perspektivlərində mühüm əhəmiyyət daşıyan "Robototexnika" kabinəsinin fəaliyyəti haqda ətraflı məlumat verilib. "Dəmir yolu stansiyalarının avtomatik idarə olunması" laboratoriyasında olan şagirdlər, həmçinin külək və günəş hibrid enerji qurğusunun fəaliyyət prinsipi ilə də tanış olublar.

Tədrisi ingilis dilində keçirilən İqtisadiyyat ixtisasında dərs prosesi şagirdlərdə xüsusi maraq oyadıb. Pedaqoji fakültənin "Atçılıq mərkəzində" olan şagirdlər atıcılıq qaydaları və üsullarını öyrəniblər.

Qeyd edək ki, universitetin "Sosial mərkəzində" olan şagirdlər tənəffüs vaxtını da səmərəli keçiriblər.

Sonda onlar anket sorğusunda iştirak edib, universitetdən xoş təəssüratlarla ayrılıblar.

ELM GÜNLƏRİ ÇƏRÇİVƏSİNDƏ "TƏLƏBƏLƏRİN ELMİ-TƏDQİQAT FƏALİYYƏTİNİN TƏŞKİLİNİN AKTUAL PROBLEMLƏRİ" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ

Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində "Elm günləri" çərçivəsində "Tələbələrin elmi-tədqiqat fəaliyyətinin təşkilinin aktual problemləri" mövzusunda seminar-müşavirə keçirilib.

Tələbə Elmi Cəmiyyətinin nəzdində elmi-tədqiqat fəaliyyətinin ümumi vəziyyətinə nəzər salan rektor Elbrus İsayev TEC-in əsas məqsədinin ali təhsilli mütəxəssislərin hazırlanması keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi olduğunu vurğulayıb. Bildirib ki, tələbələrin elmi-texniki potensialının qorunub saxlanılması, magistr və bakalavr tələbələrinin elmi-tədqiqat fəaliyyətinin müasir şəraitə uyğun təşkil edilməsi qarşıda dayanan vəzifələrdəndir.

Rektor beynəlxalq və yerli konfranslar, elmi seminarlar, müxtəlif ixtisas və fənlər üzrə olimpiadalarda, ali məktəblərarası ən yaxşı elmi tədqiqat işlərinin keçirilməsində tələbələrin iştirakının təmin edilməsini qarşıya bir vəzifə kimi qoyub.

Universitetin Elm və innovasiyalar bölməsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Rza Məmmədov qeyd edib ki, 2019-2020-ci illərdə universitetdə TEC-in xətti ilə həyata keçirilən mövzuların ümumi sayı 349, tədqiqata yönləndirilən tələbə sayı 349, tədqiqat rəhbərlərinin sayı isə 288-dir. Tələbələrin elmi tədqiqatlara yönləndirilməsinin vacibliyi, elmi rəhbərlərin rolu haqında danışan Rza Məmmədov diqqətə çatdırıb ki, tələbə elmi tədqiqat işlərinə rəhbərliyi ali təhsil müəssisəsinin professor və müəllimləri, elmi bölmələrin əməkdaşları və doktorantlar həyata keçirirlər.

NDU-nun Beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə I kurs magistrant, TEC-in sədri Təbrizə Bağırova cəmiyyətin strukturu haqqında məlumat verib, tələbələrin bacarıqlarının artırılması və üzə çıxarılması üçün layihələr, təlimlər planı barədə danışıb. Bildirib ki, TEC-in xətti ilə hər il universitetdə tələbələrin elmi-tədqiqat fəaliyyətlərinin ortaya çıxarılması istiqamətində müsabiqə keçirilir və qaliblər müəyyənləşdirilir.

Təbrizə Bağırova fəallığına görə universitet tərəfindən təşəkkürnamə ilə təltif olunub. Rektor fakültələrin TEC rəhbərlərinə üzvlük vəsiqələrini təqdim edib.

Sonda tədbir iştirakçıları fakültənin yeni binası və burada yaradılan şəraitlə tanış olublar.

YAP UNİVERSİTET ŞƏHƏRCİYİ ƏRAZİ İLK TƏŞKİLATININ HESABAT-SEÇKİ YIĞINCAĞI KEÇİRİLİB

Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi Ərazi İlk Təşkilatının hesabat seçki yığıncağı keçirilib. Yığıncaqda Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, bu gün 760 min 580 nəfər ziyalı, vətənpərvər, sağlam siyasi əqidəyə malik partiya üzvünü öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının təməl prinsiplərinin formalaşması məhz Naxçıvan Muxtar Respublikasından başlanıb. YAP Naxçıvan Muxtar Respublika Təşkilatı bu yolda inamla addımlayır və partiya üzvləri müxtəlif sahələrdə fəallıq göstərərək istər respublika miqyaslı, istərsə də beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil edirlər.

Qeyd edilib ki, muxtar respublikanın ən böyük ali təhsil ocağı olan Naxçıvan Dövlət Universitetində də tələbə-gənclərin təhsili, onların intellektual inkişafı, vətənpərvərliyi, dövlətçiliyimizdə sədaqət rolunda tərbiyəsi və sağlam siyasi təfəkkürdə formalaşdırılması diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi Ərazi İlk Təşkilatının 2 min 162 üzvü vardır. Üzvlərin 211-i professor-müəllim heyəti, 1210-u isə qızdır.

YAP Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov bildirib ki, hazırda muxtar respublikada 502 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlardan muxtar respublika üzrə ən böyüyü məhz Universitet Şəhərciyi Ərazi İlk Partiya Təşkilatıdır. Bu ilk təşkilatı fərqləndirən əsas xüsusiyyət təşkilatın say tərkibində ziyalı təbəqə və fəal gənclərin çox olmasıdır. Partiyanın gələcəyi, onun mövqelərinin saxlanılması və daha da möhkəmləndirilməsi missiyasının uğurla davam etdirilməsi gənclərin əlindədir. İngilis dili və metodika kafedrasının baş müəllimi Aidə Cəlilzadə, universitetin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev və YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli məruzələr ətrafında çıxış ediblər.

Yığıncaqda YAP Universitet Şəhərciyi Ərazi İlk Partiya Təşkilatının sədri Asəf Əliyev və Universitet YAP Gənclər Birliyinin sədri Elgün Tağıyevin hesabat çıxışları dinlənilib.

Sonra yığıncağın qərarı qəbul edilib. Universitet Şəhərciyi Ərazi İlk Partiya Təşkilatının 13 nəfərdən ibarət idarə heyəti və yeni sədri seçilib.

Sonda Universitet Şəhərciyi Ərazi İlk Partiya Təşkilatının yeni seçilən sədri Arzu Abdullayev minnətdarlıq edib, təşkilatın fəaliyyətinin genişləndirilməsində səylə çalışacağını bildirib.

PROFESSOR RÜFƏT KƏLBƏLİYEVLƏ ONLAYN ELMİ-NƏZƏRİ SEMİNAR

Azərbaycan Elmi-tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun professoru Rüfət Kəlbəliyev Universitetin Memarlıq və mühəndislik fakültəsində "Elektroenergetikanın müasir problemləri" mövzusunda onlayn elmi-nəzəri seminar keçirib

"Elektroenergetika mühəndisliyi" ixtisası tələbələri üçün mühüm əhəmiyyət daşıyan elmi-nəzəri seminarda ənənəvi və qeyri-ənənəvi saf, ekoloji cəhətdən təmiz enerji mənbələrindən elektrik enerjisinin alınma prosesi haqqında məlumat verən professor Rüfət Kəlbəliyev Memarlıq və mühəndislik fakültəsində mövcud olan günəş və külək enerjisinin fakültənin enerji təminatının 50 faizini ödəməsini yüksək məmnunluqla qarşılayıb. Hidroenergetikada SES-lərinin güclərinə görə növləri, çayların sululuq dərəcəsi, topoqrafik şəraitdən asılı olaraq çaylar üzərində SES-in tikilməsindən danışan professor, həmçinin İES-də istifadə olunan yanacağın növləri, yanma prosesi, qaz, mazut, kömür kimi yanacaq materiallarının xarakteristikası, alınması haqqında danışıb və atom elektrik stansiyalarında istifadə olunan uranın filizdən alınması prosesi və onun 3 izotopu barədə tələbələrə məlumat verilib.

DEKORATİV TƏTBİQİ SƏNƏT, HEYKƏLTƏRAŞLIQ VƏ KULİNARİYA NÜMUNƏLƏRİNİN SƏRGİSİ

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsində dekorativ tətbiqi sənət, heykəltəraşlıq nümunələri və kulinariyaya dair sərgi təşkil edilib.

Sərgidə çıxış edən universitetin rektoru Elbrus İsayev belə sərgilərin keçirilməsinin tələbələrin təcrübi peşə bacarıqlarının formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyini deyib. Bildirib ki, bu gün əl işlərinin təqdimi və sərgilərin təşkil edilməsi təkcə İncəsənət fakültəsini əhatə etmir. Ümumilikdə, ali təhsil ocağının Pedaqoji fakültəsinin Texnologiya mərkəzi də bu sahədə təqdirəlayiq işlər görür. Rektor sərgidə əl işləri nümayiş olunan müəllim və tələbələri təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb. Bu cür sərgilərin keçirilməsinin artıq universitetdə bir ənənə halını almasına diqqət çəkən Elbrus İsayev bildirib ki, gələcəkdə sərgi-satışların da təşkil edilməsi tələbələrin maddi təminatı baxımdan faydalı ola bilər.

İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov vurğulayıb ki, ali təhsil ocağında ilk dəfədir heykəltəraşlıq və kulinariya sahəsində sərgi keçirilir. Sərgidə universitetin müəllim və tələbələrinin 40-a yaxın əl işi nümayiş olunur.

Sərgini təşkil edən Təsviri incəsənət kafedrasının müəllimi Əzizə Məmmədova yaradıcı insanlara göstərilən dövlət qayğısına görə öz minnətdarlığını ifadə edib.

Universitetin Nəfəs alətləri ixtisası üzrə II kurs magistrantı Nicat Əsgərov saksafonda musiqisi Rauf Hacıyevə məxsus "Sevgilim" mahnısını ifa edib.

Tədbir müəllim və tələbələrin kulinariya nümunələrinin sərgiləndiyi şirniyyat süfrəsi arxasında davam edib.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ QEYD EDİLİB

Naxçıvan Dövlət Universitetində 31 Mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir keçirilib. Universitetin İncəsənət fakültəsində 40-a yaxın rəsm əsərinin nümayiş olunduğu sərgiyə baxış olub. Fakültənin "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə tələbələri çəkdikləri rəsmlərdə soyqırım və faciə qurbanlarının yaşadığı dəhşətli faciəni qələmə alıblar. Universitetin rektoru Elbrus İsayev tələbələr tərəfindən təşkil edilən bu cür sərgilərin xüsusi əhəmiyyət daşıdığını önə çəkib. Qeyd edilib ki, 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət olub. Fərmanda ermənilərin Azərbaycan xalqının başına gətirdiyi müsibətlər dünyaya bəyan edilərək bu qanlı əməllərə düzgün siyasi qiymət verilib. Vurğulanıb ki, bu tarixi sənəd Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da fundamental bir proqramdır. Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun rəşadəti ilə qazandığımız qələbəni düşmənə verilən layiqli dərs kimi dəyərləndirən rektor fəxr hissi ilə qeyd edib ki, artıq Azərbaycan XXI əsrdə kiçik dövlətlərin ən müasir və yüksək keyfiyyətli silah və hərbi sistemlərdən səmərəli istifadə etməklə, hərb meydanında qələbə əldə edə biləcəklərini sübuta yetirdi. Rektor gənc nəsli soyqırım qurbanlarının, hər iki Qarabağ müharibəsi şəhidlərinin xatirəsini daim əziz tutmağa və tarix boyu bədnam qonşularımızın başımıza gətirdikləri faciələrdən ibrət almağa çağırıb.

Sonra fakültənin akt zalında davam edən tədbirdə soyqırım qurbanlarının və Vətənimiz uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonda soyqırım hadisələrini əks etdirən sənədli film nümayiş olunub.

UNİVERSİTETİN QIZ TƏLƏBƏLƏRİ "XƏMSƏ" MİLLİ İNTELLEKTUAL OYUNUN QALİBİ OLUBLAR

Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının təşkilatçılığı və Naxçıvan Gənclər Fondunun dəstəyi ilə 8 mart-Beynəlxalq Qadınlar Günü ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan qızlar arasında "Xəmsə" Milli İntellektual Oyunu keçirilib.

Tədbirdə çıxış edən Gənclər Fondunun əməkdaşı Sübhan Rəhimli qeyd edib ki, mahiyyət etibarilə bu gün qadınların ictimai-siyasi, iqtisadi bərabərlik, öz hüquqları uğrunda mübarizədə həmrəylik günü kimi yaradılıb. Bildirilib ki, dünyanın bir çox ölkəsində 8 Mart məhz çalışan, əməkçi qadınların günü kimi qeyd olunur. Oyun haqda məlumat verən fond əməkdaşı xanımları bayram münasibətilə təbrik edib və komandalara uğurlar arzulayıb.

Universitet Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov oyunun qaydaları barədə məlumat verib.

Qeyd edək ki, oyun yarımfinal və final mərhələsindən ibarət olmaqla 8 komandanın iştirakı ilə baş tutub. Hər mərhələdə ən yüksək xal yığaraq birinci və ikinci yerlərə çıxmış komandalar finala vəsiqə qazanıblar.

Yekun nəticələrə əsasən 3 komanda ilə yarışa qatılan Naxçıvan Dövlət Universiteti oyunun qalibi olub. Naxçıvan Musiqi Kollecinin komandası II, universitetin digər komandası isə III yerə çıxıb. Qalib gələn komandalara qiymətli hədiyyələr təqdim olunub.

Səadət Əliyeva
Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri

AZƏRBAYCANDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN GÜNÜ

Naxçıvan Dövlət Universitetinin İdman kompleksində 5 Mart- Azərbaycanda Bədən tərbiyəsi və idman gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il martın 4-də imzaladığı Sərəncama əsasən, hər il martın 5-i ölkəmizdə, o cümlədən muxtar respublikamızda "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur. Vurğulanıb ki, dövlət başçısının diqqət və qayğısı nəticəsində Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Bununla bərabər universitetdə son zamanlar görülən yeniliklər - İdman kompleksinin təmir olunması, idman sahəsinin inkişafı üçün keçirilən tədbirlər bunun bariz nümunəsidir. Bu gün münasibətilə tələbə və müəllim heyətini təbrik edən rektor gəncləri yarışlarda daha fəal olmağa, universitetimizi, muxtar respublikamızı hətta dünya arenasında yüksək şəkildə təbliğ etməyə səsləyib.

"Bədən tərbiyəsi və idman" kafedrasının dosenti, İdman klubunun sədri Məmmədəli Rəhimov universitetdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. Qeyd edilib ki, ali təhsil ocağında idmanın kütləviliyinə diqqət yetirilir, universitetdə 15 idman növü üzrə məşğələlər fəaliyyət göstərir. Hər il aprel, may aylarında universitetdə təqvim planına uyğun tələbələrin "Universiadası" keçirilir. Bu yarışların məqsədi isə universitet yığma komandalarının tərkibini müəyyənləşdirməkdir. Bildirilib ki, idmançılarımız həm təkmübarizlilik idman növləri üzrə, həm də komandalı idman növlərində bır sıra beynəlxalq miqyaslı yarışlarda uğur qazanıblar. Vurğulanıb ki, universitetdə Bədən tərbiyəsi müəllimi və məşqçi kadrların hazırlanmasına da ciddi fikir verilir. Hər il bu sahədə 70-80 nəfər ixtisaslı kadr hazırlanır.

"Bədən tərbiyəsi və idman müəllimliyi" ixtisası üzrə II kurs tələbəsi, İbrahim Xəlil Axundlu adına fəxri təqaüdçü, Avropa mükafatçısı Aslan İsmayılov muxtar respublikada gənclərə göstərilən dövlət qayğısı timsalında idmançıların yetişməsi üçün yaradılan şərait üçün öz minnətdarlığını bildirib.

Sonra komandalararası voleybol yarışına start verilib. "Pedoqoji" və "İqtisadiyyat" fakültələri arasında keçirilən oyun "İqtisadiyyat" fakültəsinin qalibiyyəti ilə başa çatıb.

Həmin gün tələbələr arasında əlamətdar tarixi günə həsr edilmiş "Peloton" intellektual bilik yarışması da keçirilib. Tədbirdə çıxış edən YAP Naxçıvan Şəhər Təşkilatı Universitet şəhərciyi Ərazi İlk Partiya Təşkilatının sədri, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi Arzu Abdullayev muxtar respublikada idmana göstərilən dövlət qayğısından danışıb, tələbələrin asudə vaxtlarının səmərəli təşkil üçün keçirilən bilik yarışmalarının, viktorinaların əhəmiyyətini önə çəkib.

Universitet Tələbə Gənclər Təşkilatının sədri, "Hüquq" kafedrasının müəllimi Əziz Qasımov yarışın qaydaları haqda məlumat verib. Oyun yarımfinal və final mərhələləri üzrə olmaqla 10 komandanın iştirakı ilə baş tutub. Yekunda "Qasırğa" komandası qalib olub. Suallar dünya və Azərbaycan idmanı tarixindən, müxtəif idman növlərindən mövzular üzrə səsləndirilib. Qalib komandanın hər bir üzvünə diplom və kitab verilib.

Etibar Dərbəndəliyev
Jurnalistika ixtisası üzrə III kurs tələbəsi

"AİLƏ CƏMİYYƏTİN ÖZƏYİDİR" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "NİKAH HÜQUQU" MÖVZUSUNDA SEMİNAR

Universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Akt zalında keçirilən tədbiri giriş sözüylə açan ali təhsil ocağının rektoru Elbrus İsayev bu cür tədbirlərin gənclərin tərbiyəsi və gələcək ailə həyatında oynayacağı roldan danışıb. Qeyd olunub ki, ailə kiçik dövlətdir, yəni cəmiyyətin əsas özəyi kimi möhkəm təməl üzərində qurulmalıdır. Ailə həm də milli-mənəvi dəyərlərin təcəssümü, daşıyıcısıdır. Vurğulanıb ki, qarşılıqlı hörmət və güzəşt sağlam və uzunömürlü ailənin ən başlıca şərtlərindəndir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilati-nəzarət şöbəsinin rəisi, "Bələdiyyə və turizm" kafedrasının müəllimi Səttar Zamanov qeyd edib ki, hər bir fərd ailədə formalaşır və uşaqların sağlam düşüncəli, valideynlərə, böyüklərə sevgi və ehtiram, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda yetişməsində ailənin rolu çox böyükdür.

"Hüquq fənləri" kafedrasının müəllimi, Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov nikah anlayışı, bağlanma qaydası və şərtləri haqda tədbir iştirakçılarını məlumatlandırıb. Vurğulanıb ki, ailəni möhkəmləndirən üç dəyər hüququ sistemin simvoludur: bu qanun, ədalət və hüquq dəyərləridir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilati-nəzarət şöbəsinin rəis müavini, "Fəlsəfə və sosial iş" kafedrasının müəllimi Ələkbər Hüseynov nikah müqaviləsinin anlayışı və əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti bölməsinin rəisi Həbibə Əliyeva "Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi" adlı çıxışında qeyd edib ki, nikaha daxil olan şəxslərin tibbi müayinəsi, habelə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların razılığı ilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.

"Ailə dəyərlərinin formalaşmasında nikahın rolu" adlı çıxışında "Fəlsəfə və sosial iş" kafedrasının müəllimi Firuzə Quliyeva bildirib ki, Azərbaycanda ailə-nikah hüquqları ailə və nikah haqqında Məcəllədə öz əksini tapıb.

"Erkən nikah problemi" haqda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilati-nəzarət şöbəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Nuranə Kərimova erkən nikahların baş verməsinin əsas səbəbləri və fəsadlarından danışıb.

Sonda tələbələrin mövzu ilə əlaqədar sualları cavablandırılıb.

MİLLİ TEATR GÜNÜ QEYD EDİLİB

Naxçıvan Dövlət Universiteti "Teatr və mədəniyyətşünaslıq" kafedrasında "10 mart Milli Teatr günü" münasibətilə tədbir keçirilib. Universitetin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, sənət adamlarına diqqət və qayğı ilə yanaşan ölkə Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən hər il 10 mart ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. Bildirilib ki, 1873-cü il martın 10-da əsası qoyulmuş Azərbaycan milli teatrı və bundan 10 il sonra 1883-cü il mayın 11-də əsası qoyulmuş Naxçıvan teatrı uzun və şərəfli yol keçib. Naxçıvan teatrı üçün ixtisaslı gənc aktyorların yetişdirilməsi məqsədilə görülən işləri diqqətə çatdıran rektor vurğulayıb ki, muxtar respublikada teatr sahəsində ixtisaslı kadr hazırlığına diqqət göstərilir və universitetdə "Aktyorluq sənəti" ixtisasının fəaliyyət göstərməsi bu sahədə görülən işlərin ən bariz nümunəsidir. Elbrus İsayev universitetin bu ixtisas üzrə məzunlarının muxtar respublikada teatr sahəsinə verdiyi töhfələrdən danışıb və gələcək perspektivləri dəyərləndirib. Həmçinin "Aktyorluq" ixtisası ilə yanaşı gələcəkdə rejissorluq fəaliyyəti istiqamətində də peşəkar mütəxəssislərin hazırlanması qarşıya bir tələb kimi qoyulub. Rektor, həmçinin "Tələbə Teatr Studiyası"-nın fəaliyyətindən danışaraq əlamətdar tarixi gün münasibətilə bu sahədə çalışan əməkdaşları və aktyor tələbələri təbrik edib.

"Azərbaycan teatrının yaranması və inkişafı" adlı çıxışında "Teatr və mədəniyyətşünaslıq " kafedrasının müəllimi, Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev teatrın tarixindən və xalqın maarifləndirilməsində, mədəniyyətimizin formalaşmasında onun əvəzsiz rolu haqda ətraflı məlumat verib.

"Realist aktyor məktəbi" adlı çıxışında "Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi" ixtisası üzrə I kurs magistr Vəfa Qurbanzadə universitetdə aktyor tələbələrin yetişdirilməsi üçün yaradılan şəraitdən danışıb.

Tədbirin sonunda isə "Aktyor sənəti" ixtisası üzrə IV kurs tələbələrinin ifasında Səməd Vurğunun "Vaqif" dramından olan bir hissəyə baxılıb.

Suat Əhmədov
Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi

"İDEYADAN BAŞLANĞICA"- STARTAP LAYİHƏLƏRİNİN FORMALAŞDIRILMASI MÖVZUSUNDA VEBİNAR

Naxçıvan Dövlət Universiteti İqtisadiyyat və idarəetmə fakültəsində "İdeyadan başlanğıca"- startap layihələrinin formalaşdırılması mövzusunda vebinar keçirilib.

Fakültənin dekanı, dosent Əşrəf Ələkbərov startap layihələrinin əhəmiyyətindən və tələbələrin bu layihələrdə fəal iştirakından danışıb.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Orxan Abdinov tələbələrlə təşkil olunan görüşlərin faydasından bəhs edərək bildirib ki, hami təşkilatlar tərəfindən bu cür tədbirlərin təşkili tələbələrin gələcəkdə peşəkar kadrlar kimi yetişməsi və onların seçdikləri ixtisasların sirlərinə dərindən yiyələnmələrinə mühüm töhfədir. Şöbə müdiri qeyd edib ki, yeni startap layihələrinin hazırlanması həm muxtar respublikanın inkişafı, həm də gənclərin layihələrinin tətbiqi baxımından mühüm rola malikdir.

Nazirliyin əməkdaşı Mehparə Məmmədova "Beynəlxalq platformada startaplar" mövzusunda çıxış edib və startap layihələrinin cəmiyyətdə baş verən müəyyən ehtiyaclardan yarandığını vurğulayıb. Diqqətə çatdırıb ki, keçirilən görüşlər və stimullaşdırıcı tədbirlər layihələrin həyata keçirilməsində, ideyaların verilməsində tələbələrin daha fəal iştirakına şərait yaradır. O, tələbələri xüsusilə muxtar respublikanın inkişafını təmin edəcək yeni layihələr yaratmağa səsləyib.

Etibar Dərbəndəliyev
Jurnalistika ixtisası üzrə III kurs tələbəsi

70 illik Yubiley

ELMƏ HƏSR OLUNAN ÖMÜR

İnsanlar yaşadıqları həyatda həm də özlərinə bir məslək seçir, bununla da sanki gələcək talelərini təyin edirlər. Bu baxımdan ancaq düzgün istiqamət seçən insanın xidməti, zəhməti xalqın yaddaşında əbədi qalır...Ömrünü elmə həsr edərək xalqına xidmət edən insanlardan biri də kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Tofiq Əliyevdir. Onun zəhmət, elmi araşdırmalarla dolu mənalı ömür yolunun çox mühüm anları yəqin ki, istər gənclər, istərsə də bu yolda yenicə addım atanlar üçün maraqlı olar.

Tofiq Əliyev 1951-ci ilin mart ayının 25 -də Naxçıvan şəhərinin Əliabad qəsəbəsində doğulub. 1958-ci ildə qəsəbə məktəbində ibtidai təhsilinə başlasa da, sonradan onu yeni açılmış internat məktəbində davam etdirib. Orta təhsilini gümüş medalla bitirdikdən sonra əvvəllər adı Azərbaycan Dövlət Universiteti olan indiki Bakı Dövlət Universitetinin kimya fakültəsinə qəbul olub. Ali təhsilini başa vurduqdan sonra pedaqoji fəaliyyətə başlayıb. O zaman, yəni 1973-cü ildə təyinatla Saatlı rayonunda şagirdlərin qarşısına müəllim kimi çıxan Tofiq Əliyev kimya elminin sirlərini həvəslə balaca fidanlara öyrədir. Amma gənc Tofiqin hədəfi elmin daha da dərinliyinə baş vurmaq, özünü bu sahəyə həsr etmək idi. Məhz bu məqsədlə Naxçıvana gələrək Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətini davam etdirir, tələblər onun maraqlı mühazirələrini dinləyərək kimyanın özünəməxsus aləmi ilə yaxından tanış olurdular. Tofiq Əliyev Naxçıvan Dövlət Universitetində baş laborant,assistent, müəllim, baş müəllim, dosent, dekan müavini, kafedra müdiri vəzifələrində çalışıb. Bu təhsil ocağındakı fəaliyyəti dövründə ilk dəfə eksperimental xarakterli tədqiqat işlərinin aparılması Tofiq Əliyevin adı ilə bağlıdır. Alimin apardığı tədqiqat işlərinin böyük hissəsi neft və qaz sənayesində istismar olunan polad avadanlıqların korroziya, abraziv və mikrobioloji dağılmadan mühafizəsi məsələsinə həsr edilib. Tofiq Əliyev 1988-ci ildə "İkifrazalı karbohidrogen-elektronik sistemində fenolun bəzi törəmələri vasitəsilə poladın korroziyadan inhibitorlaşdırılması prosesinin fiziki-kimyəvi öyrənilməsi" mövzusunda namizədlik, 2011-ci ildə "Fenollar, merkaptosirkə və ksantogenat turşularının bəzi funksional törəmələrinin inhibitor təsirinin fiziki-kimyəvi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Apardığı çoxsaylı tədqiqat işləri nəticəsində alim əlverişli xammallar əsasında nisbətən sadə üsullarla alınmış və polad nümunələr üçün yararlı olan yüksək effektli korroziya inhibitorları təklif etmişdir ki, onlar həm də antiabraziv, bakterisid, antioksidləşdirici xassələrə sahibdirlər. Professor Tofiq Əliyevin apardığı tədqiqatlara əsaslanan 5 kitabı, 1 dərs proqramı, 2 patent, çoxsaylı məqalə və tezislər olmaqla 150-dən artıq elmi əsəri vardır. Bunlarla yanaşı professor özündən sonra da tələbələr yetişdirməkdə, gənc alimlərin tədqiqatlar aparmasında öz zəhmətini əsrigəmir.

Onun dərs dediyi tələbələrdən kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alan Azər Məmmədov, Nazir Əhmədli, Qahirə Məmmədova, Aliyyə Rzayeva, Mahnur Cəfərli, Nigar Babayeva, Turac Süleymanova, Pərvin Quliyev və başqaları professor Tofiq Əliyevin elimi ənənəsini davam etdirilər. Aliyyə Rzayeva və Mahnur Cəfərli hazırda bu sahədə tədiqatlarını davam etdirir və doktorluq dissertasiyası üzərində işləyirlər.

Alimin elm və təhsil sahəsində əldə etdiyi uğurlar ölkə rəhbərliyi tərəfindən yüksək səviyyədə qiymətləndirilib. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.

Professor Tofiq Əliyev müxtəlif dövrlərdə Naxçıvan Dövlət Universitetinin rəhbərliyi tərəfindən də fəxri fərmanlarla təltif edilib, 2008-ci ildə isə universitetdə "İlin alimi" fəxri adına layiq görülüb.

Elm sahəsində gördüyü işlər bu sahədə ən yüksək qurumlar tərəfindən dəyərləndirilib. 2017-ci ildə o, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib.

O, Rusiya, Ukrayna, Türkiyə kimi ölkələrdə təşkil edilmiş beynəlxalq konfranslarda, qurultaylarda da maraqlı və yaddaqalan məruzələr edib.

Tofiq Əliyev pedaqoji və ictimai fəaliyyətini məntiqi ardıcıllıqla davam etdirərək respublikamızın siyasi həyatında səmərəli fəaliyyət göstərən ziyalılarımızla birlikdə həmişə milli maraqlarımıza xidmət edib. Belə ki Dağlıq Qarabağ hadisələrinin başlanğıcında keçmiş SSRİ rəhbərliyi tərəfindən Azərbaycanın informasiya blokadasına alındığı vaxtlar Tofiq Əliyev ittifaqın müxtəlif şəhərlərində yaşayan kimyaçı və digər tanışlarının köməyi ilə onlara göndərdiyi qəzet, jurnal, broşür və məktublar vasitəsilə Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa səy göstərərək, bu işi öz yaxın yoldaşlarına da tövsiyə etmişdi.

Professor 2019-cu ildən AMEA-nın Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru vəzifəsində fəaliyyətini davam etdirir. O, hazırda "Korroziyadan intibitor mühafizəsi ", eləcə də "İngiliscə-rusca-azərbaycanca elektrokimya və korroziya terminləri lüğəti" kitablarının üzərində işləyir.

Beləliklə, həyatının mənasını xalqına xidmətdə görən elm fədaisi professor Tofiq Əliyev 70 illik yubileyini qeyd edir. Bu yaşda da onun elm sahəsində axtarışları davam edir, yeni-yeni tələbələr yetişdirmək arzusu gündən-günə artır. Xeyirxahlıq, alicənablıq, insanpərvərlik, həssaslıq, səmimiyyət kimi ali insani keyfiyyətlərə malik olan professor Tofiq Əliyev həmkarları, tələbələri, onu tanıyanlar tərəfindən daim sevilib, sevilir və seviləcək. Zəngin mənəviyyatı, geniş dünyagörüşü və nümunəvi ağsaqqal davranışı ilə hər zaman fərqlənən dəyərli ziyalımız Tofiq Əliyevi 70 illik yubileyi münasibətilə universitetimizin kollektivi adından təbrik edir, ona möhkəm cansağlığı, elmi fəaliyyətində yeni və daha böyük nailiyyətlər arzu edirik!

İlahə Allahverdiyeva
Jurnalistika" ixtisası üzrə II kurs tələbəsi

Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada çalışanlar fədakardırlar, fədaidirlər... Teatr xadimləri tamaşaçıya bir söz demək üçün onu irəliləyişimizə mane olanlara qarşı mübarizəyə qaldırmaq üçün nə qədər çalışırlar. Heç kim bilmir ki, aktyor səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir. Mən həmişə teatra yaxın və bağlı olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var.

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının ümummilli lideri

TEATR MÜQƏDDƏS YERDİR

Cəmiyyətin inkişafında teatrın rolu danılmazdır. Çünki teatr cəmiyyətin psixologiyasına xitab etməyin ən asan və ən təsirli yoludur. Eyni zamanda teatr xalqın ictimai şüurunu yüksəltməyin və zamanın qabaqcıl ideyalarını yaymağın mühüm vasitələrindən biridir.

Ölkəmizdə milli teatrın təməli 1873-cü ildə ömrünü xalqın maarifləmməsinə, milli təfəkkürünün formalaşmasına, cəhalət və nadanlıq buxovlarından azad etməyi özünə vəzifə bilən Həsən bəy Zərdabinin rəhbərliyi, Nəcəf bəy Vəzirov və Əsgər ağa Goraninin, o zaman hələ realnı məktəbdə şagird olan yeniyetmə-gənclərin aktiv iştirakı ilə M. F. Axundzadənin "Lənkəran xanın vəziri" əsəri ilə qoyulub. Bu tamaşa o qədər uğurlu alınıb ki, ondan bir ay sonra "Hacı Qara" əsəri də hazırlanaraq tamaşaçılara təqdim edilib. Sözügedən əsərlərin ana dilində tamaşaya qoyulmasında təşəbbüs göstərən N. Vəzirov və Ə. Adıgözəlov da realni məktəbin şagirdləri ilə birlikdə tamaşada aktyor kimi çıxış ediblər. Çünki o vaxtlar aktyor truppası hələ formalaşmadığından qabaqcıl Azərbaycan ziyalıları, sonralar Qori seminariyasını bitirən müəllimlər teatr tamaşaları hazırlamaqla yanaşı həm də bu tamaşalarda "aktyor" kimi çıxış edirdilər.

Sonralar teatrımızın ideyaca sağlam bir yöndə inkişaf etməsində böyük rolu olan Nəriman Nərimanov teatrdan tribuna kimi istifadə edərək ziyalı gəncləri teatra dəvət edir, eyni zamanda özü də bir çox tamaşanın baş rolunda oynayır. Bakıda "Birinci müsəlman dram truppası" adlı ilk professional teatr kollektivini isə 1896-cı ildə H. Zərdabi təşkil edir. Milli teatrımızın xalqımızın öz yaşayışını əks etdirməsində, millətin oyanmasında böyük rolu olur. Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, teatrın vətəni sayılan Yunanıstanda teatrın əsası faciə ilə qurulmuşdusa, Azərbaycanda M. F. Axundovun komediyaları əsasında bu mədəniyyət ocağı yaradıldı. O vaxtlar senzor nəzarətinin çox olması cəmiyyət rəislərinə yönəldilən ən adi gülüş "ictimaiyyətin sakitliyini, asayişini, təhlükəsizliyini pozan" hal kimi qələmə verildiyindən tamaşaların hazırlanması böyük qəhrəmanlıq tələb edirdi. Dramaturgiyamızın banisi olan M.F.Axundov gülüşü naqisliklərı qamçılayan, əxlaqı yaxşılaşdıran bir vasitə adlandırırdı. Milli teatrımızın təməlinin M.F.Axundovun komediyaları ilə qoyulmasının səbəblərindən biri də bu idi. Azad sözə qoyulan qadağaya görə ziyalılarımız milli teatrı yaradarkən dolayı yolla da olsa xalqı oyanışa səsləyirdi. Azərbaycan teatrı yarandığı ilk gündən bu günə kimi realist zəmində inkişaf edərək bəşəri fikirlərin mənbəyinə çevrilib. Sonralar Cəfər Cabbarlı, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə kimi böyük sənətkarların dərin məzmunlu səhnə əsərləri ilə geniş vüsət alan teatrımız milli varlığını qoruyub saxlayaraq daha da inkişaf etdi. Hamının yaxşı tanıdığı Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski və başqa fitri istedad sahiblərinin səyləri ilə ölkəmizdə milli peşəkar aktyorlar məktəbi formalaşdı. Həmin məktəbin yetirmələrindən olan Rza Əfqanlı, Adil İsgəndərov, Ələsgər Ələkbərov, Hökümə Qurbanova, Bəşir Səfəroğlu, Tofiq Kazımov, Leyla Bədirbəyli, Nəsibə Zeynalova və bir çox aktyor və aktrisalarımız tamaşaçıların məhəbbət və rəğbətini qazandılar.

Naxçıvanda isə peşəkar teatr truppasının əsas üzvləri müəllimlərdən ibarət idi. Naxçıvan teatrının yaradılmasında Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məmməd Tağı Sidqi və digər ziyalıların yaxından iştirakı olub. 1883-cü ildə Azərbaycanda və Şərqdə ikinci teatrın- Naxçıvan teatrının təməli qoyuldu. M. F. Axundovun "Müsyö Jordan və dərviş Məstəlişah" komediyası Naxçıvan teatrının ilk tamaşası kimi

dilər. 1927-ci ildən Naxçıvan teatrına qadın aktrisaların gəlməsi bu imkanları daha da genişləndirdi. Naxçıvan teatrının səhnəsində öz sözünü deyən Azərbaycan Respublikasının Əməkdar artisti Xədicə Qazıyeva, xalq artistləri Füruzə Əlixanova, Sofya Hüseynova, Zəroş Həmzəyeva bu gün də ölkə səviyyəsində tanımış klassik sənətkarlar oldular.

Naxçıvan teatrının məhsuldar dövrü isə 1950-80-ci illər hesab olunur. Bu illərdə Naxçıvanda özü üçün bir teatr yaradan hər bir məhəllənin özünəməxsus repertuarı olur. 1970-80-ci illərdə isə Naxçıvan teatrı musiqili komediya teatrı kimi yox, musiqili dram teatrı kimi bütün Azərbaycan Respublikasında yeganə sənət ocağı olur.

Bu gün də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında maraqlı əsərlər tamaşaya qoyulur, təkcə yerli deyil, ölkə səviyyəsində və hətta qonşu İran, Türkiyə respublikalarının teatrsevərləri də bu tamaşalara baxırlar. Teatrın aktyorları Xalq artistləri Rövşən Hüseynov, Kamran Quliyev, Rza Xudiyev, Yasəmən Ramazanova, əməkdar artistlər Bəhruz Haqverdiyev, Əbülfəz İmanov, Əli Əliyev, Vidadi Rəcəbli, Nazlı Hüseynquluyeva və başqaları maraqlı obrazları ilə tamaşaçıların rəğbətini qazanan sənət fədailəridirlər.

İlahə Allahverdiyeva
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

İNFORMASİYA MÜHARİBƏSİNDƏN QALİB ÇIXAN AZƏRBAYCAN

İllərdir ki, Azərbaycan ilə Ermənistan arasında davam edən, Sovet hakimiyyəti dağıldıqdan sonra yenidən gündəmə gələn və 30 il mənfur qonşularımız tərəfindən işğalda saxlanılan Dağlıq Qarabağ problemi axır ki, 27 sentyabrda başlayıb 44 gün sonra başa çatan Vətən müharibəsi ilə öz ədalətli həllini tapdı.

Qalibiyyətimizin səbəbi həm ön, həm də arxa cəbhədə xalqımızda olan birlik idi. Ermənistan tərəfi öz xalqına həqiqətə uyğun olmayan məlumatları çatdırır, yalan informasiya yaymaqla müharibədə qələbə qazanacağını düşünürdü. Bu isə ölkəmizin vətənpərvər insanlarını narahat edirdi. Bu məsələ ilə bağlı Azərbaycan Ermənistanda sosial media botu yaratdı. Bu "TAVUSH BOT" adlanırdı. Məqsəd erməni xalqına düzgün informasiyanı çatdırmaq, ermənilərin apardıqları informasiya savaşının nə qədər zəif olduğunu sübut etmək və düşməni bu cəbhədə də məhv etmək idi. Bəs nə idi "Tavush Bot"? "Tavush Bot" özünü süni zəka elan edən ilk erməni sosial media botu idi. "Tavush Bot" ilk dəfə İyul döyüşləri ərəfəsində "Tavush" bölgəsində yaşayan insanlara doğru informasiyanı çatdırmaq üçün yaradılmışdı. "Tavush Bot" Google Asistant məntiqi ilə çalışan erməni dilini bilən süni intellekt əsaslı bot idi. Bu bot ermənilər ilə danışır, onların məlumatlarını toplayır, lazım olduqda isə onlara toplu mesajlar göndərirdi. "Tavush Bot" adlı sosial şəbəkə proqramının müəllifi çoxsaylı texnologiya və startap layihələrinin müəllifi olan Fərid Pərdəşünas idi. 44 günlük Vətən müharibəsində Fərid Pərdəşünasın Azərbaycanın sosial mediasındakı böyük fəaliyyəti oldu. Təsadüfü deyil ki, Fərid Pərdəşünas qabaqcıl yüksək texnologiyaların və innovativ ideyaların tətbiqi ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində, həmçinin bu fəaliyyətin gənclər arasında təbliği və təşviqi sahəsində əldə edilmiş uğurlara görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2021-ci il Gənclər üçün Prezident mükafatına layiq görüldü.

Bu günə qədər dövrümüzün yeni formalı döyüş sahələrində kompüterlərdə və sistemlərdə aparılan məlumat müharibələri barədə ümumi bir tərif verilməyib. İnformasiya müharibələrinin ilk texniki təsviri mövzusunda məlumat ilk dəfə John Alger tərəfindən verilib. Bu mövzuda məlumat savaşı, biliklərimizi və bilik əsaslı konfiqurasiyamızı qorumaqla birlikdə düşmənin biliklərinə, məlumat sistemlərinə və biliyə əsaslanan strukturlara təsir edərək məlumat üstünlüyümüzü qazanmağımızı təmin edəcək hər cür fəaliyyət nəzərdə tutulur. Buna bənzər bir tərif Amerika Hava Qüvvələri tərəfindən verilib. Bu tərifə görə, informasiya müharibəsi düşmənin bu fəaliyyətə qarşı tədbir görməsinin qarşısını almaq və düşmənin məlumat və funksiyalarının qarşısını almaq üçün edilən hərəkətlərlə oxşar əməliyyatlara qarşı çıxmaq, məhv etmək və öz xeyrimizə istifadə etməkdir. Leeds Universiteti Rabitə İnstitutunda çalışan professor Filip M.Taylor informasiya müharibəsi ilə bağlı düşüncələrini belə izah

edir: "Orada bir müharibə var, bir dünya müharibəsi var və bu müharibə kimin daha çox gülləsi olduğu, necə gördüyümüz, eşitdiyimiz, nə etdiyimiz və nə düşündüyümüzlə əlaqəli olmayan məlumatları kimin idarə etməsidir".

İnformasiya müharibəsi texnologiyaya qarşı texnologiyanın istifadəsidir; sirlərdən və sirlərin oğurlanmasından bəhs olunur. Bu bilikləri bilik sahiblərinə qarşı istifadə etmək, düşməni öz bilik və texnologiyalarından istifadə etmək qabiliyyətindən məhrum etməkdir. İnformasiya müharibəsi, zamandan və məkandan asılı olmayaraq istənilən hədəfə qarşı aparıla bilər. Cəmiyyətin hər təbəqəsinə yayılması üçün hərbi, iqtisadi, siyasi, ideoloji və hətta dini problemlərə əsaslanan strateji, taktiki və operativ hədəflərə tətbiq oluna bilər. İnformasiya müharibəsinin aşağıdakı kimi növləri var:

Kiber müharibə başqa bir dövlətin kompüter sistemlərinə və ya şəbəkələrinə zərər vermək və ya dayandırmaqdır.

Elektron müharibə radio dalğaları və müharibə nəticəsində həlledici rol oynamaq üçün bir ordunun taktiki texnoloji üstünlüyü ilə hərbi terminologiyaya daxil olan bir müharibə müddətidir.

Ümumiyyətlə, düşmən qüvvələri tərəfindən müxtəlif texnikaların tətbiqi ilə elektromaqnit spektrinin istifadəsinin tamamilə qarşısının alınması, eyni zamanda dostluq qüvvələrindən hərbi məqsədlər üçün ən uyğun şəkildə istifadə edilməsi, maksimum fayda təmin edilməsi məqsədi daşıyır. Elektron müharibə üç əsas hissədə araşdırıla bilər: elektron dəstək, elektron hücum və elektron müdafiə.

Elektron hücum, hərbi güc və texnoloji infrastrukturdan istifadə edərək, düşmən qüvvələrinin elektromaqnit spektrini, xüsusən radio dalğalarını və radar tezlik zolağını istifadə etməsinə mane olmaqla, naviqasiya, hədəf aşkarlama, izləmə, telekomunikasiya və kəşfiyyat mübadiləsi imkanlarını azaldaraq, elektron rabitə bağlanır. Elektron hücum aktiv və ya passiv şəkildə həyata keçirilə bilər.

Yüksək gücdə müdaxilə radio yayımı edərək düşmənin aktiv elektron hücum üçün istifadə etdiyi tezlik diapazonunu əhatə edərək düşmən radio-kəşfiyyat operatorlarını və ya radar qəbuledicilərini, transponder stansiyaları kimi elektron cihazları aldadaraq eyni tezlik bandında elektron və ya insan dezinformasiya yayımları edərək düşmən radio rabitəsini pozur. Xüsusi təyyarələrdə geniş istifadə olunan aktiv dalğa ləğv üsulları və elektromaqnit impuls bombasının (EMP) istifadəsi nümunə ola bilər.

44 günlük Vətən müharibəsində Xüsusi təyinatlıların baş giziri şəhid Camal İsmayılov erməni radio əlaqələrinə qoşularaq erməni generallarına əmr verərək geri çəkilməyə məcbur edib. Bu da Azərbaycanın həm ön cəbhədə həm də informasiya müharibəsində qalibliyinin bariz nümunəsidir.

Könül Məmmədova
"İnformatika kafedrasının baş müəllimi

TERMAL KAMERALAR VASİTƏSİLƏ MÜHƏNDİSLİK TƏTBİQLƏRİ

Termal kamera ilk dəfə gecə görmə sistemləri və istiliklə idarə olunan raketlər kimi hərbi sahələrdə özünə yer tapdı. Bu gün vacib bir sahə mühəndislik tətbiqetmələridir. Termal kamera ölçüləri, enerji istehsalında və paylanmasında enerji keyfiyyəti baxımından, elektrik müəssisələrindəki nasazlıqlar və onların səbəb olduğu xərclərin qarşısını almaq baxımından son dərəcə vacibdir.

Binalarda istilik itkilərinin aşkarlanması, tibbdə yüksək istiliyə səbəb olan xəstəliklərin diaqnozu, damın rütubət müayinələri və bir çox digər sahələrdə termal kameralar bu gün böyük əhəmiyyət kəsb edir. İstifadənin ən vacib sahələri arasında mühəndislik tətbiqləri var.

Bu malfunctioning enerji paylayıcı sistemi qarşısını almaq üçün çox vacibdir, nəticələri olan geniş bir sahəyə təsir edəcək. Bu sistemlərin müayinəsi həm təhlükəsizlik, həm də istifadə baxımından rahatlıq verən termal kameralarla sürətlə həyata keçirilə bilər.

Mühəndislik sahəsindəki termal kameraların bir başqa tətbiqi də elektrik sistemlərinin möhkəmliyini yoxlamaqdır. Termal kameraların ən çox istifadə edilən sahələrindən biri olan elektrik sistemlərinin sınağı təmassız və çox sürətli bir şəkildə həyata keçirilir.

Termal kameralar necə işləyir?

Gözlərimiz yalnız elektromaqnit spektrində görünən işıqları görür. Elektromaqnit spektrində infraqırmızı işıq kimi gözlərimiz tərəfindən görünən işıqdan başqa bütün dalğa boylarını görə bilmirik. İstiliyi 0 Kelvindən yuxarı olan -273° C-lik bütün maddələr istilik enerjisi yayır. Bu enerji maddələrin istiliyindən asılı olaraq dəyişir. Termal enerji gözlərimizin görə bilmədiyi infraqırmızı aralığa yayılır. Termal kameralar tam olaraq bu əsasda işləyir. Başqa sözlə, termal görüntüləmə cihazı elektromaqnit spektrinin infraqırmızı dalğa uzunluqlarını görünən bir mənzərəyə çevirir.

İnfraqırmızı şüanın varlığını 1800-cü ildə astronom Frederick William Herschel kəşf etdi. Fərqli rənglər arasındakı istilik fərqləri üçün günəş işığını bir şüşə prizma ilə yönəldərək hər işığın temperaturunu ölçdü. Bu temperaturlara görə görünən açıq rənglər bənövşəyi ilə qırmızı arasında sıralanır. Herschel, günəş işığının bu görünən bölgəsi xaricindəki temperaturları da ölçməyə qərar verdi. Və burada infraqırmızı şüaları kəşf etdi.

Termal kamera harada istifadə olunur? Niyə istifadə olunur?

Termal kameralar gözlərimizlə görə bilmədiyimiz, lakin çox ciddi problemlər yarada biləcək kiçik prob-



lemləri aydın şəkildə görməyimizə imkan verir.

Fasiləsiz işləyən sənaye müəssisələrinin iş şəraitində termal kameralar ən yaxşı köməkçimiz ola bilər. Nəticələri sürətli bir şəkildə analiz edən, daha yaxşı, daha təsirli və çox ucuz olan bu cihazlar qarşılaşacağımız problemləri çox daha sürətli həll etmə şansı verəcəkdir. Bəzən kiçik bir elektrik problemi böyük yanğınlara səbəb ola bilər. Diqqət etmədiyimiz şəkildə həddindən artıq cərəyandan keçən bir kabel isti ola bilər və kabelləri yandıra bilər.

Dünyada təhlükəli xəstəliklərin yayılması ilə əlaqədar olaraq tibbi məhsullar və dərmanlar, dezinfeksiya məhsulları, digər sahələrdəki məhsullar, tibbi, dezinfeksiyaedici məhsullar da daxil olmaqla hər cür virusun qarşısını alan məhsullar və qoruma funksiyaları həyatımıza daxil olmaqdadır.

Termal Kamera, bədən istiliyi təyinetmə funksiyası ilə birləşdirilmiş kameradır. Bu ictimai xidmət işçilərinin qızdırmalı insanları dərhal görməsinə, normal temperaturlu insanlardan ayırmalarına kömək edə bilər ki, bu da yoluxma riskini azaldır.

Bir kamera olaraq, Termal kamera üz tutma funksiyasına sahibdir, avtomatik olaraq çəkiliş məsafəsindəki hər üz üçün bir şəkil çəkir və bu fotoları normal olaraq insanların 2 fotoşəkilinə uyğun olaraq kompüterin 2 qovluğunda saxlayır. Biri istiliyi, digəri isə normal olmayan istiliyi olan insanların fotoşəkilləri üçün ictimai xidmət işçilərinə məlumatları sürətli bir şəkildə toplayaraq analiz edə bilir.

Termal kamera yerində temperatur aşkarlama və göstərmək funksiyasına və siqnalizasiya funksiyasına malikdir. Kamera ilə əlaqəli kompüterin qarşısındakı istifadəçi keçən şəxsin müvafiq bədən istiliyini görə bilir, bu şəxsin temperaturu anormaldırsa, bu şəxs kamera tərəfindən kilidlənir və kamera səsli siqnal verir. İstifadəçiyə bildirmək üçün bu şəxs tapılıb tutulur və işçilər bu şəxsi virus infeksiyası testini aparmaq üçün xəstəxanaya aparmağı təşkil edir.

Termalın quraşdırılması yolu çox sadədir. Yalnız kompüteri və kameranı kabellə bağlayıb kameranı uyğun yerə qoymaq lazımdır. Termal kameranın istifadə yolu da çox sadədir.

Tibbi, dezinfeksiya edən və qoruyan funksiyaları olan kameralar son zamanlarda diqqətimizi cəmləşdirir və bu məhsul seriyasında çox səy sərf edilir, buna görə keyfiyyətli olacağını vəd etmək olar. Bundan əlavə, daha faydalı kameralar təqdim etmək üçün səylər göstərməyə davam olunacaq və istifadə olunacaq kameraların həqiqətən ehtiyac duyulacağını və daha çox insana kömək edə biləcəyini ümid edirik.

Ənnağı Əsgərov
"İnformatika kafedrasının müəllimi

MODERN KİTABXANA NECƏ OLMALIDIR

Bilik mənbəyi, dəfinələr adası, sirlər məskəni və s. kimi adlandıra biləcəyimiz kitabxanalar qədim kitabların tozlu səhifələrini, qaranlıq məqamlarını aşkara çıxarmaq üçün əla vasitə idi. Zaman keçdikcə tarixi faktları bir nəsildən digərinə ötürmək üçün daha keyfiyyətli vasitələrə mütləq şəkildə ehtiyac duyulurdu.

Qədim dövrün müasir kitabxanalarına nəzər saldıqda onlarda yeniliyə meyillilik motivləri açıq-aşkar hiss olunurdu. Hələ qədim dövrdə İsgəndəriyyə kitabxanasının məşhurluğu, zəngin tərkibə malik olması bir sıra şərq ölkələrinin diqqətindən heç də yayınmırdı. Digər ölkələrin kitabxana nümayəndələri həmin kitabxana ilə yaxından maraqlanır və bir sıra yeniliklərdən yetərincə faydalanırdı. Bu barədə qədim dövr tarixçilərinin yazılı mənbələrindən də açıq-aşkar məlumat əldə etmək mümkündür. Müasirləşən və texnoloji yeniliklərin inkişaf edərək həyatımıza nüfuz etdiyi bir dövrdə texnologiyadan kənar fəaliyyət düşünmək gülünc olardı. Hələ XIX əsrin birinci yarısından etibarən texnoloji icadların formalaşması və zaman keçdikcə daha da təkmil vəziyyət alaraq, müəyyən sahələrdə tətbiqi nəticəsində canlanma və yeni müsbət nəticələrin əldə edilməsi müşahidə edilirdi. Azərbaycanın texnoloji inkişaf dövrünü nəzərə alsaq XX əsrin 60-cı illərindən etibarən informatika, kibernetika sahəsində yeniliklərə nail olduğumuz müşahidə edilir. Təbii ki, meydana çıxan yenilikçi ideyalar və onların təkmil tətbiqi öz sahələrində çoxsaylı effektiv nəticələr əldə etməyə imkan verirdi.

Artıq yüz il əvvəl ilə yüz il sonra arasında müqayisələr etmək və effektiv dəyişimi görmək heç də çətin deyildi. Bütün yenilikləri nəzərə alaraq müasir dövrün kitabxanasını da məhz bu yenilikçi ideyalar, inqilabi texnologiyalar üzərindən qurmaq lazım gəlirdi. Tələbatçıların informasiya tələbatını ödəmək, onların çoxsaylı sorğularını təmkinlə qarşılamaq, operativliyi təmin etmək və hər ötən günün mövcud tələbatına uyğun addımlar atmaq müasir dövrün kitabxana işçisinin üzərinə düşən əsas vəzifələrdəndir. Eyni zamanda yeri gəldikcə müvafiq iş qrafiki əsasında daimi oxucu fikirlərindən də müsbət yöndə istifadə etmək daha məqsədəuyğun olardı. Müasir dövrün kitabxanasından bəhs edərkən heç şübhəsiz



yüksək ixtisaslı peşəkar kadrlardan, ən əsası gündəmlə ayaqlaşmağı bacaran, daim yenilikçi, texnoloji bacarığı olan, liderlik keyfiyyətləri olan və ən əsası komanda ilə işləməyi bacaran idarəedici işçi heyətdən təşkil edilmiş sosial funksiyalı qurum nəzərə alınmalıdır. Sosial iqtisadi təhlil metodundan istifadə edərək, kitabxananın müasir innovativ səviyyəyə çatmasına və maddi-texniki bazasının təkmilləşməsinə, beynəlxalq və eləcə də, dünya standartlarına tam cavab verilməsinə nail olunmalıdır. Bütün bunlarla kifayətlənməyərək inkişaf etmiş və etməkdə olan kitabxana obyektləri, şəbəkələri ilə daim qarşılıqlı əməkdaşlıq prinsiplərinə əməl edilməli və onların təcrübəsindən lazımi qədər yararlanılmalıdır. Azərbaycanda 1971-ci ildən etibarən biblioqrafik seminarların təşkilinə şərait yaradılsa da, müasir dövr üçün bu cür addımları daha məqsədyönlü şəkildə, siyasətcil və səmərəli formada, tez-tez qarşı tərəfin kitabxana əməkdaşları ilə biblioqrafik seminarlar fonunda təşkili baş tutmalıdır.

Yüksək iqtisadi gəlirdən faydalanaraq sosial infrastruktur səviyyəsini təkmilləşdirərək operativliyi təmin edə, faydalı iş əmsalını optimal vəziyyətə gətirə, eyni zamanda ümumi iş səviyyəsini minimum əməklə maksimum səviyyəyə qaldırmağa nail olmaq mümkündür. Dünyanın texnoloji inkişaf baxımından digər ölkələrdən fərqlənən Yaponiya və Çin dövlətlərinin texniki imkanlarından istifadə edərək, kitabxanalarda tələbatçılara xidmət göstərən xidməti robotlardan da istifadə etmək daha keyfiyyətli bir iş prosesinin həyata keçirilməsinə və insanların kitabxanalara cəlb edilməsinə müsbət təsir göstərə bilərdi. Elektron kataloqlardan "danışan kataloqlara" keçid dövrünü reallaşdıra bilərdik. Qrafik dizayn olaraq isə daha cəlbedici görünüşə nail olmaq üçün texno effektlərdən istifadə sayəsində qədim dövrlərin kitabxanası təsəvvürünü canlandırmaq heyranedici olardı.

Bir sözlə yeni bir nəsil, yeni bir era "Bookrob" ailəsini formalaşdıra, yarada bilərik. Sosial şəbəkələrin həyatımıza nüfuzetmə faizini nəzərə alaraq, və sosial şəbəkələrdəki kütlə axınını məqsədyönlü şəkildə qiymətləndirərək sosial şəbəkə hesablarında rəsmi səhifələr vasitəsilə kitabxanada baş verən yeniliklər barəsində tələbatçıları məlumatlandıra bilərik. Bir sözlə elektron informasiya xidmətlərindən yetərincə yararlanmaq müasir dövr üçün ən önəmli məsələlərdən biridir. Beləliklə, texnoloji yeniliklərdən istifadə edərək daha təkmil kitabxana-müasir dövrün kitabxanasını ən unikal səviyyədə təşkil edərək, universal texno-kitabxana yaratma şansımızı reallaşdıra bilərik.

Aysu Rəsulzadə
Elmi kitabxananın baş kitabxanaçısı
Qoşqar İsmayılzadə
Kitabxanaçılıq və informasiya ixtisası III kurs tələbəsi

İGİD OĞULLAR BƏXŞ EDƏN - AZƏRBAYCAN QADINI

Qadın! Bir sözdə onlarla məna kəsb edən, ömrünü sevdikləri uğrunda şam tək yandırmağa qadir, hər əzaba sinə gərən, ana, bacı, həyat yoldaşı, rəfiqə simasını daşıyandır qadın!

Azərbaycan qadını! Adına "xanım" deyilən qadın! Ucalardan-uca, ləyaqətli, daşıdığı ad-sana sahib çıxan, bu ünvanları dərindən dərk edən və bu adlara layiq olmaq üçün əlindən gələni edəndir Azərbaycan xanımı! Bəlkə də çoxları "xanım" sözünü problemsiz, çətinliksiz yaşayan qadınlara aid edir. Amma əsla belə deyildir! Məhz, zərif, nəvazişli, ləyaqətli olan qadındır xanım!

Azərbaycan qadını Tomrisdir, Sara Xatundur, Xurşidbanu Natəvandır. Sülhsevərdir, igidlərinə arxa-dayaq olandır. Amma sülhü pozanların qənimidir Azərbaycan xanımı.

Azərbaycan qadını ANAdır! Vətən deyiləndə axar suları dayandırandır qadınlarımız. "Oğlumu Vətən üçün, qız-gəlin namusunu qorumaq üçün gətirmişəm dünyaya"- deyəcək qədər açıqürəklidir analarımız. Vətənin dar günündə sonunu düşünmədən, bir an belə tərəddüd etmədən xeyir-dua verib öz əli ilə oğlunu cəbhəyə yola salaraq, "Südüm sənə halal olmaz, sən baş əysən düşmənə!"-deyib qazi, şəhid anası olmağı ilə qürur duyandır. Bir yox, iki şəhid qarşılayandır Azərbaycan anası!

Azərbaycan anası, sən deyilmisən, övladının, qardaşının, həyat yoldaşının şəhid tabutunu çiynində daşıyaraq son mənzilə yola salarkən belə əhdinə vəfalı olan?! Sən deyilmisən, ey müqəddəs qadın, şəhid tabutu qarşısında qurban kəsərək, rəqs edərək, xonça bəzəyərək puç olmuş arzularınla ovunan, sakitləşən, təsəlli tapan, sonda məğrur dayanaraq-"Vətən sağ olsun"-deyən! Sən müqəddəs deyilsənsə, kimdir? Kimdir bu qədər cəfaya rəğmən "Allah, sənə şükür, özün bilən məsləhətdir"-deyən!

Səni heç kim unutmur, sənə qoşulan nəğmələr, şeirlər yetərsiz qalır möhtəşəmliyin qarşısında. Sənin nazını çəkmək həm çətindir, həm də şərəf! Çünki, sən bizim nazımızı çəkərkən yorulmadan, gecəni gündüzünə calayaraq, layla çalaraq Vətəni sevməyi, elə bağlılığı, vicdanlı olmağı, ləyaqətli olmağı, düşmən qarşısında əyilməməyi, şəhidliyi əsarətdən üstün tutmağı öyrətmisən bizə. Haqqın ödənərmi? Əsla! Varmı başqa dillərdə "saçını süpürgə etmək" ifadəsi?! Varmı sənintək cəfakeş qadın-ANA?! Yaxud "övladı, ailəsi üçün yaşamaq"?! Bax budur xanımlıq, alilik, heç bir dünya malının satın ala bilməyəcəyi ləyaqət! Budur Azərbaycan qadını!

Qeyrətindir oğullarına güc verən, onları cəngə səsləyən, ölümün gözünə dik baxdıran. Sınmayan iradəndir "ölmək var, dönmək yoxdur"-dedirdən.

Qadın mədəniyyətimizin daşıyıcısıdır. Məhz mədəniyyətimizdir "qadını" "xanım" edən, ona "zəif" yox "zərif" deyən. "Cənnət anaların ayaqları altındadır"-deyərək qadını aliləşdirən, müqəddəsləşdirən, qarşısında diz çökməyi şərəf saydıran!

Qadınına ən ülvi hissləri bəsləyən, səcdə edən, onu aliləşdirən cəmiyyətdə yaşamaq xoşbəxtlikdir. Bəli, biz xoşbəxt nəslin nümayəndələriyik. Bunu tarix sübut etdi, analarımızın yetişdirdiyi oğullar, igidlər sübut etdi. Qardaşları ilə çiyin-çiyinə cəbhədə mübarizə aparan, həyat xilas edən, yaralı əsgərinə anabacı nəvazişi göstərən xanımlarımız sübut etdi. Zamanı gəldi, zaman özü sübut etdi!

Sən yaşa, var ol, Azərbaycan qadını! Yaşa ki, daha neçə igid nəsillər bəxş et dünyaya. Yaşa ki, özün kimi xanımlar, qızlar, gəlinlər yetişsin nümunənlə. Yaşa ki, daim Ana Vətənlə qoşa çəkilsin adın! Yaşa ki, yaşayaq, yaşadaq-var olaq!

Aidə Cəlilzadə
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "İngilis dili və tərcümə" kafedrasının baş müəllimi

QADIN -MÜASİR CƏMİYYƏTİMİZİN QURUCUSU KİMİ

Qadın haqqında dillər əzbəri olan bir ifadə mövcuddur: "Qadınlar zərif məxluqlardır." Amma düşünürəm ki, bu fikirdə həqiqət olduğu qədər yetərsizlik də vardır. Çünki qadınlar dünyanın bütün çətinliklərinə tab gətirib cəmiyyətin özülünü formalaşdırma iqtidarına malik olan, insanlığa rifah bəxş edəcək qədər güclü olan "zərif" məxluqlardır.

Qadınların cəmiyyətdəki rolu danılmazdır. Təəssüf ki, əsasən "Aysberqin" görülən tərəfi kimi yalnız həkimlərin, müəllimlərin, qadın siyasətçilərin, hüquqşünasların və s . bir sıra bu kimi sənət sahibi olan qadınların cəmiyyət üçün oynadığı rol işıqlandırılır. Bəs, aysberqin görünməyən tərəfi necə?! Təəccübləndirici hal deyil ki, hətta bəşəriyyətin inkişafı dövründə belə qadın əməyi prioritet olmuşdur. Belə ki, tarixin inkişaf dövrünə nəzər salsaq, "Anaxaqanlığı" dövrünün (Matriarxat) "Ataxaqanlığı" (Patriarxat) dövründən əvvəl gəldiyinin şahidi olmuş olarıq. Hələ müəyyən bir dili, dini, təfəkkürü, mentaliteti, təhsili olmayan, hətta təkmilləşməmiş şüura sahib olan cəmiyyətdə aparıcı qüvvə olmaq, həmin cəmiyyəti idarə etmək bacarığına sahib olmaq bu gün hər kəs tərəfindən zərif məxluq kimi təsrifləndirilən qadınların üzərinə düşmüşdür. Belə ki, qəbiləni idarə etmək, onların ehtiyaclarını qarşılamaq, ola biləcək təhlükədən qəbilə üzvlərini qorumaq məhz, qadınların məsuliyyəti daxilində olmuşdur. Bu faktlara əsaslanaraq belə bir fikir irəli sürmək olar ki, Allahdan gələn bu instinktiv qüvvə, bacarıq, istedad ilə bugünkü inkişaf etmiş dövrümüzdə, hətta Yer kürəsinə sığmayıb kosmosa səyahət edən cəmiyyətimizin qurucuları qadınlardır. Bədii dillə ifadə etsək, qadınlar cəmiyyət ağacının sarsılmaz, iradəli köklərıdir.

Ulu öndərimiz Heydər Əliyev qadının cəmiyyətdəki roluna böyük ehtiram göstərərək deyirdi. "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir." Azərbaycan qadınlarının cəmiyyətimiz, xalqımızın rifahı üçün böyük işlər gördüyünü söyləyən ulu öndərimiz deyirdi: "Qadın cəmiyyətdə çox həlledici bir təbəqədir. Yalnız dövlət işlərində, biznesdə və s. yox, eynilə də ailədə. Çünki o hər zaman çalışır ki, ailə sağlam, möhkəm olsun, qadınların əksəriyyəti ailənin əxlaqını qoruyur. Qadın ailənin özəyidir, ailənin bütövlüyünü saxlayan bir vasitədir. Onun ən vacib xidməti sağlam əqidəli, milli ruhda böyüyən bir övladı cəmiyyətimizə, xalqımıza bəxş etməkdir."

Qadın ana olmaqla yanaşı xalqının aqibətini həll edən bir memardır. Ananın cəmiyyət üçün yetişdirdiyi milli, vətənpərvər ruhda, sağlam əqidədə böyüyən övladı xalqımızın gələcəyi üçün ən böyük nemət, ən vacib töhfədir. Azərbaycan qadınının namusu, iffəti, mədəni həyat tərzi, sağlam əqidəsi, yüksək iradəsi, ağlı, amalı xalqımızın əsas simasıdır. Azərbaycan xanımları hər zaman azərbaycançılıq ideologiyasının ən parlaq simaları olmuş və mənəvi keyfiyyətləri ilə dünya qadınları arasında ən yüksək yeri tutmuşdurlar. Ailələrini bir sipərtək qorumuş, övladlarının, eynilə də xalqının gələcəyi üçün parlaq işıq saçmışlar.

"Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqətilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir" - fikrini irəli sürən prezidentimiz İlham Əliyev Azərbaycan qadınının cəmiyyətimiz üçün oynadığı mühüm rolu xüsusilə təqdirəlayiq hesab etmişdir.

Məqaləmi Vəfa Mürsəlqızının qadınlar haqqında yazdığı və qadın tolerantlığının dilə gətirildiyi misralarla sonlandıram.

Sözünün üstündə durdu ər kimi,
Nazını, sözünü, qınaq ərkini,
Sənin dərdlərinin ağır yükünü,
Çiyninə dinməzcə götürən qadın!!!

Səkinə Paşayeva
"İngilis dili və metodika" kafedrasının müəllimi

BEYNƏLXALQ QADINLAR GÜNÜ!

8 Mart -bütün qadınların özlərini əsl xanım kimi hiss etdiyi gün! Daima adı gələndə qadınların üzündə az da olsa təbəssüm yaradan bu tarix 1857-ci ildə onların gərgin iş rejiminə üsyan etdikləri gün kimi qeydə alınmışdır. Həmin bu ərəfədə qadınlar iş yerində 12 saat işlədikləri üçün martın 8- də birlik olaraq üsyan etmişdilər.

Üzərindən xeyli vaxt keçdikdən sonra bu tarix qadınların bayramı, istirahət günü kimi qeyd olundu. Həmin gündə istirahət elan olunur və iş yerləri fəaliyyətini 1 günlük, məhz qadınlar üçün dayandırır. Azərbaycanda da bu tarix hər zaman qeyd olunub. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən Azərbaycan qadınları cəmiyyətin əsas üzvü kimi bütün fəaliyyət sferalarında öndə gediblər.

El arasında belə bir deyim var ki,
"Qadın böyük qüvvədir!"

Qadın zərif olmaqla bərabər güclüdür. Artıq elə bir dövrdə yaşayırıq ki, qadın və kişilərin hüquqları bərabərdir. Bu gün yüksək vəzifələrdən, mötəbər kürsülərdən belə qadınların səsi-sorağı duyulur. Hələ Azərbaycan Xalq Cümhuriyyəti yarandığı dövrdə belə ölkəmizdə kişilərlə bərabər qadınlar da seçki hüququna malik olmuşdular.

Qadınlar hər zaman özəl olmağa layiqdirlər. Onlara təkcə bir gün yox, ilin bütün vaxtlarında sevgi vermək, dəyər göstərmək lazımdır.

Qadın anadır, bacıdır, həyat yoldaşıdır, müəllimdir və iş həyatında belə uğurlara imza atandır. Hər bir çətinliyə asanlıqla qatlaşan qadınların əziyyəti sonsuzdur. Qadınlarımız bizi qalibiyyətə qovuşduran şəhidlərimizin, qazilərimizin anaları, bacıları, həyat yoldaşlarıdır. Azərbaycan qadını hər zaman tarixin sınaqlarından üzüağ çıxmağı bacarmışdır. Biz qəhrəman igidlər yetişdirən və bu torpağın bütövlüyü üçün canını heçə sayan oğullar böyütdüyünə görə Azərbaycan qadınına, əsl analara minnətdarıq.

Var olun, əziz qadınlarımız! Siz xoşbəxt olun ki, ailəniz də xoşbəxt olsun! Qızıl əlləriniz daim üzərimizdə olsun, əziz analar! Belə bir gündə mənim üçün çox dəyərli olan müəllimlərimi də yaddan çıxara bilmərəm. Bizim həyatımızda böyük rol oynayan əziz müəllimlərimiz, qəlbimizdə sizə sonsuz sevgi bəsləyirik. Sizlərin simasında bütün xanım müəllimləri təbrik edirəm. Bayramınız mübarək, xanımlar, hər zaman sizi xoşbəxt görək!

Məhluqə Rzalı
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

ANALARIMIZ – OXUDUĞUM ƏN DƏYƏRLİ KİTAB KİMİ

Dilimizdə "Ana" kəliməsi üç hərfdən ibarət olan, çox sadə bir söz kimi görünsə də, onun məna tutumu çox zəngindir. Dünyada ən mehriban, ən əzəmətli, ən ali varlıq olan anamıza biz bu sözlə xitab edirik. Ana kəliməsində olan sonsuz mənanı ifadə etməyə bütün kəlimələr aciz qalır, yetərsiz qalır.

Məndən soruşsalar ki, "Oxuduğun ən dəyərli kitab hansıdır?" -deyə, mən bir an belə düşünmədən "Anam" deyərdim. Onun hər bir səhifəsini vərəqlədikcə, kəlimələrlə ifadə olunmayacaq qədər ülvi bir varlıq canlanır xəyalımızda...O kitabın hər bir səhifəsi dərin mənalar ifadə edən bir dünyadır.

Bu kitabın içərisində ən geniş yayılmış fikirlərdən biri analaın Tanrı qədər müqəddəs hesab olunmasıdır...Analaın əzəmətini, ucalığını, həyatımızdakı rolunu nəzərə alaraq, "Ana haqqı Tanrı haqqı" deyilir və analar da Tanrı qədər müqəddəs hesab olunur... Uca peyğəmbərimizin "Cənnət anaların ayaqları altındadır" fikrini dilə gətirməyi də, anaların əslində nə qədər uca olduğunun, müqəddəsliyinin ölçüsünü göstərir.

Ana kitabını vərəqlədikcə onların övladları üzərindəki haqqının nə qədər əvəzsiz olduğunu anlayarıq.Yaşımız neçə olursa olsun, hər zaman ana nəfəsinə, ana nəvazişinə ehtiyac duyuruq.

Ana qəlbində idraka sığmayan səbir və dözüm vardır. Onun bu dözümlülüyü, övladlarına qarşı bəslədiyi bu ülvi məhəbbət qarşısında biz hamımız baş əyir, səcdə qılırıq. Ana sevgisinin müqəddəsliyi, övladına olan sonsuz məhəbbəti müxtəlif sənət əsərlərində qələmə alınmışdır. Dahi sənətkarlarımız heç kimin qarşısında baş əyməsələr də, Ana qarşısında əyilməyi özlərinə fəxr hissi ilə tərənnüm etmişlər. Ustad şairlərimizdən biri olan C. Cabbarlının dillər əzbəri olan "Ana" şeirinin bu misralarını xatırlatmaq yerinə düşərdi..

Ana! Ana! O adın qarşısında bir qul tək,
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm, bəzmi-istirahətdir.

Anaların haqqı ödənməz. Buna bir ömür bəs etməz.O balasının xoşbəxtliyi uğrunda bütün əzablara sinə gərir, hər bir çətinliklərə dözür.Anaların övladının yolunda etdiyi fədakarlıqlar saya-hesaba gəlməz...

Əli Kərim "Qaytar ana borcunu" şeirində övladın anaya qaytara biləcəyi haqqın övladının məhz özü olduğunu söyləyir. Dəyərli şair və yazıçılarımız öz bədii yaradıcılıqlarında nankor övladlara da öyüd, nəsihət verərək Analarımızın qayğısına qalmağa çağırmışdır. Ana-bala demək iki qəlbdə bir ruh deməkdir, ana-bala demək iki bədəndə bir can deməkdir..

Ana kitabının bir digər səhifəsində isə Vətən torpağı ilə Analarımız eyni mövqedə durur, onlar ən müqəddəs varlıqlar kimi həmişə yanaşı qoyulur. Vətən torpağı bizə yaşamağa yer verir, analarımız isə bizləri yaşamağa ruhlandırır, doğrunu, yanlışı aşılayaraq, həyatda müvafiq yer tutmağımızda yol göstərir. Ana və Vətənin əvəzedilməzliyi barədə hər zaman müxtəlif fikirlər səsləndirilib:

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən?
Bu dünyada əziz şey
Bir anadır, bir Vətən.

Ana kitabının hər səhifəsindən nə qədər fikir söyləsəm az. Mən bu yazımla gənc nəslimizi Analarımızın qədrini bilməyə, onların hər zaman qulluğunda durmağa səsləyirəm. Allah evlərimizi ana nəfəsinin hərarətindən, ana çöhrəsinin təbəssümündən məhrum etməsin. Nə qədər ki, gec deyil, ona öz sevginizi bildirin, onun sizin üçün nə qədər önəmli olduğunu hiss etdirin.

Və son olaraq, yazımı öz anamın "8 Mart - Beynəlxalq Qadınlar Günü"-nə özəl olaraq həsr etdiyim şeirimin son bəndi ilə yekunlaşdırmaq istəyirəm..

Doğrudur, nə susuz, nə də havasız,
Yaşamaq olmayır bu gen dünyada.
Onlar bizim üçün labüd olsa da,
Mənə onlardan da Vacibsən, Ana!

İlahə Əşrəfova
Naxçıvan Dövlət Universitetinin əməkdaşı

NAXÇIVANDA NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİ VƏ MİLLİ DƏYƏRLƏRİMİZ

Azərbaycan xalqının ən qədim bayramları içərisində Novruz bayramı öz həyatiliyi ilə daha çox seçilir, daha çox fərqlənir. Novruz bayramlar bayramı, şənliklər şənliyi, xalqın ümumi sevincidir. Bu bayram xalq bayramlarımızın bəzilərinin özülü, bünövrəsi, başının tacı-zirvəsidir.

Min illər boyu Novruz bayramı Azərbaycanda el şənliyi, el bayramı kimi geniş keçirilmişdir. Bəzi tədqiqatçılar ən gözəl millimənəvi dəyərlərimizdən biri olan Novruz bayramını neçə il bundan əvvəl yarandığını söyləyirlər. Bu onu göstərir ki, Novruzun izləri Zərdüşt Peyğəmbərin dövründən əvvələ gedib çıxır. Belə qədim tarixə malik olan bu bayram böyük el şənliyi kimi Azərbaycanın hər bir bölgəsində təmtəraqla qeyd olunur.

Milli – mənəvi dəyərlərimizin ən böyük hamisi olan ulu öndərimiz Heydər Əliyevin dediyi kimi: "... İndi, Azərbaycan dövlət müstəqilliyini, milli azadlığını əldə edəndən sonra Novruz bizim dövlət bayramımız olubdur. Buna görə də xalqımız gözəl ənənələrimizi son illərdə sürətlə bərpa edərək respublikamız, xalqımız bu bayramı ildən-ilə daha da şən, gözəl, yüksək səviyyədə keçirir".

Qədim tarixə malik olan, özündə çox qiymətli tarixi izləri qoruyub saxlayan qədim diyarımız Naxçıvanda da bu bayram lap qədim dövrlərdən keçirilir. Bu gün də bölgəmizin hər bir güşəsində Novruz şənlikləri əsl toy – bayrama çevirilib. Bu şənliklərdə qədim adət-ənənələrə, etiqadlara ciddi əməl olunur.

Novruz bayramının baharla bağlanması çoxlu folklor nümunələrimizdə yaşamaqdadır. Çünki baharın gəlişi torpağın oyanışıdır. Yada salsaq ki, ulu babalarımız tarixən maldarlıqla, əkinçiliklə məşğul olublar, onda yazın, təzə ilin – Novruzun gəlişinə onların daha çox sevindiklərinə şübhə yeri qalmaz. Baharın gəlişi ilə bağlı çoxlu xalq oyunları, meydan tamaşaları, adətlər icra olunardı ki, onların bir çoxu bu gün də diyarımızda yaşamaqdadır. "Kosa-kosa", "Qodu-qodu", "Qəzmədaş", "Siçan-pişik", "Dizədöymə", "Gizlənpaç", "Gözbağlayıcı", "Bənövşə-bəndə düşə", "Topaldıqaç", "Qayışagirmə" və sair oyunlar milli-mənəvi dəyərlərimiz kimi indi də qorunur, onların təbliği, gələcək nəsillərə ötürülməsi diqqət mərkəzində saxlanılır.

Bu bayramın rəmzlərindən biri səmənidir. Bayram ərəfəsində elə bir ev tapmaq olmaz ki, orada səməni göyərdilməsin. Səməni ilə bağlı daha bir adət səməni bişirməkdir. Ancaq asan olmadığı üçün hər adam onu bişirə bilməz. Ona görə də səmənini də xüsusi səriştəsi olan qadınlar bişirər. Bunun üçün böyük tabaqlarda buğda töküb isladırlar. Buğda göyərər, rişələri bir – birinə yapışardı. Sonra onu parça-parça doğrayıb əzərdilər. Onun ağ rəngli rişəsini sıxıb qablara yığardılar. Sonra ona bir qədər su qatar, ocaq qurub mis qazanlarda bir neçə gün qaynadardılar. Bişənə yaxın rəngi yavaş – yavaş qızarardı. Onun içinə qabıqlı qoz, fındıq tökərdilər. Qonşular da bəzəkli xonça düzəldib apararardılar və "Allah qəbul eləsin" deyib həyətə düzərdilər. Qaydaya görə həyətə düzülən xonçalar evə qoyulmazdı. Belə ki, həyətdə ayaq qoymağa yer tapılmazdı. Gecə hamı oturub gözlərdi ki, filankəsin səmənisi qəbul olacaq, ya olmayacaq. Əgər səməni şirin çıxsa demək qəbul olunub, əgər şirin deyilsə, deməli qəbul olmayıb.

Səməni halvası bişirmək də geniş yayılmışdı. Bu adət indi də bir sıra kəndlərimizdə ,xüsusən Ordubad rayonunda yaşamaqdadır. Səməni halvası belə hazırlanır: sarımtıl rəngdə olan səməni cücərtiləri maşından keçirilir, şirəsinə un əlavə edilib xəmir yoğrulur. Xəmir yağlanmış mis tavaya qoyulur, yanmasın deyə zəif alov üzərində arabir çevirməklə dörd saat ərzində bişirilir. Hər dəfə xəmiri çevirəndə alın basır içinə. Ruzi-bərəkət bol olsun deyə. Novruzda axır çərşənbə günü Naxçıvanda "İlaxır" və ya "Yeddi ləvin" adı ilə bayram edilir. "İlaxır" ilin axırı, "Yeddi ləvin" isə "yeddi növ", "yeddi cür"deməkdir. Buna "löyün" də deyirlər. Bu bayramda bazardan hər nə alınsa yeddi növ alınmalıdır. Son çərşənbə günü nişanlı qızlara pay aparmaq adəti də diqqəti cəlb edir. Həmin gün xonçalar bəzənər, qoz, fındıq, tına azacıq yağ tökülür. Axırda külçəyə xırdalanmış qoz ləpəsi, ədviyyat (cirə, darçın, istiot, razyana və bəhməz) vurulub möhkəm qarışdırılır. Hazır halvadan iri şirniyyatlar formasında paylar düzəldilir.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, Novruzda bişirilən şirniyyatlar içərisində Ordubad paxlavasının, şəkərburasının, qozlu Ordubad durməyinin oz yeri, öz dadı-tamı var. El arasında sucuq kimi tanınan şirniyyat növü Ordubad rayonunda daha gözəl bişirilir. İçərisinə qoz, yaxud badam ləpəsi qoyulan bu şirniyyatlara indi Azərbaycanın müxtəlif yerlərində rast gəlmək olar.

Bağlar diyarında yaşadılan Novruz adətlərindən biri də "Xan bəzəmə"dir. Xan bəzəmə" mərasimi hər il Novruz bayramı günü keçirilir. Ordubadda "Xan"ı üç gün dalbadal bəzəyirlər. Bunun üçün bir nəfəri seçərək onu əməlli –başlı əsl "Xan" kimi geyindirirlər. Başına tac qoyurlar. Meydanda hündür bir taxt düzəldib orada oturdurlar. İki nəfər balaca uşaq "Xan"ı yelpiklə yelləyir. Kim istəyir könüllü ona nökər, qulluqçu olur.

Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb tamaşa edirlər. "Xan"ın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. "Xan" əmrlər verir. Hamı çalıb oynayır. Hərə öz qabiliyyətini nümayiş etdirir. Burada "Təlxək"lər də olur. Onlar "Xan"ı güldürməyə çalışırlar."Xan"isə gərək gülməsin. Əgər gülsə, onu suya basırlar, təzə "Xan" seçirlər. Meydanda bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər "Xan" üç gün vəzifəsinin öhdəsindən yaxşı gəlsə, bu xələtlər ona çatır.

Çərşənbə axşamı Ordubad rayonunun kəndlərində dağların başında tonqal qalamaq ənənəsi də var. Kəndin cavanları əvvəlcədən hazırlıq işləri görər, lazım olan yanacaqları dağın zirvəsinə qaldırarlar. Gün batana yaxın tonqallar alovlanar, qonşu kəndlərin uşaqları da öz tonqallarını çatarlar. Bütün dağların zirvələrində ulu Dədə Qorqudun dediyi kimi, bayram, şənlik tonqalları el bayramının təntənəsindən soraq verər.

Ordubad rayonunda ilaxır çərşənbədən bir gün sonra su üstü at yarışı olur. Kimin atı qalib gələrsə, o adama hədiyyə verilir. Bundan əlavə, dini inanclara görə qabdakı unu həyətdə uca bir yerə qoyursan. Xızır Peyğəmbər gəlib püstə, kişmiş, mövüc, şabalıd, cürbəcür meyvələr, hədiyyələr, boyanmış yumurtalar xonçalara yığılıb nişanlı qızlara aparılar. Çox zaman qırmızı lent bağlanmış səmənilər də apararlar. Bu da həmin evə xeyir-bərəkət, ruzi gətirsin deyə mənalandırılır.

Naxçıvanın bütün bölgələrində Novruz axşamının səhəri günü ağsaqqalları, ağbirçəkləri görmək adəti uzun illərdir yaşamaqdadır. Ancaq bir sıra bölgələrimizdə bu adət-ənənə Novruz günü deyil, ilin son çərşənbəsi günü olur. Səhər tezdən qız-gəlinlər axar su üstünə və ya bulaq başına gedər, evə su gətirərlər, həmin suyu həyət-bacaya səpərlər. Sonra cavanlar bir alma ilə də olsa qonşuları, ağbirçəkləri yad edər, onların bayramını təbrik edərlər. Çərşənbə günü hər evdə çoxlu yumurta boyayarlar. Həmin yumurtaları "bayramçalıq" kimi qonşu uşaqlarına verərlər. Çərşənbə günü kəndlərimizin çoxunda Novruz günündə olduğu kimi plov bişirərlər. Plovun "üz-gözünü" isə hər yerdə fərqli hazırlayırlar. Kimisi əti göy-göyərti ilə bişirib plovun yanına qoyar, kimisi də ətin yanına qovrulmuş, bişirilmiş ərik, almaxara, xurma, şabalıd və sair ilə qoyar.

Çərşənbə günü həm Naxçıvan şəhərində, həm də kəndlərimizdə gün batanda tonqal qalamaq, od yandırmaq adəti var. Həyətlərdə kolkosları yığıb yandırarlar. Sonra o tonqalın üstündən tullanıb deyərlər.

Ağırlığım, uğurluğum
Bu tonqala tökülsün

Bir sıra kəndlərimizdə çərşənbə axşamı Xıdır bayramında olduğu kimi, qapılardan şal, papaq atmaq adəti indi də yaşayır. Uşaqlar, yeniyetmələr axşam qonşuların və yaxınların evlərinə şal, papaq atarlar. Ev sahibləri həmin yaylıqlara, papaqlara bayram şirniyyatı, qoz, fındıq, şabalıd, alma və sair qoyarlar. Çərşənbə günü qapı pusmalar da olur. Ona görə də gərək Novruz günlərində yaxşı sözlər danışasan. Qonşular ürəklərində niyyət tutub, qapılardan qulaq asarlar. Eşitdikləri ilk söz xeyirli sözdürsə, demək arzusu həyata keçəcək.

Naxçıvanda bayram günləri həyət-bacaları təmizləmək, bayrama bir neçə gun qalmış evin yorqan-döşəyini, pal-paltarını bayıra töküb təmizləmək adəti xalqımızın təmizliklə bağlı inanclarındandır. Xalqda belə bir inam var ki, Novruzda il təzələndiyi kimi, hər şey təzələnməli, təmiz olmalıdır. Elə buna görə də bayram ərəfəsində hər bir uşağa təzə paltar alınır, uşaqlar bir dəsmalla, köynəklə, corabla olsa belə sevindirilir. Gənc qızlar çərşənbə axşamı qonşu evlərə gedər, əllərində bəzən iki stəkan, fincan gətirərlər. Ancaq danışmazlar, ev sahibi onun niyyət tutduğunu bilib, o qabların birinə su tökər. Ondan sonra həmin qız danışar, niyyətinin baş tutub-tutmayacağını söylər.

Ustad Şəhriyar məşhur "Heydərbabaya salam" poemasında sanki Naxçıvandakı Novruz adətlərini qələmə alıb:

Bayram idi, gecəquşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu.
Hər kəs şalın bir bacadan soxurdu,
Ah nə gözəl qaydadır şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şal istədim, məndə evdə ağladım
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaşdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Göründüyü kimi, bu milli etnoqrafik parçalar hamımıza tanışdır, doğmadır. Bu adət-ənənələr qədim dövrlərdə olduğu kimi bu gün də Azərbaycanlıların yaşadığı hər bir eldə, obada icra olunmaqdadır.

Bütün bu deyimlər onu göstərir ki, minillikləri aşıb gələn milli bayramımız Novruz vaxtı ilə bütün qadağalara, yasaqlara baxmayaraq yaşamış, yaşayır və yaşayacaqdır. Qədim diyarımızın sakinləri milli kökə və adət-ənənələrimizə qırılmaz tellərlə bağlı olduğu üçün bundan sonra da el bayramımız olan Novruzu daha böyuk sevinclə qeyd edəcək, onu qoruyub gələcək nəsillərə ən dəyərli milli bayram kimi çatdıracaqlar.

***

Novruzum

Bahar gəlir ,aləmə nur ələnir,
Çöllər,düzlər yaşıl dona bələnir,
Qız ,gəlinlər deyib-gülüb,əylənir,
Xoş gəlibdi yurdumuza Novruzum.

Axar sudan qızlar qismət diləyir,
Buludlar da yaz yağışın çiləyir,
Qoca nənəm xeyir-dua eyləyir,
Xoş gəlibdi yurdumuza Novruzum

Bayram günü küsülülər barışır,
Mərd iğidlər cəngi çalır,yarışır,
Sevinç,şadlıq bir-birinə qarışır,
Xoş gəlibdi yurdumuza Novruzum.

Süfrələri bəzəyir göy səməni,
Yaz yağışı yuyur ,çölü-çəməni,
Qızlar dərir nərgizi-bənövşəni,
Xoş gəlibdi yurdumuza Novruzum.

Sədaqət Nemətova
Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru

BU YAZ BİR BAŞQA YAZDIR !

Azərbaycan ədəbiyyatının ölməz simalarından sayılan Mikayıl Müşfiq bir zaman yazırdı: "Bu yaz başqa bir yazdır.." Bu il yurdumuza gələn Novruz da başqa bir Novruzdur. Bu Novruz 30 illik həsrətin sonu, Şuşada, Laçında, Kəlbəcərdə qalanan tonqal, bu torpaqlarda gələcək üçün tutulan arzu, dilək deməkdir. Necə də xoşdur min illik adəti, Baharın gəlişini babalardan bizə yadigar qalan Azərbaycan torpağının Qarabağ adlı guşəsində qeyd etmək!!! Hər qarışı, daşı, torpağı, çayı, meşəsi yadırğayıb bu kəlməyə, Novruz tonqalının hərarətinə. Bu müqəddəs bayramımızda sanki, igidlərin qanı ilə suvarılan Murovdağın yamacları elə bu gün gülə, çiçəyə qərq olmaq istəyir. Qarabağ düzləri, meşələri, "Gəl, Bahar qoxulu, yaz ətirli Novruzum. Bu il artıq sinəmizdə bizə yad olan səslər, danışıqlar deyil, doğma Azərbaycan dilində aşıq şeirləri, şənşaqraq musiqilər, nəğmələr dilə gəlsin"- deyir.

Bu yaz bir başqa yazdır... Çaylar yeni illə, yeni günlə, Novruzla üzərinə düşən düşmən izini, hənirini təzələmək istəyir. Yenidən qaynamaq, çağlamaq, doğulmaq, yenidən daha şux, daha ətirli güllərə həyat vermək üçün Su durulur, Günəş odu, həniri ilə düşmənin məkrli niyyətini yandırmaq kül etmək, Yel bu xoş müjdəni ellərə çatdırmaq üçün daha gur əsmək, havanı yağı nəfəsindən təmizləmək üçün qasırğa qoparmaq, Torpaq isə yeni həyat, yeni barbərəkət gətirmək üçün tələsir!

Ürəkdə bir hayqırtı, bir istək dilə gəlir... Ən uca zirvəyə qalxıb qıy vurmaq, Ay ellər, Qarabağa Novruz gəlir!- deyə dünyaya hay salmaq keçir.

Bu yaz bir başqa yazdır... Bu il bayram tonqalımızda başqa olacaq, əvvəlki illərdəkindən daha da gur yanacaq. Novruz tonqalını Şuşanın ən hündür dağlarının zirvəsində qalayacağıq. İgidlərimizin dillərə dastan olan Şuşa döyüşünə şahidlik edən dağlar indi də Novruz tonqalı ilə düşmənə göz dağı verəcək. Həm də qədim Oğuz elinin müdriki olan Dədə Qorqudun dediyi kimi üç böyük tonqal yandıracağıq. Qoy düşmən bilsin ki, yurdumuzun ocağı gur yanır... Axı, Oğuz yurdunda üç tonqal qələbə rəmzidir! Bütün keçmiş ağrı-acılarımızı, kədərimizi bu tonqalda yandırıb birlik və bərabərlikdən doğan qələbə ovqatımızla Qarabağın ilk Novruz səhərində günəşi salamlayacağıq. Qarabağ atlarının ayaq səsilə canlanan Cıdır düzü bənövşənin, novruzgülünün ətri ilə salamlayacaq yurdumuzu. Cənginin əks-sədası ilə yurdumuzun hər qarışı, daşı, torpağı, sıldırım qayaları ana yurdun səmasında məğrur-məğrur dalğalanan bayrağımızı salamlayacaq. Baharın müjdəçisi olan qaranquşlar qanadları ilə vətən torpağının azadlıq qoxan ətrini dünyaya yayacaqlar.



Bu yaz bir başqa yazdır... Bu bahar yurdumuza uzun illər həsrətində olduğumuz yeni həyat, yeni gün, işğalda olan torpaqlarımıza azadlıq, firavanlıq gətirdi. İsa bulağının zümzüməsi ilə oyanan ağaclar, otlar, çiçəklər vətən torpağında azadlıq baharını füsunkar rəsmini çəkərək sanki dünya şöhrətli rəssamlara meydan oxuyur.

Bu yaz bir başqa yazdır ... Quşların cəh-cəhi də, çiçəklərin ətri də, suların züm-züməsi də, aşıqların səsi də, sazların avazı da başqadır. Çünki bu yaz yurdumuzu salamlayan günəş azadlığın sönməyən alovuyla isidir elimizi, ruhumuzu, qəlbimizi. Çin olan arzularımızın şöləsi ilə aydınlanan ana yurd şəhidlərin müjdələndiyi cənnətə bənzəyir bu bahar.

Bu yaz bir başqa yazdır... Bu yaz torpağın torpağa, ananın balaya bir sözlə Azərbaycanın Qarabağına qovuşduğu bahardır. Bahar bayramın mübarək olsun, cənnət Qarabağım! Ulu babalarımızdan bizə miras qalan, birlik və bərabərlik rəmzinə çevrilən Novruz bayramınız mübarək olsun, Qarabağı bizə qaytaran vətənimin mərd igidləri! Xoş müjdəli Novruzun mübarək, anamız Azərbaycan!

İlahə Allahverdiyeva
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

BİR XALQIN NOVRUZ İNANCI

Azərbaycan mifoloji düşüncəsində dərin kökləri olan Novruz bayramının yaşı olduqca qədimdir. Novruz bayramı xalqımızın minillik tarixini, adət-ənənələrini özündə əks etdirən qədim bayramdır. Bu bayram Azərbaycan xalqının bütün etnogenetik ənənəvi xüsusiyyətlərini özündə daşıyır. Novruz bayramının Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində yeri və rolu əlahiddədir. Ulu öndər Heydər Əliyevin söylədiyi kimi, "İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc və şadlıq bayramı olmuşdur". Novruz bayramı ənənələri Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin nəsillərdən nəsillərə ötürülməsində ən önəmli vasitələrdən biridir və bu ənənələr xalqın qədimliyinə dəlalət edir.

Novruz bayramı ənənələrinin əsasında inanclar durur. Bu inanclar həmin ənənələrlə yaşayan insanların düşüncəsinin, dünya haqqında, varlıq aləminin məkan-zaman quruluşu haqqında təsəvvürlərini formalaşdırır. Bu baxımdan Novruzun bütün fəlsəfəsinin, məna və mahiyyətinin əsasını inanclar təşkil edir.

Novruz bayramının tarixini araşdırarkən ağıla belə bir sual gəlir? Görəsən qədim zamanlarda əcdadlarımız illərin, günlərin, ayların yerini necə müəyyən edirdi? Xalq arasında belə rəvayət edilir ki, qədim zamanlarda aylar çox imiş. İlin hər ayına 32 gün düşmüş,boz ay kimi bildiyimiz mart ayına14 gün qalmış və boz ay da bu bölgüdən narazı qalaraq küsmüşdür. Daha sonra ayların hər birindən bir gün alınıb boz aya verilmiş, beləliklə boz ay 31 gün olmuşdur. İnanca görə aylardan gün aldığından boz ay gah qışın soyuğunu, gah da ki, yazın sərinliyini özündə əks etdirir. Xalq arasında boz ay mövsümlərin ən şıltaq ayı hesab olunur və nənələrimiz bu ayın "qanın oyanan" vaxt olduğunu dilə gətirərək cavanları daha diqqətli davranmağa çağırırlar.

Bir çox mənbələrdə "Novruz" "Adəmin yaradıldığı gün", "Nuhun gəmisinin torpağa oturduğu gün", "Türklərin Ergenekondan çıxdıqları gün", "Dünyada ilk hökmdar hesab edilən Kəyumərsin adı ilə bağlı gün", "Cəmşidin Azərbaycana səyahəti ilə bağlı gün", "Atəşpərəstlikdən qalan bir bayram", "Yunus peyğəmbərin balığın qarnından çıxdığı gün", "Həzrəti Məhəmmədin peyğəmbərlik xələtini geydiyi gün", "İmam Əlinin xilafətə gəldiyi gün", "İmam Əlinin doğum günü", "Küsülülərin barışması üçün imam Əli tərəfindən elan edilən bayram", "İmam Əli ilə Fatimayi-Zəhranın evləndikləri gün" və sair kimi göstərilir.

Cəlal Bəydili (Məmmədov) göstərir ki, ilin təhvil olma anı xalq ənənəsində həm də "aləmin yatan vaxtı" adlanır. Müəllif yazır ki, aləmin yatan vaxtı Azərbaycan xalq inamlarında qışın sonunu, yazın başlanğıc anını göstərən mifik vaxtdır. Mifoloji təsəvvürlərdə aləmin yatan vaxtı ilin axır çərşənbəsinə təsadüf edir.

Qədim xalq inanclarında qışın axırıncı ayına el arasında "Ağlar-gülər", "Boz ay", "Alaçalpo", "Çilləbeçələr" kimi adlarla rast gəlinir. Novruz bayramından əvvəl xalqımızın böyük bir inanc və coşğu ilə qeyd etdiyi su, od, yel, torpaq çərşənbələri bizi Novruz bayramına yaxınlaşdırır. Dörd çərşənbə, yəni çilləbeçələr Naxçıvanda "əvvəl", "quyruqlu", "külə", "axır çərşənbə" adları ilə də tanınır.

Naxçıvan elində birinci, əvvəl, əzəl çərşənbə kimi tanınan "su çərşənbəsi"ndə su oyanır. Havanın sərtliyi bu oyanışı hiss etməyə imkan vermir, məhz buna görə də bəzi yerlərdə bu çərşənbəyə "yalançı çərşənbə" də deyilir. Əski türk inanclarında yaradılışın ilki və başlanğıcı su ilə bağlı olduğundan və yaranan bütün canlı varlıqların əsası su ilə bütövləşdiyindən ilk çərşənbənin də su çərşənbəsi olması xalqın bu inanclara inamını ifadə edir.

Naxçıvanda su ilə bağlı çoxlu inanlar mövcuddur. Günahlardan təmizlənmə ilə bağlı keçirilən mərasim "ilin on üçü" adlanır. Bu mərasimin mahiyyətində "yalan yuma" ayini durur. Adətə görə, bayramdan (Novruzdan – T.X.) iki gün sonra arvadlı-kişili, oğullu-uşaqlı yığışarlar bir çayın qırağına. Buna da deyərlər "ilin on üçü". Yeyib-içərlər. Kim də nə qədər istəyər – o qədər yalan danışar. Gün çönənə (dönənə – T.X.) yaxın yuyarlar əllərini çayın suyunda, deyərlər:– Bu yalanların hamısını axıtdıq suya.

İkinci çərşənbə od çərşənbəsi olaraq tanınır və bu çərşənbədən sonra bu yerlərdə istilik, hərarət artmağa başlayır, günəş öz hərarəti ilə elimizə-obamıza yeni bir nəfəs gətirir, Bu istilik Naxçıvan insanının həyat eşqini daha da artırır. Od-Günəş əski insanın mifoloji baxışlarında olduğu kimi bu günün insanını da həyata yeni bir həvəslə-istəklə baxmasına sövq edir. Qədim inanclarda təsadüfi deyil ki, "Günəş" gözəl bir qıza bəzədilirdi. Günəş qızı haqqında Şərur bölgəsində xüsusi mərasim keçirilərmiş. Bu bölgədə qədimdə xalq "Günəşbanı" adlı mərasim keçirərmiş. Kiçik, bəzəkli taxta üzərində qız uşağı oturdular və uşaqlar mahnı oxuya-oxuya qapıları gəzib pay yığarmışlar. "Günəşbanı bəzəmək" adlandırılan bu mərasim Günəşin istiliyinin artmasını ifadə edirmiş.

Odun nəfəsi havanı isidir, insanı günahlardan təmizləyirdi. Bütün çərşənbələrdə yumurta döyüşdürmə adəti vardır. Uşaqlar odgünəş rəmzi xına yaxardılar. Oğlanlar, qızlar ürəklərində niyyət tutub, tonqalın üstündən atılırlar.

Üçüncü çərşənbə külək və ya yel çərşənbəsi adlanır və son çərşənbədə torpaq oyanır, külək isə yazın müjdəsini gətirir.

Ordubad bölgəsində "yeddiləvin" adı ilə tanınan ilin axır çərşənbəsi daha böyük təntənə ilə qeyd olunur. Qeyd edək ki, bu bölgəyə məxsus adətlərin bir çoxu islamdan öncəki əski türk inancları ilə sıx bağlıdır. Nənələrimizin söylədiyinə görə, qədimdə Naxçıvanın bəzi bölgələrində yalnız ilaxır çərşənbədə deyil, bütün çərşənbələrdə od yandırarmışlar. Xüsusilə də dağlıq bölgələrdə yüksək təpələrdə od yandırılması şər qüvvələrin qovulması inancından irəli gəlirmiş. İlaxır çərşənbədə tonqallar yandırmaqla bayramı qeyd edən xalqımız odun ətrafında yığılır və odun üzərindən atlanan zaman isə: Atıl-ütül, çərşənbə, Çilləm tökül, çərşənbə, subaylar isə- Bəxtim açıl, çərşənbə- deyərlər.

İnanca görə od üzərindən atlanmaq təmizlik və arınma anlamı ifadə edir və bu yolla sanki insanlar öz içlərindəki mənfi enerjini də yandırmaq və təzələnmək istəyirlər. Digər bir inanca görə ilaxır çərşənbədə hər bir kəs öz ocağında ocaq çatmağa can atır ki, bu da soy artımına bir işarədir, yəni həmin yurddakı soyun davam etməsinin bir işarəsidir. Səhər tezdən isə axar suyun üstündən "ağırlığım-uğurluğum tökül bu suyun üstünə", – deyərək üç və ya yeddi dəfə tullanır, sıxıntıların köhnə ildə qalmasını arzu edərlər.

Xalqımız odu-ocağı müqəddəs hesab edir, yanan ocağa su tökmək yaxşı əlamət hesab edilmir və inanca görə, ocağı su ilə söndürməzlər, yoxsa ocaq əyəsi adama zərər toxundurar. Xalq arasında deyilir ki, çərşənbə ocağı öz-özünə sönməlidir, səhər isə qadınlar ocağın külünü torpağa, ağacların üzərinə tökərək yüksək səslə "ağaclarım, bar gətir, ağaclarım, bar gətir", – deyərlər. Bu da ocağa inancın bariz ifadəsidir.

İlaxır çərşənbə axşamı qapı pusmaq, iynəlik salıb bəxt sınamaq da xalqın bu bayrama inancından irəli gəlir, insanlar qeyirimümkün hesab etdikləri arzularının da məhz Novruz axşamı eşitdikləri sözdən dolayı reallaşacağına böyük inam bəsləyirlər.

Axır çərşənbə suyunun dirilik suyu ilə müqayisə edərək insanlar bu suyun şəfa verməsinə inanırdılar. Naxçıvan bölgəsindən toplanmış inanc mətnində deyilir ki, ilaxır çərşənbəsinin suyundan güllərin dibinə tökər və saxlayarmışlar. Evdə xəstə olanda isə suya "Quran"dan ayə oxuyar, sonra suyu içirdərlər. O zaman xəstə sağalar.

Naxçıvanda köhnəlmiş səməni ilə bağlı bir ayin də vardır. Adətə görə, Novruzdan on iki gün keçəndə, yəni on üç deyilən günün səhərində kəndin qız-gəlini yığışır bir həyətə. Hər kəs də bir şey gətirir özü ilə "on üç yeməyi" hazırlamağa. Biş-düş edərlər, oxuyarlar, çalıb-oynayarlar. On üç yeməyində əriştə də olar. Odur ki deyərlər: "Əriştə – əlin işdə". Yeməkdən sonra da hərə gedər öz bağçasına. Bayramdan qalma səmənilər o vaxta saralıb-soluxar da. Onları çox yerdə atarlar suya. Bizlərdə suya atmazlar. İlin on üçündə qızgəlin aparar qoyar bağçada torpağın üstünə. Naxçıvan elində Novruz sevinci hər bir evdə, hər bir ocaqda hiss olunur, bayram axşamını hər bir naxçıvanlı öz ailəsinin yanında keçirməyə can atır. Bu da ailə birliyinin Novruza olan inancından irəli gəlir. Belə ki, Novruz bayramı axşamı- 20 mart yeni ilin başlanğıcı sayılır və ailə üzvləri bir arada olmaqla ruzi-bərəkətlərinin artmasına, ilin onlar üçün düşərli olacağına inanırlar. Bayram axşamı hər kəs öz evində, öz ocağının başında olmalıdır. İnanca görə, əgər belə olmazsa, həmin insan yeddi il bayram süfrəsi görməz.

Naxçıvan bölgəsindən toplanmış inanca görə, at ancaq Novruz gecəsində üç dəfə gövşəyir. Deyirlər ki, onun gövşəməyini kim görsə, ona vergi verilər .

Başqa bir inanc mətnində deyilir ki, Novruz bayramında su teşti qoyurdular. İçinə qırxayaq salırdılar. O dönəndə deyirdilər ki, il təhvil oldu. Lakin ilin təhvil olduğunu təkcə heyvanlar bilmir. Bu qeyri-adi zaman nöqtəsində təbiət ünsürləri də özünü adi zamanda olduğu kimi yox, başqa cür aparır. Məsələn, ağaclar həmin an başını yerə vurur. Deyirlər bunu təkcə at bilir.

Hər bir naxçıvanlının bayram süfrəsinin gözəlliyi səməni, yeddi cür çərəzdən (yeddiləvindən) hazırlanan xonça və milli yeməyimiz olan, analarımızın min bir həvəslə hazırladığı plovdur.

Novruz falları ilə bağlı inanclara gəlincə isə, kuzə, açar, qıfıl, alma, iynə , qovurğa, ulduz və digər fallar da var ki, onlar bir çoxu əski təbiət kultları ilə bağlı təsəvvürləri özlərində əks etdirirlər. Bu inanclar xalqımızın qədim mifoloji görüşlərini özündə əks etdirir.

Naxçıvanın Şahbuz, Ordubad, Culfa kimi bölgələrində insanlar evlərinin qapısını və istifadə etdiyi əşyaları iki gün ərzində açıq saxlayarlar və bu minvalla bayramın, oyanışın insanların həyatına, evlərinə, əşyalarına da nüfuz etməsini təmin etmiş olurlar.

Ordubad rayonunda Novruz bayramına məxsus ayrıca "xanbəzəmə" oyunu ədalətli xan seçimi ilə başlayır. Xan ona ayrılan taxtında oturur, üç gün ərzində külli-ixtiyar sahibi olur. Xan camaatdan topladığı pullarla ehtiyacı olanlara, təzə evlənənlərə kömək edir. Göründüyü kimi, Naxçıvanda Novruz mərasimləri ilə bağlı inanclar bu bölgə insanlarının öz kökünə bağlılığından irəli gəlir.

Novruzun simvolu olan göyərdilmiş səməni bərəkət, bolluq rəmzi sayılır. İnanca görə səməni düz, şax vəziyyətdə qalxarsa, həmin il o evin ruzisi bol olacaq, əgər əyri, nazik olarsa isə az olacaq. Bayramdan sonra səməni axar suya axıdılır, arxasınca da şirni səpilir və ilboyu evdə ruzi, bərəkətin bol olacağına inanılır.

Sonda onu qeyd etmək istəyirəm ki, Naxşıvan həmişə adət-ənənələrimizi, milli dəyərlərimizi qoruyub saxlamaq baxımından digər bölgələrdən seçilib. Bu ondan irəli gəlir ki, bu qədim diyarın sakinləri milli kökə və adət-ənənələrə qırılmaz tellərlə bağlıdırlar. Millətin mənliyini təsdiq edən, qədimliyini, ululuğunu özündə yaşadan inanclarımız bizə xalqımızın əzəmətindən xəbər verir. Öz yurdunu sonsuz məhəbbətlə sevən bir azərbaycanlı kimi inanıram ki, bu Novruzu da xalqımız böyük sevinclə, təntənə ilə qeyd edəcək, onu qoruyub gələcək nəsillərə ən dəyərli milli bayram kimi çatdıracaqlar. Sevindirici, qürurverici haldır ki, bu gün təkcə Naxçıvan elində deyil, bütün Qarabağ elində gur tonqallar yanacaq. Hər il böyük bir ümidlə cücərtdiyimiz səmənilərimiz bu il Qarabağ elində də evləri bəzəyəcək. Ey ulu xalqım, qoy Novruz tonqalın həmişə gur yansın, hər evdə, hər ocaqda öz yurdu üçün canından keçən şəhidlərimiz qürurla anılsın və hər bir azərbaycanlı öz soy-kökünü, inanclarını, dünənini, keçmişini unutmasın!!!

Tehranə Xudaverdiyeva
"İngilis dili və tərcümə" kafedrasının müəllimi

ŞUŞA, TONQALLARIN ƏBƏDİ ALOVLANSIN!

Şuşa! Qəmli gözlərin yollarda qalaraq, Cıdır düzündə igidlərinin yallı getməsinə, tonqallarının qalanmasına, qayğısız uşaqlarının gülüşünə, çoxmu həsrət qaldın?! Xarı bülbülün boynunu bükməsi uzunmu oldu?

Nəhayət, 28 illik həsrət bitdi.

Övladların sönmüş tonqalını yandırmağa, Xarı bülbülün göz yaşını silməyə gəldi. Mübarizlər, Poladlar, Xudayarlar, Cəbrayıllar Sənə Can verməyə, Səndə Can verməyə, yaralarını sarmağa gəldi. İgid oğullarının Vətən sevgisi 44 gün ərzində düşməni diz çökdürməyə, onu xar etməyə, dostu sevindirməyə yetdi. Sil göz yaşını, geyin yaşıl donunu. Biz döndük isti qucağına, ana yurdumuza, Zəngilana, Qubadlıya, Füzuliyə, Kəlbəcərə, boğazımızda düyün olan, gözlərimizdə yaş olan, qəlblərimizi titrədən kəlimə yə- Qarabağa döndük. Bir daha ayrı düşmək şərtilə, əbədi döndük. Biz səni dirçəltmək üçün döndük. Bülbülün, Üzeyirin, Nətavanın Vətənini bərpa etməyə, ruhlarını şad etməyə gəldik. Vətənin igid oğulları bu üçrəngli bayrağını sənin zirvələrində dalğalansın deyə tabutlarına bürüdü. Şuşam, 28 bayrama həsrət qalsan da artıq zəfər çalmış ordunun möhtəşəm "əsər"inin bir parçası oldun. İşğaldan azad olunduğun gün yenidən doğuldun, sən. Novruz qədər zəngin milli bayramı doğma torpaqlarında qeyd etməyi diləyən insanların gerçək olan arzularısan. Tutduğumuz niyyət, gördüyümüz yuxu, ən ümdə arzumuzun gerçəyisən.

Milli bayramlar hər bir xalqın dərin çağlarından süzülüb gələn adət-ənənəsi, həyat tərzini, milli mentalitetini əks etdirən məhfumdur. Novruz Azərbaycan xalqının milli sərvəti, qəlbi ilə qeyd etdiyi bayramıdır.

Əsrlər boyu din xadimləri, müxtəlif təriqət nümayəndələri bu bayramı təbii və tarixi köklərindən ayırmağa çalışmış, ona dini, mövhumi libas geyindirməyə cəhd göstərmişlər. Ancaq Xalqın bayramla əlaqədar keçirdiyi mərasimlər heç bir dini ehkamlar ilə bağlı deyildir.

Novruz xalqımızın mədəniyyətini, milli mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə qalan mirasıdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək insani dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə saflığı, mühüm dəyərləri tərənnüm edir. Həyatın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu sülh və əmin-amanlığın bərqərar olması, insanlar arasında qardaşlıq və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə xeyirxahlıq və diqqət göstərməsi kimi sağlam təməllər formalaşdırıb.

Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın Ümummilli Lideri Heydər Əliyev sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşmışdır. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən Ulu öndər Heydər Əliyev bu bayram haqqında demişdir: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir".

Cıdır oyunu

Novruz bayramı və digər el şənliklərində təşkil edilimiş atçılıq oyunlarından biridir. Cıdır xalq oyunun Azərbaycanda yayılması "Kitabi-Dədə Qorqud" boylarından, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından və klassik ədəbiyyatımızın digər nümunələrindən də bəllidir. Cıdırın keçirildiyi meydan və gün əvvəlcədən müəyyən edilirdi. Adlı-sanlı, tanınmış cavanlar bu oyun-yarışa xüsusi hazırlıq görür, təlim almış atlarını cıdıra hazırlayırlardılar.

Cıdır iştirakçılarından kim məsafəni birinci qət edərsə, o, yarışın qalibi sayılır və adət üzrə ona xonça təqdim olunardı. Qalib çıxmış atın isə alnına bir yumurta vurub sındırır, boynuna qırmızı rəngli kəlağayı və ya parça bağlanılır, Cıdırın digər iştirakçılarına da müəyyən hədiyyələr verilirdi. Cıdır əyləncələrini zurnaçılar dəstəsi müşaiyət edir. Adətən cıdır meydanları üçün elə yer seçilirdi ki, əhali cıdıra çıxanları görə bilsin. Cıdır sözün əsl mənasında, gənclərin sınaq meydanına çevrilir, elin çevik, mərd, mahir çaparları burada müəyyən edilirdi. Xalqımız Novruz ənənələrini bu gün də yaşadır.

Qılınc oynatmaq

Bu oyunda meydana çıxan gənclər bir-birlərinin əllərindən qılınc düşənə qədər döyüşməlidirlər. Qılınc-oynatma bəzən at üstündə də keçirilirdi. Bu oyundan qalib çıxana Novruz hədiyyəsi verilərdi. Elə bu oyunlar da Azərbaycan xalqının nə qədər əzmkar, mərd xalq olduğunu göstərir. Hələ Şuşamızda- Cıdır düzündə Novruz bayramına həsr olunan neçə- neçə festivallar, yarışlar, xalq oyunları təşkil ediləcək. Çünki Novruz Qarabağda bir başqa gözəldir. Çünki hələ bu torpaqlar əsl sahiblərinin qəlbinin sevgisi ilə isinəcək, dirçələcək, Cənnətə çevriləcək.

Qoy qalanan tonqalların qığılcımları düşmənin bağrını yarsın. Dədə Qorqud dastanında Qələbə rəmzi olaraq dağların başında üç tonqal qalanardı. Düşmən Oğuz yurdunun ocağının gur yanmasını bilməsi üçün... Üç tonqal qalamağa qadir olan xalqımızın Novruz bayramının özünəməxsusluğu az deyil. Bu milli bayramın əsrlər və minilliklər yola salması onun digərlərindən fərqli cəhətləridir. Milli-mənəvi sərvətlərimizdən sayılan Novruz bayramı çoxlu özəllikləri ilə fərqlənir.

Qədəmləri uğurlu, bərəkət sovqatlı olsun Novruz bayramının. Qoy builki Novruz oğullarını Vətənə fəda edən analara, sadəcə, təsəlli deyil, xoş ovqat gətirsin, ümidləri cücərtsin...

Bu il Cıdır düzündə Cənab Prezidentimizin şəxsən özünün alovlandırdığı tonqal sadəcə Novruzun rəmzi deyildi, düşmənin bağrını yandıraraq, ona göz dağı olan Qələbə ətirli bu tonqalın əbədi alovlanacağı, bu torpaqların əsl sahiblərinin kim olduğunu bir daha xatırlatmaq mesajı idi. Xalqımızın torpaq həsrətinə, Vətən həsrətinə son qoyan Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirik. Azərbaycan xalqı Vətən üçün şirin canından keçən oğullarının xatirəsini daima əziz tutacaq.

Türkan İsmayıllı
"İngilis dili və metodika" kafedrasının müəllimi

ELİMİZƏ NOVRUZ GƏLİR

Xalqımızın yaddaşına əbədi həkk olunan, milli-mənəvi dəyərlərimizi özündə yaşadan və əsasən yazın gəlişilə əlaqələndirilən Novruz bayramı çoxəsrlik tariximizdən günümüzədək süzülüb gələn ən sevimli bayramlarımızdandır. Adət-ənənələrində, mərasimlərində humanist hisslərin aşılandığı Novruz bayramında qonaq qəbul olunması, qohumlara-yaxınlara pay aparılması, küsülülərin barışması kimi adətlər icra olunur. Ümummilli liderimiz Heydər Əliyevin "Novruz bayramı ürəklərdə saf duyğuların oyanması, insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmlənməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün gözəl zəmin yaradır. Yaxınların yad olunması, umuküsülərin, kin-küdurətlərin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış gözəl ənənələrindəndir" fikri də bir daha bu bayramın humanistliyindən xəbər verir.

Müstəqilliyimizin əldə olunması ilə Novruz bayramının statusu da müəyyənləşdirilmiş, Novruza Ümumilli lider Heydər Əliyev tərəfindən "milli bayram" statusu verilmişdir, beləliklə bayram layiqli qiymətini almışdır. 2009-cu il sentyabrın 30 da Novruz YUNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Qeyd etmək lazımdır ki, Novruz bayramının bu statusu qazanmağında Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və müstəsna xidmətləri olmuşdur.

Novruz bayramında müxtəlif mərasimlər icra olunur. Bu mərasimlərin əsasını isə çərşənbələr təşkil edir. Bəzi qədim inanclara görə kainat 4 ünsürdən – su, od, torpaq və küləkdən yaranıb. Hər il 4 çərşənbə Novruzdan, günün bərabərləşməsindən əvvəl qeyd olunur. Birinci çərşənbə su çərşənbəsi adlanır. Bu çərşənbə ərəfəsində buz bağlayan suların donu əriyir. Torpaq yavaş-yavaş islanmağa başlayır. İnsanlar bulaqlara gedər, şirin su içər, evlərə də səhənglərlə bu sudan gətirərlər, həyətlərə su çiləyərlər. İkincisi od çərşənbəsi adlanır. Bu zaman torpağı günəşin şəfəqləri isidir, təbiət canlanır. Od çərşənbəsində tonqallar qalanar, hər ailə üzvünün adına bir şam yandırılar. Yel çərşənbəsi adlanan üçüncü çərşənbədə külək, yel təbiəti, tumurcuqları, cücərtiləri oyadar. Dördüncüsü torpaq çərşənbəsidir. Bu zaman torpaq əkinə hazırlanır. Torpaq çərşənbəsini "Axır çərşənbə" kimi də adlandırırlar. Bu çərşənbə daha təmtəraqlı şəkildə qeyd olunur.

Novruz bayramında müxtəlif adətlər icra olunur. Belə ki, yazın simvolu hesab olunan səməni yetişdirilir ki, bu da ruzi-bərəkətin simvoludur. Səmənilər, adətən müxtəlif nemətlərlə, şirniyyatlarla bəzədilən xonçaya qoyulur. Xonçanı ailənin sayı qədər yandırılan şamlar daha da yaraşıqlı edir. İnsanlar bayram süfrəsini şəkərbura, paxlava, şorqoğalı kimi, şirniyyatlar, eyni zamanda, milli mətbəximizin plov, dolma kimi sevilən təamları ilə bəzəyərlər. Bayram axşamı qapıya papaq atılar. Bu papağı boş qaytarmazlar. Papaq, içərisi Novruz nemətlərilə geri qaytarılır. Bununla yanaşı, qulaq falına çıxılır. Əgər dinlənilən evdən xoş söhbət, ürəkaçan sözlər eşidilərsə, bu, arzunun yerinə yetəcəyinə işarədir. İnsanlar tonqal qalayıb onun üzərindən "Ağırlığım, uğurluğum, bu odun üstündə yansın" deyərək, tullanırlar. Bu, köhnə ilin uğursuzluqlarının odda yanması inancı ilə əlaqələndirilir. Novruz bayramının əsas atributlarından biri də boyanmış yumurtalardır. Uşaqların ən çox sevdiyi adət isə, yumurta döyüşdürməkdir. Bu bayramın əs sevilən cəhətlərindən biri də qonaq getmək və ya qonaq qəbul etməkdir. Novruzda qohumların və qonşuların evinə qonaq gedərlər, onlara Novruz payı apararlar. İnsanların həmrəyliyini xarakterizə edən yallı rəqsinin ifası Novruz mərasimlərini daha da canlı, maraqlı edir. Bayramda daha çox uşaqların böyük sevincinə, marağına səbəb olan Novruzun simvolik personajları-Keçəl, Kosa, Bahar qızı Novruz mərasimlərinə xüsusi rəng qatır.

Azərbaycan incəsənətində, ədəbiyyatında Novruz bayramının təsvir və tərənnümü xüsusi yer tutur. Bu sevimli bayram hər zaman rəssamlarımızın ilham qaynağı olmuşdur. Milli rəssamlıq sənətimizdə Novruzun, yazın boyalarla təsviri tamaşaçıları canlı bir aləmə aparır. Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan, Novruz bayramı mövzusunu əks etdirən əsərlər sırasında Xalq rəssamları Səttar Bəhlulzadənin "Bahar nəğməsi", "Xonça" (Etüd) "Torpağın arzusu", "Azərbaycan nağılı", Xalidə Səfərovanın "Novruz", "Çovkan", "Çovkançılar", Elbəy Rzaquliyevin "Novruz bayramı", Altay Hacıyevin, "Novruz sandığı", əməkdar rəssam Mahmud Tağıyevin "Gül açan bağ", "Bağçada yaz gülləri", qrafika sahəsində Xalq rəssamları Əzim Əzimzadənin "Tonqal üstündən tullanmaq", "Kos-kosa", Elmira Şahtaxtinskayanın "Novruz bayramı ərəfəsində", "Qutablar", əməkdar rəssamlar Ələkbər Rzaquliyevin "Gəlinə hədiyyə ilə" ("Köhnə Bakı" silsiləsindən), Arif Ələsgərovun "Novruz", "Kəndirbazlar" və başqalarını xüsusilə vurğulamaq lazımdır.

İstər poeziya, nəsr, istərsə də musiqi kimi nümunələrdə də bahar, yaz, Novruz atributlarına rast gəlmək mümkündür. Azərbaycan poeziyasında "Bahariyyə" adlı lirik şeirlərdə baharın gözəlliyi, təbiətin yazda canlanması poetik dillə əks olunmuşdur. Şah İsmayıl Xətainin şeirləri daxil edilmiş "Dəhnamə"nin "Bahariyyə" hissəsində də çoxlu təbiət təsvirləri və baharın tərənnümünə rast gəlmək mümkündür.

Qış getdi, yenə bahar gəldi,
Gül bitdi vü laləzar gəldi.
Quşlar hamısı fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.

Misralarda şairin bahar sevinci, yaz duyğuları öz əksini tapmaqdadır.

Hüseyn Cavidin "İlk bahar", Abdulla Şaiqin "Səməni", Səməd Vurğunun "Bahar şərqisi", "Elmizə bahar gəlir" şeirlərində yaz, bahar, Novruz elementləri əks olunur. Xalqımızın sevimli şairi Məhəmmədhüseyn Şəhriyar "Heydərbabaya salam" poemasında bayramı belə təsvir edir:

Bayram idi, gecəquşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər kəs şalın bir bacadan soxurdu,
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Yumurtanı göyçək, güllü boyardıq,
Çaqqışdırıb sınanların soyardıq,
Oynamaqdan bircə məgər doyardıq,
Əli mənə yaşıl aşıq verərdi,
İrza mənə novruzgülü dərərdi.

Azərbaycan nəsrində də Novruz atributlarının əks olunduğu nümunələrə rast gəlmək mümkündür. Belə nümunələrin ən bariz olanı məhz sevimli yazıçımız İsmayıl Şıxlının "Dəli Kür" romanı hesab olunur. Belə ki, bu əsərdə Novruz bayramında icra olunan adətlərdən, həyata keçirilən mərasimlərdən geniş bəhs olunur: "Novruz bayramı idi... Gəlinlər yumurta boyayır... Səmənilər süfrələrə düzülürdü. Hamı bayrama hazırlaşırdı....Yaxındakı həyətlərdən birində tonqalı yandırdılar. Onun dalınca bütün qonşular tonqallara od vurdular... Bayram axşamı qapı pusmaq, iynəlik salıb bəxt sınamaq qızların adəti idi. Oğlanlar isə baca-baca gəzərdilər. Onlar balaca heybələrini götürüb damın üstünü çıxar, iplə bacadan içəri sallayardılar. Adət üzrə ev sahibi heybəyə şirniyyat qoymalı idi..."

Qeyd edək ki, 1969-cu ildə tanınmış kinorejissor Hüseyn Seyidzadənin İsmayıl Şıxlının ssenarisi əsasında ekranlara gətirdiyi "Dəli Kür" filmində də Novruz bayramı ilk dəfə ekrana təmtəraqla çıxarılıb. Ona qədərsə ekranlarda Novruz ənənələrinin görsənməsi bir növ yasaqlanıbmış.

Bədii əsərlərdə olduğu kimi milli musiqimizdə də yazın təsviri, Novruz bayramının tərənnümü könül oxşayır, insanın yaşamaq, yaratmaq eşqini qüvvətləndirir. Belə ki, tanınmış bəstəkarlarımızdan Vasif Adıgözəlovun "Novruzum", Cəlal Abbasovun "Bahar mərasimi" kantataları, Azər Dadaşovun "Bahar tonqalı" və "Gəl, gəl, a, yaz günləri", Fikrət Əmirovun "Gülür ellər", Ramiz Mirişlinin "Bayram axşamlarında", Şəfiqə Axundovanın "Xoş gəlmisən", Əfşər Cavanşirovun "Xoş gəldi yaz bayramı" mahnıları bayram əhval-ruhiyyəsini özündə əks etdirən dəyərli sənət nümunələrimizdəndir. Ümumiyyətlə, nə qədər ki, Novruz xalqımızın yaddaşında yaşayır, bir o qədər də bu bayramın gözəlliyi əsərlərdə təsvir və tərənnüm olunacaqdır.

Paklıq, təmizlik bayramı hesab olunan Novruz ən arzuolunan bayramlarımızdandır. Bu bayramda insanların söyləmək, eyni zamanda, eşitmək istədiyi ən əziz sözlərdən biri, eləcə də birincisi "Bayramın mübarək!" kəliməsidir. Əziz oxucular, hər birinizi bu sevimli, doğma bayram - Novruz bayramı münasibətilə təbrik edir, sizə cansağlığı, evlərinizə ruzi-bərəkət arzulayıram!

Çinarə İsmayılova
Elmi Kitabxananın baş kitabxanaçısı

MİLLİ VARLIĞIMIZIN TƏQVİMDƏKİ TƏCƏSSÜMÜ: NOVRUZ

Qədim türklər arasında qeyd olunan mərasimlərdən biri də tarixi çox qədimlərə dayanan Novruz bayramıdır. Bu mərasim ta qədim zamanlardan üzübəri yazın gəlişi, otların cücərməsi, təbiətin oyanması və digər təbii hadisələrlə müşaiyət edilib. Dərin kökləri ilə xalqımızın mədəniyyətinin uzaq keçmişindən xəbər verən Novruz bayramı əski çağlardan başlayaraq xalqımızın həyatında özünəməxsus, əbədi, unudulmaz bir yer tutur.

Novruz gəlib, yaz gəlib,
Bir əlində saz gəlib,
Bir əlində xonçası,
Açıb gülün qönçəsi
Bülbülə avaz gəlib,
Novruz gəlib yaz gəlib.

Yeni gün anlamını verən Novruz xalq təqvimi ilə Çiləbeçənin axrında, yəni qışın bitib yazın girdiyi, gecə ilə gündüzün bərabərləşdiyi gün mart ayının 20-21-i keçirilir. Həmin gün bayram bütün evlərdə xüsusi olaraq qeyd olunur. Həyətlərdə od qalamaq isə Novruz bayramının əsas simvollarından sayılır. Od Günəşin, istiliyin yerdəki rəmzi hesab edildiyi üçün insanlar, Novruz bayramında od qalamaqla qışın bütün qada-bəlasından xilas olduqlarına inanırlar. Xalq arasında belə bir inam da var ki, odu insanlara Günəş bağışlayıb. Bayramda odun rəmzi kimi yumurtaları qırmızı rəngə boyamaq, səməninin ortasına qırmızı parça bağlamaq, kosanın qırmızı paltar geyinməsi də məhz bu inamla bağlıdır.

Novruza hazırlıq fevral ayından başlayır. Bayramndan əvvəl dörd həftə ardıcıllıqla hər çərşənbə günü başqa-başqa adlarla qeyd olunur. Rəvayətə görə, Tanrı ilk insanı yaradarkən torpağa su qatıb, palçıqdan insan düzəldib, sonra ona isti nəfəs verib, baharda çiçəkləri, otları, ağacları oyadan yellərə əmr edib ki, onu canlandırsın. İnsan da bu dörd ünsürdən yarandığı üçün tarix boyu onları müqəddəsləşdirərək, hərəsinə bir gün ayırıb. Beləcə, yazın – Novruzun müjdəçiləri olan Su, Od, Yel, Torpaq çərşənbələri yaranıb.

Novruzun ilk çərşənbəsi su çərşənbəsidir. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Xalq arasında bu çərşənbə "əvvəl çərşənbə", "gözəl çərşənbə", "sular Novruzu", "gül çərşənbə" kimi də tanınır. İnanclara görə həmin gün bulaqdan götürülən su min-bir dərdin dərmanıdır.

İlin ikinci çərşənbəsi isə Od çərşənbəsi adlanır. Bu çərşənbədən etibarən günəş torpağı daha da qızdırmağa başlayır. İnsanlar həyətlərində tonqallar qalayıb evlərində hər ailə üzvünə görə bir şam yandırarlar. Od çərşənbəsinə "Üskü çərşənbə", "Üskü gecəsi" də deyilir. Od qədim Azərbaycan xalqının təfəkküründə, işıqlı sabah, xeyir bərəkət rəmzi hesab olunub. İnsanlar həyətlərində tonqal qalamaqla pisliklərdən təmizləndiklərinə inanırlar. Od çərşənbəsinin bu gündə qorunan ən gözəl adətlətindən biri də qonum-qonşular yasda olan ailənin həyətində tonqal yandırar, bununla da ailəni yasdan çıxararlar. Qədim inanclara görə bu gündə Günəşi nə qədər əzizləsəydilər, qarşıdakı il bir o qədər xoş keçər, təbiət də bir o qədər dirilərmiş.

Üçüncü çərşənbəmiz isə xalq arasında "toz çərşənbə" kimi tanınan yel çərşənbəsidir. İnanca görə bu çərşənbədə oyanan yel suyu və odu hərəkətə gətirir. Şifahi xalq yaradıcılığında yelin tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, inanc mövcuddur. Novruz şənliklərində icra olunan Yel baba mərasimi öz kökü etibarilə qədim əcdadlarımızın Yel tanrısına etiqadı ilə bağlıdır. Yel çərşənbəsi günü tonqallar qalanır, evlərdə adət-ənənəyə uyğun olaraq südlü plov və ya bulğur aşı bişirilər, süfrəyə daha çox quru meyvə və dənli bitkilərdən hazırlanmış çərəzlər düzülər.

Çərşənbələrin içərisində daha böyük mərasimlər hazırlanan çərşənbə sonuncu hesab olunan Torpaq yaxud da İlaxır çərşənbədir. Bu çərşənbə öz xüsusiyyətlərinə və bayrama yaxın olduğuna görə daha çox sevilir. Torpaq çərşənbəsində milli mətbəximizin gözəl təamlarından olan paxlava, şəkərbura, qoğal və bir çox şirniyyatlar hazırlanır. Qoğal günəşin və istiliyin simvolu hesab edildiyinə görə həmin gün bayram süfrəsinin əvəz olunmaz nemətidir. Bununla yanaşı qoz, fındıq, badam və bir çox çərəz növləri də süfrəni bəzəyir. Bayram axşamı cavanlar, uşaqlar bir yerə toplaşıb, dəstələnib Novruz nəğmələri oxuya-oxuya qapıları döyər, papaq atıb bayram payı yığarlar. Həyətlərdə qalanan tonqal üzərindən hoppanarkən hər kəsin dodaqlarında bu misralar səslənər.

Ağırlığım, uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara

Adət-ənənələrimizi, milli dəyərlərimizi qoruyub saxlamaq baxımından Naxçıvan regionlar arasında həmişə fərqlənib. Qədim diyarımızın sakinləri milli kökə və adət ənənələrə qırılmaz tellərlə bağlı olduğu üçün el bayramımız olan Novruzu böyük sevinc və təntənə ilə qarşılayırlar. Hər il Ordubad rayonunda üç gün ərzində "xanbəzəmə" mərasimi təşkil edilir. Bir nəfər hündürboy, zəhimli şəxs xan seçilir və at belində məclisə daxil olaraq kəndin mərkəzində onun üçün qurulmuş taxta əyləşir. Kənd camaatı isə xanın buyurduğu tapşırıqlara hökmən əməl etməli və üç gün ərzində mərasimdə iştirak etməlidir. Əks təqdirdə xan iştirak etməyən insanın ardınca adam göndərir və onu meydana gətirərək cərimələyir. Cəza isə pulla yox, taxıl, toyuq-cücə, mal-qara ilə imkansız şəxslərə kömək edilməklə ödənilər. Xan ona pay gətirilən şəkərbura, paxlava, qoğal və bir çox nemətləri də bərabər sürətdə ehtiyacı olan ailələrə paylayır. Oyunun qaydasına əsasən isə xan gülməməlidir.

Üçüncü günün sonunda "xanı taxtdan salma" mərasimi keçirilir. Kənd sakinlərindən bir nəfər xana minnətdarlıq edir və xan taxtdan salınır. Etnoqraf Asəf Orucov deyir ki, Novruz bayramı bir çox ölkələrdə keçirilsə də "xanbəzəmə" adəti yalnız Naxçıvan ərazisində təşkil edilir.

Ordubadda qonağı olduğumuz evin sahibi Almaz xanım bizə illərdir rayonda bir çox evlərdə min-bir əziyyətlə başa gələn, Novruz süfrəsinin əvəzolunmaz təamı- Səməni halvası haqqında danışdı. Bir həftə ərzində cücərdilmiş səməni dən hazırlanan bu yemək mis qazanda, həzin ocaq alovunda, 6-7 saat dayanmadan qarışdırılaraq hazırlanır. Halva hazır olandan sonra ailə üzvləri qazanın ətrafına toplaşıb niyyət edib yeməyin içinə bir ədəd qənd atırlar. Ardından qapağın üzərinə daraq və ayna qoyulur. Rəvayətə görə Nuh peyğəmbər halva hazırlanan ocaqlara gəlib bişən nemətdən tamsınar və saçına daraq çəkib gedər..

Novruz adət-ənənələrinin zənginliyi ilə digər bayramlardan çox fərqlənir. Yumurta toqquşdurmaq, torba atmaq, xoruz döyüşdürmək, səməni cücərtmək kimi maraqlı adətləri xalqımız illərdir qoruyub saxlayır. Bayrama bir neçə həftə qalmış insanlar ev-eşiklərini təmizləyər, bayram üçün hazırlıq görərlər. Bayram günündə evlərdə süfrə açılar və süfrəyə növbə-növ şirniyyatlar, çərəzlər və bir çox bayram nemətləri düzülər. Yeməklər arasında bayram aşı mütləq olmalıdır. Aş süfrəyə gətirilərkən ailə üzvlərinin sayına görə süfrəyə şam yandırıb qoyulur. Bayram ərəfəsində yeni gəlin köçmüş qızlara bayram xonçası aparılır. Hər xonçada isə adətə uyğun olaraq yeddiləvin olmalıdır. Bununla yanaşı, el arasında bir neçə ayinlər də var ki, məhz Novruz bayramı ərəfəsində həyata keçirilir. Həyətdə bar verməyən ağacın dibinə xına bastırılır və ağacın gövdəsinə bayram aşının yağı çəkilir. Bayram tonqalının külü yığılaraq bala verməyən heyvanların üzərinə səpilir. İnanılır ki, bu ayinlə ağaclar bar, qısır heyvanlar isə bala verəcək.

Bu gün xalqımız milli varlığımızın təqvimdəki təcəssümü sayılan Novruz adət-ənənələrini minillərdir qoruyaraq əsirlərdən-əsirlərə, nəsillərdən-nəsillərə ötürüb. Novruz bayramımız zəngin adət-ənənələri ilə yurdumuza bolluq və bərəkət gətirməsini arzu edirik.Novruz bayramımız mübarək olsun!

Məcid Əkbərov
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

XALQIMIZ VAHİD İDEYA, TORPAQLARIMIZIN AZAD EDİLMƏSİ AMALI UĞRUNDA BİRLƏŞDİ VƏ QƏLƏBƏ ÇALDI, ŞƏHİDLƏR VERDİ!

MƏN CƏNNƏTDƏ OLACAM...

Azan oldun, dinmədin.
Bayraq oldun, enmədin.
Şəhid oldun, ölmədin.

Şəhid Ramazanov Rasim İsmayıl oğlundan söz açacağıq bu dəfə. 1998-ci ildə Babək şəhərində anadan olan, vətənpərvər bir ailədə dünyaya göz açan Rasimdən.

2004-cü ildə Babək şəhər tam orta məktəbinə daxil olan Rasimin müəllimləri deyir ki, o, birinci sinifdə əlifba bayramında əsgər forması geyinib əlində bayraq Vətənə həsr edilən şüarlar səsləndirirdi. Rasimin ən böyük arzularından biri Vətən torpaqlarının azad olunması idi. Elə bu arzu ilə yaşayan Rasim 2015-ci ildə Babək şəhər tam orta məktəbini bitirdikdən sonra 2016-cı ildə hərbi xidmətə çağırılır, nümunəvi əsgər kimi xidmət edir.

Hərbi xidmətdən sonra Rasim N saylı hərbi hissədə sürücü olaraq xidmətini davam etdirir. Onun xəyalı daim Qarabağda idi. Rasimin bir arzusu var idi. İşğal altında olan torpaqlarımız azad olunsun. Şəhidin anası Tərlan xanım deyir ki, bir neçə il bundan əvvəl ermənilər Füzuli rayonunda balaca Zəhra və nənəsini qətlə yetirdilər. Bu hadisə hamı kimi Rasimə də çox pis təsir etmişdi. Erməni qaniçənlərinin körpə uşağı və nənəsini qanına qəltan etməsi onda nifrətlə yanaşı qisas hissini də alovlandırmışdı. Düşməndən qisas almaq üçün həmişə fürsət gözləyirdi.

44 günlük müharibə başladığı zaman isə Rasim könüllü olaraq hərbi xidmətə yazılır. Bu xəbəri ailəsindən gizlədir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən ona xəbər verirlər ki, Rasimi hərbi xidmətə aparmayacaqlar. Bu xəbəri eşidəndə çox pis olur və yenidən onu döyüşə aparmaları üçün müraciət edir. Bu dəfə arzusuna çatır, Füzuli istiqamətində gedən döyüşlərə qatılır. Rasim döyüşə getdiyini bu dəfə də ailəsindən gizlədir. Hətta yaxınları onun döyüşdə olduğunu bilmirlər. Dostlarına bərk-bərk tapşırır ki, anasına bu barədə heç nə deməsinlər. Ancaq bir neçə gün sonra Tərlan ana və İsmayıl ata oğullarının döyüşdə olduğunu öyrənirlər. Rasim telefonla zəng edib onlara hər şeyin yaxşı olduğunu deyir. Qəribə tərzdə inamla valideynlərinə təsəlli verəndən sonra soyuqqanlılıqla: "Şəhid olsam, başınızı dik tutun"- deyir. Sanki şəhid olacağını öncədən hiss etmişdi.

Rasimin dostları onun heç nədən qorxmadığını, usaqlıqdan idmanla məşğul olduğunu və fiziki olaraq güclü olduğunu deyirlər. Həmişə zəiflərin və gücsüzlərin yanında olan Rasim ədalətli, qayğıkeş bir gənc olub. Dostluqda sədaqətli olan bu gənc ailəsindən başqa yaxın dostları ilə də tez-tez danışırdı. Hətta son dəfə zəng edəndə dostlarına "Qurduğumuz xəyallarımızı yaşamadan ölməyəcəyəm" deyir.

Rasimin ailəsinə son zəngi oktyabrın 18-də olub. Danışdığı zaman ailəsinə hər şeyin yaxşı olduğunu deyir, onlara narahat olmamağı tapşırır və telefonu söndürür. Həmin gün ailəsinə məktub da yazır: "Canım ailəm, anam, yol gedirəm. Tapşırığa çıxıram, nə olacaq bilmirəm. Amma qəlbimə, ürəyimə damıb ki, getdiyim yoldan qayıtmayacam. Amma əgər nəsə olsa, ağlamayın, canım atam, onu bilin ki, siz qəhrəman valideynsiniz. Başınızı dik tutun. Mən cənnətdə olacam. Anam, bilirəm, çətindi, amma onu da düşünün ki, Vətən sağ olsun, Sən böyütdün, boya-başa çatdırdın, amma Vətən üçün getməliydim, sağ olun..." Bu cümlələr ondan ailəsinə qalan son sətirlər olur. Rasim Ramazanov 2020-ci il oktyabrın 19-u Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,
Nə də ulduzlar kimi parlayıb sönməməkdir.
Bunun üçün ölümə bir atılış gərəkdir,
Atıldıqdan sonrasa bir daha dönməməkdir!

Rasim də ölümün üzərinə qəhrəmanlıqla atıldı. Torpaq uğrunda atdığı bu addımla isə öz adını əbədi qəhrəmanlıq salnaməsinə yazdırdı. Şəhid Ramazanov Rasim ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

P.S. Hərdən düşünürəm ki, əgər müasir texnologiya, telefonlar olmasaydı 44 günlük müharibədən sonra gör nə qədər şəhidimizin evlərinə yazdığı əsgər məktubları və bu məktublarda onların duyğuları, düşüncələri, ürək sözləri ən maraqlı ədəbi əsərlər kimi yadigar qala bilərdi... Amma onu da bilirəm ki, onların yazacağı sözlər elə göstərdikləri qəhrəmanlığın, bir də bu cənnət Vətənin tərənnümü olacaqdı!

Bülbül Quliyeva
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

ŞƏHİDLİK MƏQAMINI ŞƏRƏF BİLƏN QƏHRƏMAN

44 günlük zəfər yürüşündən sonra 27 il düşmən tapdağında olan torpaqlarımız bizə qaytarıldı. Sanki bir qanadı qırılmış xəritəmiz igid oğullarımızın köməyi ilə, qanı ilə birləşdi, yenidən bərpa olundu. Haqq savaşında minlərlə igidimiz ömürlərinin ən gözəl çağını bu cənnətməkan torpağa qurban verdi. Torpağı Vətən edən şəhid qanı onu müqəddəsləşdirdi, gələcək nəsillər üçün daha da doğmalaşdırdı. Ölümləri ilə ölümsüzlüyə ucaldı onlar.

İkinci Qarabağ müharibəsində yeni tarix yazanlar sırasında Naxçıvan igidlərinin də payı oldu. Bu Vətən müharibəsində Naxçıvan torpağının ölümsüzlüyə ucalan şəhidlərindən biri də Güloğlan Nurəddin oğlu Qədimovdur. Özündən başqa bir bacısı və bir qardaşı olan Güloğlan 1997-ci il iyulun 17-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub. Səmimiyyəti, mehribanlığı, istiqanlılığı ilə seçilən sadə və zəhmətkeş ailənin övladı məhz bu xoş xasiyyətinə görə hamı tərəfindən sevilib.

Güloğlan 2003-cü il Qıvraq qəsəbəsində yerləşən 2 nömrəli məktəbdə ilk təhsilini alıb. Qəsəbədəki hərbi hissənin lap yaxınlığında yerləşir bu məktəb. Hər gün dərsə gedərkən hərbi təlim keçən, nizamla bir sırada addımlayan əsgərləri müşahidə etmək nə qədər xoş idi bir məktəbli üçün. Hətta bəzən bu mənzərəni seyr etdiyi üçün az qala dərsə gecikirdi. Amma əsgərlərin nizam-intizamı ona da təsir edir, hər dəfə dərsinə vaxtında çatmağa çalışırdı. Sinifə isə sanki şagird kimi deyil, əsgər kimi daxil olurdu. Məktəb partasında oturanda xəyallarını qurub dərslərini hazırlayırdı. Hədəfi gələcəkdə peşəkar hərbçi olmaq idi. Çünki müəllimləri Azərbaycan torpağının 20 faizinin işğal altında olduğunu az qala bütün dərslərdə deyir, şagirdləri vətənpərvər ruhda yetişdirir və Qarabağ torpağının gec-tez Azərbaycana qayıdacağına inam aşılayırdılar.

Elə müəllimlərinin mübariz ruhlu tərbiyəsi sayəsində Güloğlan dərslərini daha yaxşı oxumağa can atırdı. Sinif jurnalında qiymətləri yalnız əla olan qəhrəmanımız artıq Qarabağ arzusuna qovuşmaq hissi ilə yaşayırdı. 2011-ci ildə sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə verən Güloğlan imtahanlardan uğurla keçdi. Burada oxuduğu 3 il müddətində nizam-intizamına görə də müəllimlərin hörmətini qazandı və çalışqanlığı ilə seçildi.

2014-cü ildə Hərbi Liseydəki təhsili başa vurdu, Güloğlan. Hədəfi peşəkar zabit olmaq idi. Ona görə də Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsilini davam etdirdi. Burada oxuduğu 4 il ərzində özünü nümunəvi kursant, gələcəyin əsl peşəkar zabiti kimi göstərdi.

2018-ci ildə təhsilini başa vurub hərbi hissələrdən birində leytenant rütbəsi ilə xidmətə başladı.

Güloğlan arzusuna çatmışdı. İndi onun çiynində daşıdığı ulduzların işığı işğal altında olan Qarabağ torpağında şölə saçmalı idi. Gənc leytenant ilk gündən öz səriştəsi və bacarığı ilə bir zabit kimi fərqləndi. Yüksək komandanlıq onu biliklərini daha da təkmilləşdirmək üçün Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə yolladı. Bir aylıq motoatıcı bölük komandiri kursunu uğurla bitirdi.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsində ilk günlərdən Füzuli istiqamətində gedən döyüşlərə qatılan Güloğlan Qarabağın azadlığı uğrunda Ali Baş Komandanın verdiyi bu əmrin çoxdan təşnəsi idi. Elə ona görə də döyüşlərdə qəhrəmanlıqla iştirak edir, müharibənin ilk günlərində döyüş yoldaşları ilə düşmənin möhkəmləndirilmiş bir neçə postunu ələ keçirir. Qarşıda isə Şuşa onları gözləyirdi. Döyüş, savaş, qələbə arzusu ilə alışıb-yanırdı. Güloğlan döyüşlərin ara verdiyi bir vaxtda ailəsinə zəng vurur. Həmin an şəhid olacağı ürəyinə damır. Amma heç nəyi hiss etdirməmək üçün ailəsi ilə soyuqqanlılıqla danışır. Qardaşına "Hər şeyə hazırlıqlı olun",- deyərək ailəsini ona əmanət edir. Telefonda səsindəki həyəcandan yaxınlarının narahat olacağını düşünür və bibisi qızına mesaj yazaraq sanki ürəyini boşaldır: "Sizə şad xəbərim var.. MƏN ƏN UCA ZİRVƏDƏ OLACAĞAM!" Bibisi qızı elə başa düşür ki, onun xidməti vəzifəsini və rütbəsini yüksəldirlər. Bununla bağlı olaraq onu təbrik edir. Güloğlan isə: "Ondan da uca zirvədə- Şəhidlik zirvəsində olacağam",-deyə cavab yazır və 2020-ci il oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik məqamına yüksəlir...

Güloğlan pandemiya ilə əlaqədar olaraq bir il idi ki, Qıvraqdakı doğma evlərinə gələ bilmirdi. Evdən çıxanda yaxınlarına 1il sonra gələcəyəm deyə söz verən igidimiz sözünün üstündə durdu... Bir ildən sonra evinə döndü və bu dönüş əbədi bir qayıdış, sonu olmayan gedişin nişanəsi oldu. Çox böyük bir izdihamın müşayiəti ilə o, ən müqəddəs bir məqam –şəhidlik məqamıyla, Azərbaycan bayrağına bükülmüş nəşi ilə qalib ordunun əsgəri kimi evinə, doğulduğu obaya döndü... Qəhrəmanımızın nəşi Qarabağ döyüşlərinin qələbə ilə başa çatmasından 35 gün sonra- dekabrın 14-də doğulduğu Naxçıvana gətirilərək Kəngərli rayon Qıvraq qəsəbəsində torpağa tapşırıldı.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. II Qarabağ müharibəsində iştirak edən minlərlə qəhrəman döyüşçü müxtəlif adda medallara layiq görüldü. Şəhidimiz Güloğlan Qədimov ölümündən sonra Ali Baş Komandanın sərəncamı ilə "Vətən uğrunda" medalına layiq görüldü. Bu medal onun adını əbədiləşdirdiyi kimi, ailəsini də qürurlandırdı.

Güloğlan ailəli deyildi. Amma onu gözləyən bir sevgilisi vardı. Hətta söz vermişdi ki, qayıdıb qızın barmağına nişan üzüyü taxacaq... Vətən onun üçün hər şeydən, hamıdan öncə gəldi. Canından və hər kəsdən daha çox sevdiyi Vətən uğrunda döyüşdü. Şəhidliyi şərəf bildi O.

Biz gənclər Güloğlan Qədimov kimi qəhrəmanlarımızla həmişə fəxr edəcəyik. Düşmən tapdağı altında qalan torpaqlarımızı bizə qaytararkən Güloğlan da ən böyük qürurumuz, bu Vətənin əbədi övladı oldu! Bacısının ona həsr etdiyi şeirdə dediyi kimi:

Qoy anan fəxr etsin sənin adınla,
Atan qürurlansın şərəf, şanınla.
Körpələr çağrılsın sənin adınla,
Şöhrət zirvəsinə şəhid qanıyla.
Əbədi həkk olan igid qardaşım!

Aysel İsazadə
Jurnalistika ixtisası üzrə II kurs tələbəsi

MƏKTƏB İLLƏRİNDƏN TANIDIĞIM CƏSUR QƏHRƏMAN

Mən Bakı şəhəri 249 nömrəli məktəbdə təhsil alarkən cəsarətli xarakterə malik olan bir şagirdi tanımışdım. Naxçıvana gələndən sonra onunla əlaqəm tam kəsildi. Sonra onun haqda məlumatı isə bu il KİV-də, sosial şəbəkələrdə öyrəndim. Çox təəssüf ki, tanıdığım o balaca qəhrəman artıq ən yüksək məqamına-şəhidlik zirvəsinə ucalmışdı. Həmin an nələr yaşadığımı isə sizlərə sözlərlə çatdırmaqda acizəm.....

Şəhidin əmisi qızı mənim sinif yoldaşım olub. Bu səbəbdən ətraflı məlumat almaq üçün onunla əlaqə saxladım. Sinif yoldaşımın dediklərini dinlədikcə həm kövrəlirdim, həm də qürur hissi keçirirdim. Sən demə Kəmaləddin ta uşaq vaxtlarından hər kəsə deyirmiş ki, "Hamı məni tanıyacaq, mənimlə fəxr edəcək". Həqiqətən də Kəmaləddin əsl igidlik göstərib adını tariximizin ən şərəfli səhifəsinə yazdırmışdı. Gəlin, əsl igidlik göstərərək ən yüksək ada layiq görülən qəhrəmanımızı yaxından tanıyaq.

Məmmədzadə Kəmaləddin Vüqar oğlu 1999-cu ildə sentyabrın 14-ü Bakının Xətai rayonunda anadan olmuşdur. 249 saylı tam orta məktəbin məzunu olan Kəmaləddin on bir illik təhsilini bitirdikdən sonra Azərbaycan Memarlıq və İnşaat Universiteti "Nəqliyyat fakültəsinin "Geodeziya ve xəritəçilik" ixtisasına daxil olmuşdur. Ali təhsilini davandıraraq 2020-ci il 8 yanvar tarixində hərbi xidmətə yollanan Kəmaləddin 10 ay Vətənə xidmət etdikdən sonra 27 sentyabrdan 9 noyabra kimi bütün döyüşlərdə ön cəbhədə qəhrəmancasına iştirak etmişdir. Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Laçın, Xocavəndin kəndləri, Şuşa şəhəri, bütün qəsəbə və yüksəkliklərin işğaldan azad edilməsində yaxından iştirak etmiş, düşmənin çox sayda zirehli texnikasını məhv etmiş, düşmənə ağır zərbələr endirmişdir. Ağır yaralanmış əsgər yoldaşının sağ qalması üçün onu döyüşdən xilas etmişdir. Noyabrın 8-i Şuşa şəhərinin ermənilər tərəfindən mühasirəyə alınması nəticəsində boynundan snayperlə vurularaq qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır.

İgidimiz şəhadətindən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü", "İgidliyə görə" medalları ilə təltif edilmişdir. Bir çox xəbər saytlarında, sosial media platformalarında onun igidliyi haqqında bəhs edilmiş və gün keçdikcə daha çox insan qəhrəmanımız haqda məlumat almışdır. Bakı şəhəri Xətai rayonunda şəhidin adına abidə ucaldılmışdır. Bu gün mən də fəxr edirəm ki, Şəhid Kəmaləddin Məmmədzadəylə eyni məktəbdə təhsil almışam, onu yaxından tanımışam. Onun görünüşü, davranışı, hər kəslə mehriban ünsiyyəti heç vaxt yaddaşımdan silinməz. Sən demə o sakit davranışın altında vətənpərvər, qorxmaz, cəsur, cəngavər bir igid yatırmış. Mən

təkcə şəhid Kəmaləddin haqda yox, İkinci Qarabağ Müharibəsində şəhid olmuş bütün qəhrəman igidlərimiz haqda yazmaq istəyirəm. Çünki belə cəsarətli igidlərimiz sayəsində 30 il həsrətini çəkdiyimiz torpaqlarımıza qovuşduq. Mənfur ermənləri doğma torpaqlarımızdan qova bildik. Artıq Qarabağımız da öz doğmalarına qovuşacaq. Dövlətimizin apardığı məqsədyönlü siyasət nəticəsində əbədi, əzəli yurd yerində həyat canlanacaq, müasir infrastruktur qurulacaq, Qarabağda həyat öz axarına düşəcək. Qarabağımız öz kədərli günlərini unuda bilməsə də, sevincli günlərinin təntənəsini yaşayacaq. Bu da Kəmaləddin və onun kimi şəhid olan bütün igidlərimizin sayəsində olmuşdur. Bizim də ən müqəddəs vəzifəmiz belə qəhrəman, cəsarətli igidlərimizi tanımaq və özümüzdən sonrakı nəsillərə tanıtmaqdır. Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə isə şəfa diləyirəm. Ruhlarınız şad olsun, igid vətən oğulları!

Humay Muradova
Jurnalistika ixtisası üzrə I kurs tələbəsi

AZƏRBAYCAN XALQININ BAŞINA GƏTİRİLƏN ƏN DƏHŞƏTLİ FACİƏLƏRDƏN BİRİ DƏ 100 İL BUNDAN ƏVVƏL – 1918-Cİ İLİN MART-APREL AYLARINDA ... DAŞNAQ-BOLŞEVİK SİLAHLI DƏSTƏLƏRİ TƏRƏFİNDƏN XÜSUSİ QƏDDARLIQLA TÖRƏDİLMİŞ KÜTLƏVİ QIRĞINLARDIR

TARİXİN QANLI VƏ KƏDƏRLİ SƏHİFƏSİ

Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII əsrin əvvəllərindən başlayır. Həmin dövrdə torpaqlarını Cənubi Qafqaza doğru genişləndirməkdə olan çar Rusiyası ermənilərdən vasitə kimi istifadə edir, Qafqazda erməni milli dövləti yaradacağı vədi ilə onları şirnikləndirirdi. 1724-cü il noyabrın 10-da I Pyotrun adından verilmiş fərmanda ələ keçirilmiş torpaqlarda - Bakıda və başqa yerlərdə ermənilərin məskunlaşdırılması üçün hər cür şərait yaradılması nəzərdə tutulmuşdur. Ermənilər bu fürsətdən istifadə edərək, öz məkrli siyasətlərini həyata keçirmək, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədi ilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər. Ermənilərin fasilələrlə, lakin düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuşdur. Azərbaycanın ərazisində məskunlaşdırılan ermənilər sayca azlıq təşkil etsələr də, öz havadarlarının himayəsi altında inzibatı bölgü yaradılmasına nail olmuşdular. Bununla da azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyulmuşdur. Uydurma "Böyük Ermənistan" ideyasına həqiqət donu geyindirmək məqsədi ilə erməni tarixi saxtalaşdırılır, Azərbaycanın tarixi isə təhrif olunurdu. Bu süni xülyalardan ruhlanan erməni təcavüzkarları XX əsrdə azərbaycanlılara qarşı daha amansız qanlı aksiyalar həyata keçirirdilər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirildi.

1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başlamışdılar. Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84 kənd, Nor-Bəyazid qəzasında 7 kənd, ümumiyyətlə, 197 kənd dağıdılmış, sakinlərin bir qismi qətlə yetirilmiş, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşmüş, əmlakları talan olunmuş, evləri isə yerlə yeksan edilmişdir.

1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında maskalanaraq, daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdır.

1918-ci il 9 martda Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyevin dəfn mərasimində iştirak etmək üçün, general Talışinskinin başçılıq etdiyi Azərbaycan alayı Bakıya gəlmişdir. (Məhəmməd Tağıyev Lənkəran şəhərində baş verən ixtilafda rus-erməni silahlı dəstələri tərəfindən qətlə yetirlmişdir və onun dəfn mərasimi 27 mart gününə təyin edilmişdir). General Talışinski Bakıya gəlmədən bir neçə gün əvvəl, Lenin Bakı Sovetinin başçısı Stepan Şaumyana aşağıdakı məzmunda teleqram yollamışdır:

Hörmətli yoldaş Şaumyan:

"Məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir və indiyədək biz yalnızca imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu konfliktləri işlətməyi öyrənin, hal-hazırda diplomatiya öyrənmək vacibdir. Bütün dostalara xoş arzular və salamlar."

Leninin Şaumyana etdiyi bu müraciətə baxmayaraq, Bakıya daxil olarkən general Talışinski və Azərbaycan alayının üzvləri Bakı Soveti tərəfindən həbs altına alınmışlar.

Qeyd etmək lazımdır ki, Bakıda qırğın törədilməsinə hələ 1918-ci ilin yanvarında cəhd edilmişdi. Müsəlman korpusunun komandiri general Talışinskinin həbsi şəhərin türk-müsəlman əhalisində ciddi qəzəb doğurmuşdu. Bundan istifadə edən ermənilər isə silahlı toqquşmaya cəhd göstərdilər. Lakin Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov və başqalarının səyi nəticəsində onların yanvar ayında qırğın törətmək planı baş tutmadı. Lakin onlar bu məkrli niyyətlərini mart ayında həyata keçirə bildilər. Stepan Şaumyan Bakı Sovetinin iclasında bildirmişdi ki, bu təşkilat Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir. Toqquşmanın başlanması üçün bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi oldu. Ermənilər şayiə yaydılar ki, bu zabitlər Muğandakı malakan kəndlərini dağıtmaq barədə göstəriş alıblar. Bunu bəhanə gətirən Şaumyan gəmidəki zabitlərin tərksilah olunması üçün göstəriş verdi. Buna etiraz edən yerli əhali isə küçələrə çıxıb zabitlərin tərksilah olunmasına etirazını bildirdi. Beləliklə, dinc əhaliyə qarşı soyqırımı başladı. Yaranmış vəziyyətdən istifadə edən ermənilər öz istədiklərini bolşevizm bayrağı altında nail olmağa cəhd göstərərək, 1918-ci ilin martında cinayətkar planı həyata keçirməyə başlayır. Təxminən 7 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilir. Bundan başqa "Qırmızı Qvardiya" adı altında yaradılan 10-12 minlik ordunun da 70%-i ermənilərdən ibarət idi.

İlk həyacanlı xəbərlər mart ayının əvvəllərində Şamaxı şəhərindən gəlməyə başlamışdır. Yaxşı silahlanmış ermənilər şəhərdə və kəndlərdə əsl qətliamlar düzəldir, insanlığa yaraşmayan vəhşiliklər törədirdilər, Şahidlərin yazdıqlarına görə ermənilər evlərə soxulur, talançılıq edir, uşağa, qocaya, qadına aman vermir, hamını güllədən keçirirdilər. Həmin günlərdə təxminən 7 min azərbaycanlının həyatına son qoyulmuşdur. Martın 30-da isə Bakıda ilk atəş səsləri eşidildi. Təpədən dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara aman vermirdilər. Qadınlar daha ağır şəkildə öldürülürdü. Arxiv materiallarına əsasən qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyiti tapılmışdı. Nəriman Nərimanov Erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında belə bəhs edir: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaqlardan canlarını qurtara bilmədilər". Hətta İçəri şəhərə hücum zamanı A.Mikoyanın başçılığı ilə yaradılmış "İnqilabı müdafiə" adı ilə çıxış edən bu quldur dəstələri Bakının ən gözəl memarlıq abidələrindən olan "İsmailiyyəni" yandırmış, "Açıq söz", "Kaspi", "Bakı", qəzetləri redaksiyalarını dağıtmış, "Təzə pir" məscidinin minarələrini isə top atəşi ilə dəlik-deşik etmişdilər. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdır: «Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər».

Quba qəzasında da hadisələr eyni istiqamətdə cərəyan edirdi. Aprel ayında Quba qəzasına göndərilən daşnak dəstələrinin komandiri Hamazasp bildirmişdi: "Mən erməni xalqının qəhrəmanı və onun müdafiəçisiyəm... Mənə Xəzər dənizindən Şahdağadək olan ərazidə bütün müsəlmanları məhv etmək əmri verilmişdir". Onun başçılıq etdiyi daşnak dəstələri Quba qəzasında 122 kəndi yandırdılar. Yerli sakinlər isə min bir əzablarla qətlə yetirildilər. Ermənilər adamların gözlərini çıxararaq "gözmuncuğu" düzəldirdilər. Erməni millətçiləri tərəfindən törədilən bu soyqırım zamanı 30 minə yaxın adam öldürüldü. Daşnakların azərbaycanlılara qarşı soyqırımı qısa müddətdə Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan, Qarsda da törədildi.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir. 1918-ci iln aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir. Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılımış, əhalisi məhv edilmişdir.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill «İnsanlar belə imişlər» adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilislərin və Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

1918-ci ilin mart ayında 10 minlik erməni ordusu Naxçıvanda da kütləvi qırğınlar törətdilər. S.Şaumyanın vasitəçiliyi ilə sovet Rusiyasının himayə və yardımına nail olmuş ermənilər, xususilə də Andranikin silahlı quldur dəstəsi 1918-ci ilin iyun-avqust aylarında Naxçıvan mahalının dinc türk-müsəlman əhalisinə heç bir çərçivəyə sığmayan vəhşiliklə divan tutmuşdur. İşğalçılara ciddi müqavimət göstərmiş Yaycı kəndinin əhalisinə divan tutulmuş, kənd viran qoyulmuşdur. Culfa rayonu ərazisində Araz çayı üzərindəki körpü yandırılmış və Ordubadda 2000 türk-müsəlman əhali qətlə yetirilmişdir. Qadınlara, uşaqlara və qocalara rəhm edilməmiş, əli yalın insanların kürəyinə qaynar samovar bağlanmış, hamilə qadınların qarınları yırtılmış və başqa insanlığa sığmayan işgəncələr verilmişdir. Bu vəhşətdən qaçmağa çalışan 300-ə qədər dinc sakin Araz çayını keçərkən boğulmuşdur. Yaycı kəndində ermənilər tarixdə bənzəri olmayan vəhşiliklər törətdilər. Digər bir erməni silahlı dəstəsi 1918-ci ildə "Yapon" ləqəbli quldurun başçılığı ilə Naxçıvan şəhərindən 40 km şimalda yerləşən Almalı yaşayış məntəqəsinin əhalisini qıraraq, öz tarixi yurdlarından didərgin salmışdır. Təxminən 200 kişi öldürülmüş, xeyli gənc qadın əsir aparılmışdır. Osmanlı ordu hissələrinin Kazım Qarabəkir paşanın komandanlığı ilə Naxçıvan bölgəsinə gəlişi mahalın əhalisini daha irimiqyaslı qırğınlardan xilas etmişdir. 1919-cu ilin əvvəlində erməni polkovniki Doluxanovun başçılıq etdiyi silahlı qüvvələr Şərur-Sədərək ərazilərində onları duz-çörəklə qarşılayan dinc əhaliyə qarşı zorakılıqlar törətmişdir. Müsəlmanlar yaşayan 8 kənd mühasirəyə alınmış, Dəmirçi kəndi dağıdılaraq qarət olunmuş, 60 nəfər həbs edilərək İrəvana göndərilmiş, 200 nəfər Arazı keçmək istərkən çayda boğulmuşdur. Yerli əhalinin ciddi müqaviməti ilə qarşılaşan erməni hərbi hissəsi geri çəkilməyə məcbur olmuşdur. Naxçıvan mahalının türk-müsəlman əhalisi Şimali Azərbaycan Rusiya tərəfindən yenidən işğal olunduqdan sonra, sovet hakimiyyətinin ilk vaxtlarında da ermənilərin törətdikləri soyqırımlarına məruz qalmışdır. Belə dəhşətli qırğınlardan biri 1920-ci ilin yay aylarında həyata keçirilmişdir. Erməni silahlı Qüvvələrinin Zəngibasar-Vedibasar-Şahtaxtı-Şərur istiqamətindəki qanlı yürüşü zamanı həmin ərazilərin dinc əhalisinə qarşı törədilmiş vəhşilik və zorakılıqlara dair rəsmi araşdırma-təhqiqatlar aşağıdakı dəhşətli faciələri üzə çıxarmışdır: Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 18 qız və gənc qadın əsir aparılmış, 400-dən çox uşaq, 150 qoca kişi və qadın öldürülmüş, 100 xəstə yandırılmış, 816 qaçqın Arazda boğulmuş, 160 min nəfər isə Cənubi Azərbaycana keçərək orada evsiz qalmışdır; Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşi ilə öldürülmüş, 6 qadın əsir aparılmış, 300-dən artıq uşaq və qoca qətlə yetirilmişdir. Dərələyəzdə 74, Şərur və Şahtaxtıda isə 76 kənd yandırılmışdır. Şərurda 810 nəfər xəstə yatağındaca qətlə yetirilmiş, 144 qadın əsir götürülmüş, 72 nəfər top atəşilə məhv edilmiş, 150 qoca və qadın öldürülmüşdür. Şahtaxtıda isə 3 qadın əsir aparılmış, 35 uşaq, 14 qoca kişi, 8 qadın və 9 xəstə qətlə yetirilmişdir. Bütövlükdə, 1918-1921-ci illərdə erməni quldur dəstələri tərəfindən Naxçıvan bölgəsində 73727 nəfər türk-müsəlman əhalisi vəhşicəsinə qətlə yetirilmişdir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə ulu öndər Heydər Əliyevin 27 mart 1998-ci il «31 mart Azərbaycanlıların Soyqırımı haqqında» fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırım günü elan edilmişdir. 1998-ci ildən bəri respublikamızda 31 mart hər il Azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edilir.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 100 ildən artıq ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənmiş və Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini bütün çılpaqlığı ilə üzə çıxarmışdır.

Bu faciənin dünyada soyqırım kimi tanınmasında və haqq işimizin dünya ictimaiyyətinə çatdırılmasında bütün Azərbaycan Respublikası ictimai-siyasi birliklər, ictimai təşkilatlar, tarixçilər, siyasi xadimlərlə yanaşı hər birimiz bu yolda öz mübarizəmizi yorulmadan davam etdirməliyik.

Hər kəsə məlum olduğu kimi 2020-ci ilin sonlarında Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və iradəsi nəticəsində Azərbaycan dövlətinin hərbi-siyasi tarixinin şanlı səhifəsi yazıldı. Böyük qürur hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qətiyyətli iradəsiylə başlanmış İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin inamlı qələbəsi ilə başa çatdı. Azərbaycan xalqı son 2 əsrlik tarixində ərazi bütövlüyünü bərpa edərək uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdi. Bu qələbə Azərbaycan xalqının özünə inamını geri qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. 30 ilə yaxın müddətdə səbr göstərən xalqımız nəhayət qələbəyə çatdı. Noyabrın 10-u ölkəmiz üçün qızıl hərflərlə yazılmış tarixi bir gün oldu.

Tarixi qələbə qazanan ordumuz erməni faciəsi nəticəsində həlak olmuş günahsız qurbanlarının qisasını aldı. Həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

Arzu Abdullayev
Yeni Azərbaycan Partiyası
Universitet ərazi ilk təşkilatının sədri,
"Beynəlxalq münasibətlər"
kafedrasının baş müəllimi

Əgər ki, yıxılsam çinar göstərin,
Mən ona söykənib arana baxım.
Gözlərim görməsə Göy gölü verin,
Mən onun gözüylə cahana baxım.
Hər yerdə, həmişə
Sənsən gümanım.
Canım-gözüm mənim
Azərbaycanım!

AZƏRBAYCANIM-MƏNİM QİBLƏGAHIM, MƏBƏDİM, SON PƏNAHIM

Nəbi Xəzrinin bu şeiri Vətən sevgisinin ən poetik və mükəmməl ifadəsidir. Azərbaycanımızın gözəlliyinə vəsf edilən şeirlər hər zaman olub və olacaqdır, çünki "Vətən bizim həm uman yerimiz, həm də güman yerimizdir".

Azərbaycanım, mənim qibləgahım, məbədim, son pənahımdır. Böyüyüb boya-başa çatdığım bu doğma torpaq mənim ülvi, təmiz, və tükənməz məhəbbətimdir. Azərbaycan mənim doğma vətənimdir və mən bu diyarı canım qədər sevirəm. Mən bu diyarın qızıyam və lazım gələrsə, canımı da, qanımı da vətənimə fəda etməyə hazıram. Təki vətənim sağ olsun. Hər nə qədər də yerlər gəzsəm, bura mənim üçün hər zaman güman yerim olacaq. Təkcə gənclər deyil, hər birimiz Azərbaycanın gələcək varlığı naminə vətənpərvər olmalıyıq. Çünki borclu olduğumuz və canımızın bir parçası olan bu vətəni qorumaq bizim ən ümdə amalımızdır.

Mən müstəqil Azərbaycanın övladı olmaqdan qürur duyuram! Doğma vətəni inkişaf etdirmək və qorumaq həm də özümüzə xidmətdir. Bu nöqteyi nəzərdən, hər birimiz firavan həyatımızın və nüfuzlu Azərbaycanımızın əbədiyaşarlığına xidmət etmək üçün əlimizdən gələni etməli və bayraqdar rolunu oynamalıyıq!

Ana yurdum Azərbaycanla bağlı qəlb arzularım, duyğularım ümmansızdır. Doğma vətənimizin zəngin tarixi keçmişi və sahib olduğu gözəl nemətləri ilə qürur hissi keçirirəm. Xalqımızın dəyərləri ümumbəşəri dəyərlərdir, millətimizin varlığını qoruyub saxlayan dəyərlərdir. Vətən bizdən bu dəyərləri mənimsəməyi, daim zənginləşdirməyi, yaşatmağı və uca tutmağı tələb edir.

Bu milli dəyərlərimizin qorunub saxlanılmasında və xalqımızın ən çətin və məsuliyyətli anlarında ulu öndərimiz Heydər Əliyev Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıtmış, onu sevərək hifz etmiş, milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirmişdir. Böyük şəxsiyyətin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır.

Biz bütün varlığımızla doğma Vətənimizə bağlıyıq. Xalq şairi Bəxtiyar Vahabzadənin də dediyi kimi "Vətən bizik, biz də vətən". Doğma Azərbaycanımızın şöhrətini öz şöhrətimiz sanmalıyıq, və ən əsası "Vətən varsa, biz də varıq" deməyi bacarmalıyıq.

Mənim ata ocağım, elim, obam, məskənim, ailəm Azərbaycandır. Çünki mən bu ölkənin vətəndaşıyam, bu diyarda doğulub boya-başa çatmışam. Vətənin havası, suyu ilə böyümüşəm, o mənə təhsil verib, bu gün nail olduğum uğurların hamısı onun ünvanına yazılır. Sevincimi, kədərimi və bütün ülvi hisslərimi burada yaşayıram İnsanın güman yeri onun pənahıdır, onun arxa, dayaq hesab etdiyi yerdir. Mən də fəxarət hissi və könül xoşluğu ilə deyə bilərəm ki, Azərbaycan mənim pənah yerimdir.

Ümid və güman yerimiz olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməsi bizim əmin əllərdə olmağımızı bir daha sübut etdi.

Azərbaycan adlı məmləkət həm inkişaf, həm də toxunulmazlıq nöqteyi nəzərindən əbədi qalacaqdır. Sadəcə, bugün bu məmləkətə onu həqiqətən sevən vətəndaşlar lazımdır və hər bir azərbaycanlı azərbaycançılıq ideyasına xidmət etməyi özünə müqəddəs borc bilməlidir.

Doğma yurdum Azərbaycanımı heç bir ölkə əvəz edə bilməz. O mənim ürəyimdir, canımdır. Dünya cənnət olsa, Azərbaycanın bir ovuc torpağına dəyməz! Səməd Vurğunun Azərbaycan şeiri hər birimizin vətən haqqında olan qəlb sözlərimizi əks etdirir. Məhz buna görə də, fikirlərimi bu dəyərli sözlərlə sonlandırmaq istəyirəm.

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana.
Hansı səmtə, hansı yana
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən.

Sərcan Sadiqova
"İngilis dili və metodika" kafedrasının müəllimi

NƏRİMAN HƏSƏNZADƏ POEZİYASINDA SEVGİ ÇALARLARI

Azərbaycan poeziyasında ürəkləri ən çox oxşayan, ən çox toxunulan və dəyər verilən mövzu sevgidir. Dünyada elə bir şair olmaz ki, onun yaradıcılıq izlərində sevgi şeirlərinə rast gəlinməsin. Sevgi ən məhrəm duyğu, ən incə oyanış, ən zərif yaşantı, ən təhlükəsiz körpü, ən ülvü hissdir.

Müasir Azərbaycan poeziyasının ən görkəmli simalarından olan Nəriman Həsənzadə poeziyasında da sevgi mövzusu özünəməxsus çalarları ilə diqqəti cəlb edir. Onun hər hansı bir şeiri yaşanılan anların, çəkilən iztirabların və duyğuların inikasıdır. Təbii harmoniyası olmayan ifadə vasitələri və söz çalarları bu sevgi şeirlərinin ruhuna yaddır. Necə yad olmaya bilərdi axı, o ki, ömrünün uşaqlıq illərini dağ başında sübh tezdən günəş doğarkən üfüqün çöhrəsinin necə rəng aldığını, nəsim bahar küləklərinin dağ yamaclarında yaşıl yarpaqlı sarı güllər açmış incə çiçəkləri və göz oxşayan lalələri necə rəqs etdirdiyini və Nabat xalanın zəhmət qoxan halal və ətirli çörəyi ilə böyümüş, şairlik təbini şairlər diyarı olan bu el-obadan almış, Vaqifin, Vidadinin və Səməd Vurğunun təbinə yeni ruh, yeni nəfəs vermişdir. Nəriman Həsənzadə poeziyasının vurğunu xalq şairi Məmməd Araz, Bəxtiyar Vahabzadə və Nəbi Xəzri də şairin istedadını yüksək qiymətləndirmişlər.

Azərbaycanın unudulmaz şairi Səməd Vurğun yazırdı: "Məhəbbətin hakim olduğu ürəklər yağışdan sonar açılmış şəffaf və ləkəsiz bir yaz səmasını andırır ki, orada yalnız al-əlvan şəfəqlər, təravət və qüdsiyyət görünür. Məhəbbət insan qəlbini süzgəcdən keçirir, zərərli hisslərdən təmizləyir, yaşamağın mənasını gözəlləşdirir, insanı xeyirxah olmağa dəvət edir. Bir kişinin bir qadına olan sevgisindən başlayan məhəbbət ülvilik zirvəsinə qədər ucalır". Məhz Nəriman Həsənzadə yaradıcılığına bələd olan Səməd Vurğun 1952-ci ildə gənc şairi Yazıçılar İttifaqına daxil olması üçün yazılı zəmanət vermiş, əlini sıxaraq ədəbi yaradıcılıqda ona uğurlar arzu etmişdir.

Nəriman Həsənzadə yaradıcılığa çox gənc yaşlarında lirik şair kimi gəlmişdir. Onun ilk şeir kitabları da demək olar ki, lirikadan ibarətdir. Bu lirika təbiiliyi, səmimiliyi, dil üslubu baxımından məhz elə onun müəllifinə məxsus idi.

Mir Cəlal 60-cı illərin ortalarında deyirdi: "Nəriman olduqca həsasas bir şairdir. O bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və məna dolu həyatımızı görmək istəyir".

Şair hər zaman çox sadə baxış üslubu ilə fərqlənərək sadə səmimiyyətlə yazırdı:

Mənim kitabımı ucuz eləyin
tələbələr üçün, fəhlələr üçün,
hardasa, lap kasıb bir nəfər üçün,
maaşı aşağı olanlar üçün,
şəhərdə kirayə qalanlar üçün,
oxumaqdan ötrü alanlar üçün,
çörək qiymətinə, duz qiymətinə,
qoy sonra qalxsın o öz qiymətinə…

Nəriman Həsənzadənin səmimi yaradıcılığı aşağıdakı xüsusiyyətlərdən irəli gəlir:

-Əsərlərində mənsub olduğu xalqın hissi, duyğusu, inamı və etiqadı əks olunur;

-Qələmə aldığı mövzulara həssas yanaşması və yaxud daha həssas mövzulara müraciət edir;

-Hansı mövzuda yazırsa yazsın mövzunu hərtərəfli araşdırıb böyük bir ruh yüksəkliyi və inamla təqdim edir.

Nəriman Həsənzadənin sevgisində məhrəmlik, ehtiram, heç kimə hesab verməyə borclu olmayacaq bir əxlaqilik, mənəvi və ruhi cəsarət, etik normalılıq, adət-ənənə və vətən qədər müqəddəslik var.

Sənin nəfəsində hərarətində
Elə bil günəşin od nəfəsi var.
Həya var, ismət var hərəkətində,
Qədim bir millətin ənənəsi var.
Gözünə o nuru, o baxışı da,
nənələr veribdi hey zaman-zaman.
Gəlincik bəzəyən qız uşağı da
Ana ürəklidi əslinə baxsan.

Qoy yeri gəlmişkən deyim bir sözü,
Nə var yer üzündə anadan əziz?
Sənin yastığına baş qoymaq özü,
Cəmiyyət önündə borcdu şübhəsiz.

Halal süd əmmişik ana döşündən,
Yaşa, bu müqəddəs duyğular üçün.
Bəlkə də qadına borcludur Vətən
Onun böyütdüyü oğullar üçün.

Ailə məişət lirikası da şairin yaradıcılığında xüsusi yer tutur. Türk dünyası anlayışında məhəbbət ailə deməkdir. Ailə ilə yekunlaşmayan bir məhəbbətə heç bir əxlaqi don geyindirmək olmaz. Nəriman Həsənzadə də öz məhəbbət fəlsəfəsini türk eposunun yaradıcılarının məntiqi ilə tamamlayaraq həyatın vaxtsız qurbanı olmuş, həyat yoldaşı Sara xanım haqqında yazır:

Mən səni sevdim ki, yoldaş olasan
Həyatın ən ağır, dar yollarında.
Demədim axırda bir daş olasan
Qədim qəbristanda, yol kənarında

Mən səni sevdim ki, sevin, qaç oyna...
Yenə seçilməsin ətrin bahardan,
Demədim təzədən gizlənpaç oyna,
Axşam yuxuma gir, səhər qaç ordan.

Nəriman Həsənzadənin məhəbbət lirikası tərcümeyi-hal xarakterlidir ki, bu da bizə aşıq ədəbiyyatını xatırladır. Qurbani, Aşıq Abbas Tufarqanlı, Aşıq Qərib, Aşıq Ələsgər kimi böyük sənətkarların xələfləri çox keçmədən onların tərcümeyi-hal xarakterli şeirləri əsasında gözəl dastanlar yaratmışlar. Bu oxşarlıq kifayət edir ki, Nəriman Həsənzadə lirikasının mahiyyətcə, xalq (aşıq) yaradıcılığı ilə bağlı olduğu qəbul edilsin.

Belə gözəl, belə zərif, belə pak,
Səni harda bəsləyiblər, qız belə?
Hansı evə qədəmlərin dəyəcək,
O evdə də yeri belə, gəz belə.

Nəriman Həsənzadə sevgiyə təkcə şəxsi münasibətlər kimi baxmır, buna həm də cəmiyyət hadisəsi, mənəvi-əxlaqi sosial prinsiplər əsasında yanaşır. Şairin lirik qəhramanı sevgini ötəri bir hiss kimi deyil, işıq və gözəllik simvolu kimi qəbul edir.

Mənim köməyim ol mən dara düşsəm,
baxma uzaqlardan, gəl dindir məni.
Hardasa, nabələd yollara düşsəm,
özün qarşıma çıx, sevindir məni.
Bəzən hıçqırığım ucalır göyə,
insanam, mənim də ağrım-acım var.
Mənim, sən verdiyin bir təsəlliyə,
sən dediyin sözə ehtiyacım var.

Adam var, neyləyim vicdanı dardı,
Onun insafına qalsaydı əgər,
Mənim ürəyimi çoxdan qırardı,
adımı hər yerdən çıxartdırardı,
istəyinə çatsın təki birtəhər.

Sən eşit bunları, sıxılma fəqət,
Arabir sevincim qəm qarışıqdı.
Yüz təqib eləsin qoy məni zülmət,
Sən varsan dünyada, dünya işıqdı.

Bu şeirdə "MƏN"dən "SƏN"ə doğru görünən yolda sevinc də, qəm də var, amma şair "Sən varsan dünyada, dünya işıqdı" həqiqətini bizə çatdırır.

Nəriman Həsənzadənin şəxsi həyatı da onun sevgi şeirlərində xüsusi bir önəm kəsb edir. 80-ci illərin sonuna qədər yazdığı sevgi şeirlərində ayrılıq külәkləri əsmir, əsasən ötəri ayrılıqlardan və umu-küsülərdən söz açılır. Məhəbbətin insana bəxş etdiyi ilahi gözəllik, bu yolda kamilləşməyə, işığa, və həyatla səsləşməyə kökləndiyi halda qadın bu yolun sədaqət simvoluna çevrilir. Bu baxımdan Nəriman Həsənzadə Azərbaycan ədəbiyyatında vüsalın-hicranı, birliyin vəhdəti, aşiqin-eşq poeziyasını yaradan şairlərdən biridir. Fəqət Nəriman Həsənzadənin həyat yoldaşı Sara xanımı itirməsi onun sevgi lirikasında hicran küləklərinin əsməsinə və sevgi yarpaqlarının tökülməsinə səbəb olur. Bir zamanlar hər şeyinə çevrilən bu qadın indi heçliyə çevrilərək daşlaşaraq lal olur.

Mən bu daş saçlara sığal çəkmişəm,
Nə qədər öpmüşəm bu daş üzündən.
Bu daş dodağından, bu daş gözündən,
Arı pətəyindən mən bal çəkmişəm.

Yer üzü vətəndi, qəbir də vətən
Bu gözün ağıdı, o qarasıdı.
Lakin bu dünyada olmayıb deyən,
Bunun vətən hansı, qürbət hansıdı?

Ayrılıq əbədi bir qəmdi, nə qəm,
Nə arzuya qıyır, nə yaşa baxır.
Mən daşa baxmaqdan daşa dönmüşəm,
Üz-üzə durmuşuq: daş daşa baxır.

Üstündən illər keçsə də vəfalı şair öz sevgisinə sadiq qalaraq onu qəlbində hələ də yaşadır, xatirələrini daima əziz tutaraq, ömür nərdivanlarının pillələrində ani rastlaşan, vaxtsız ayrılan, biri qalxarkən digəri enən, bir-birlərinə hər zaman gecikmiş və qüruba doğru yol alan sevgilərini unutmurdu!!!

Bu dünya nərdivandı -
Qalxanda mehribandı,
Enəndə nə yamandı...
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
Sən qalxırdın bu dəmdə,
Mən enirdim xəbərsiz.
Səni arzularına
qaldırırdı nərdivan,
Məni xatirələrə
endirirdi bu zaman.
Birimiz günçıxana.
Birimiz günbatana.
Gərək ya düşməyəydi
bu görüş heç araya.
Ya sən əvvəl gələydin,
Ya mən sonra dünyaya.

Fariz Əhmədov
Elmi Kitabxananın direktoru

QARABAĞLAR – DOĞMA KƏNDİM

Muxtar respublikamız günügündən inkişaf edir, abadlaşır. Hazırda muxtar respublika ərazisində yerləşən hər şəhər, rayon, kənddə bərpa, yenidənqurma, infraquruluş layihələri həyata keçirilir. Bu gözəlləşən, daha doğrusu şəhərləşməkdə olan kəndlərdən biri də Kəngərli rayonunun Qarabağlar kəndidir. Azərbaycanda Qarabağlar adında olan bir neçə kənd var. Bu kəndlər Samux, Göyçay, Şəmkir rayonları ərazisində yerləşir. Amma Naxçıvanda yerləşən kənd digərlərindən fərqlənir.

Kiçik Qafqaz dağı silsiləsində yerləşən yurdumuzun cənnət diyarlarından olan doğma kəndim, istər təbiəti istərsə də insanlarının səmimiyyətinə görə muxtar respublikada, hətta ölkəmizdə şöhrət qazanıb. Sözügedən kənd tarixin mənalı izlərini, böyük sirlərini özündə saxlayır. Kəndin tarixindən bəhs edərkən bu böyük tarixə malik olan kəndin əvvəllər şəhər olduğunu qeyd etmək lazımdır. Düzdür hal-hazırda kənd olan bir yaşayış məntəqəsinin əvvəl şəhər olmağına inanmaq çətindir, lakin əsaslandığım mənbə Naxcıvan Muxtar Respublikası Ali Məclisi Sədri yanında Bilik Fondu tərəfindən nəşr olunan "Qarabağlar türbə kompleksi" kitabıdır. Bu kitabda kompleksin tarixi və etnoqrafik materiallar araşdırılıb, "Qarabağlar" sözünün etimologiyası və türbənin memarlıq xüsusiyyətləri öyrənilib. Bu kitab kənd və ümumilikdə türbə haqqında məlumat almaq istəyənlər üçün etibarlı mənbədir. Qarabağlar şəhər kimi Elxanilər dövləti dönəmində salınıb. Orta əsrlərdə Azərbaycanın qədim və iri şəhərlərindən biri hesab edilirdi. Şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli inkişaf etmişdi. Şəhər adından da göründüyü kimi çoxlu bağ və yaşıllıqlarla örtülmüşdü. Dağlardan axan kiçik çaylardan və bulaqlardan arxlar çəkilmişdi. Bir sözlə, bura Naxçıvanın ən qədim mədəniyyət mərkəzlərindən biri olub. Alimlərin fikirlərinə görə kəndin adı Kəngərlilər tayfasının adından gəlir – yəni Qarabağlar Kəngərlilərin bir qolu olub və burada məskunlaşdıqdan sonra bu yerə öz adlarını veriblər. Kənd haqqında bir çox tarixi mənbələrdən məlumat tapmaq olur. Belə mənbələrdən biri də Övliya Çələbinin "Səyahətnamə" əsəridir. Bu əsərdə kənd haqqında ətraflı məlumat verilir. Müəllif yazır ki, "Bu şəhərin özülünü Mənüçöhr qoyub. Şəhər çox qədimdir. İndi Naxçıvan torpağında ayrıca sultanlıq təşkil edir. III Mehmet zamanında Türklərin əlindən çıxaraq farsların ixtiyarına keçib. Əmir Teymur Qarabağlarda böyük bir qoşun ilə beş ay qışlaqda qalıb. Şəhər çox abaddır, ətrafında ucsuz – bucaqsız münbit düzənlik yerləşir. Bizim xidmətçilər şəhərin içində 40-a qədər minarə sayıblar. Şükür Allaha, bu şəhərdə iqlimin və suyun yaxşılığı bizim əhvalımızı qaydaya saldı. Deyilənlərə görə, burada bağı və üzümlükləri olan 10000-ə qədər ev, 70 mehrab, minarəli 40 cami var. Karvansaray, hamam və bazarlar da çoxdur. Onların sayı artmaqda davam edir. Bura bolluq diyarıdır. Şəhərdə gəzərkən bir bağban bizə 25 çeşid dadlı armud gətirdi. Bunları yeyərkən ağzında dondurma hiss edirsən. Yaqut rəngli nar yetişir. İrəvan düyüsündən bişirilən plov çox dadlıdır". Şəhərin bu dərəcədə inkişaf etmə səbəbi ticarət yolu üzərində yerləşməsidir. Düzdür şəhər birdən-birə yox, işğallar və təbii fəlakətlər nəticəsində dağılıb. İndiki kənd ərazisində arxeoloji qazıntılar zamanı sözü gedən dövrə aid dağıntılara rast gəlinmişdir. Nizaməddin Şami, İbrahim Əfəndi Peçevi, Övliya Çələbi, Fəzlullah Rəşidəddin, N.Xanıkov, Moryer, İ.Şopen, İ.Tavernye kimi alim və səyyahlar Qarabağlar haqqında çox qiymətli məlumatlar veriblər. 2005-ci ilin 6 dekabr tarixli Naxçıvan MR Ali Məclisi Sədrinin imzaladığı sərəncamla Muxtar Respublikanın hər yerində olduğu kimi Qarabağlar kəndində də, tarixi və mədəniyyət abidələrinin qorunub saxlanması və passportlaşdırılması işləri sürətlənərək kənddəki orta əsrlərdən qalma memarlıq abidələri ilə bərabər Asnı piri də, yenidən təmir və bərpa olunmuşdur. Kənddə görülən işlər bununla yekunlaşmır. Naxcıvan-Marağa memarlıq məktəbinin incilərindən olan Qarabağlar türbəsi Unesco tərəfindən siyahıya alınmışdır. Azərbaycan Sovet Ensiklopediyasında baştağın üzərində Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatının adı yazıldığından, onun Quti xatının şərəfinə tikildiyi göstərilir. Burada "Allah" və "Bismillah" sözləri yazılmışdır.

Türbənin bütün səthində kufi xətti ilə yazılmış "Allah" sözü 200 dəfədən artıq təkrar olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq türbə yenidən quruldu. Kənd əhalisinin sayı 7300 dən çoxdur. Bununla yanaşı kəndə müasir tələblərə cavab verən 2 tam orta məktəb, kitabxana, mədəniyyət evi və lazımi strukturlar var. Mən də bu ecazkar təbiətə malik kənddə doğulmuşam. Qış fəslinin kəndə necə yaraşdığını demədən keçsəm haqsızlıq etmiş olaram. Qarın kiçik Qafqaz dağlarında necə göründüyünü kəndin ağ örpək altında balaca uşaq təravətində olduğunu sözlərlə təsvir etmək, kəlimələrə sığışdırmaq çox çətindir. Bu hissləri sadəcə yaşayıb bilmək olar.

Yunis Allahverdiyev
Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ 2021-2022-Cİ TƏDRİS İLİ ÜÇÜN "HƏRBİ TİBB" İXTİSASINA TƏLƏBƏ QƏBULU ELAN EDİR

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin nəzdində açılan "Hərbi tibb" ixtisası üzrə tədris əyani formada və Azərbaycan dilində aparılır. Təhsil müddəti 6 ildir.

"Hərbi tibb" ixtisasına cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, sentyabr ayının 15-dək 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilir.

SƏNƏDLƏRİN QƏBULU:

"Hərbi tibb" ixtisasına qəbul olmaq istəyən namizədlər 1 aprel 2021-ci il tarixdən 30 aprel 2021-ci il tarixədək ərizə ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanlığına müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- rəngli fotoşəkil (baş geyimsiz, anfas) – 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərinin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- elektrokardioqramma;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

Qeyd: Namizədlər hər hansı səbəbdən "Hərbi tibb" ixtisasında təhsil almaqdan imtina etdikləri halda, Naxçıvan Dövlət Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN "HƏRBİ TİBB" İXTİSASINA QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR

Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Naxçıvan Dövlət Universitetinin "Hərbi tibb" ixtisası üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasında müayinədən müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması fakültə dekanlığının sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı IV ixtisas qrupunun fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər "Hərbi tibb" ixtisasına Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələri əsasında qəbul edilirlər.

"Hərbi tibb" ixtisası üzrə qəbul olmuş şəxslər IV kursadək təhsil aldıqdan sonra hərbi andı qəbul edir və bütün növ təminatlarla (geyim, qida və s.) təmin edilirlər. "Hərbi tibb" ixtisasına qəbul olmuş şəxslər IV kursadək Naxçıvan Dövlət Universitetində və kliniki bazalarda, son 2 ili isə hərbi andı qəbul edərək birbaşa Hərbi hospitalda və hərbi şəraitdə təhsil alır və bütün növ təminatlarla təmin edilirlər. "Hərbi tibb" ixtisası üzrə qəbul olmuş şəxslər təhsil müddətində müəyyən edilmiş məbləğdə müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Sənədlər Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində yaradılmış komissiya tərəfindən qəbul olunur.

Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universiteti

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcəkdir.

Əlavə məlumat Naxçıvan Dövlət Universitetinin internet saytında (www.ndu.edu.az) yerləşdiriləcək.

Əlaqə: Telefon: (+99436) 544-08-61 (2700), +99450 300 42 80

Faks: (+99436) 545-72-88

E-poçt: info@ndu.edu.az / admin@ndu.edu.az

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
Telefonlar: 544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor: Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.